RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 58 (10078) 8 aprel 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan və Türkiyə prokurorluq orqanları arasında uğurlu əlaqələr qurulub



### Prezident İlham Əliyev Türkiyə Ali Məhkəməsinin baş prokurorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürkü qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru qəbula görə minnətdarlığını bildirərək, dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduqlarını dedi.

Muhsin Şentürk Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin bütün sahələrdə uğurlu inkişafı məmnunluqla vurğulandı, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələrin olmadığı qeyd edildi.

Görüşdə ölkələrimizin prokurorluq orqanları arasında uğurlu əlaqələrin qurulduğu bildirildi, bu xüsusda Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən səmərəli əməkdaşlığa toxunuldu, təcrübə mübadiləsinin genişləndirilməsinin önəmi vurğulandı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## "2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il oktyabrın 13-də Bişkek şəhərində imzalanmış "2000-ci il 21 iyun tarixli Protokol ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi haqqında Əsasnamə"yə dəyişikliklər edilməsinə dair Protokol" Azərbaycan Respublikasının müvafiq qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2026-cı il*

## Yeni istiqamət, yeni hədəflər



Azərbaycan sülh istəyir və sülh üçün çalışır!

Lakin bu o demək deyil ki, hərbi gücü və imkanları zəifdir!

Qətiyyən!

Ordumuz öz döyüş əzmini də, əsgər və zabitlərimiz hərbi məharətlərini də, yeni texnologiyaya əsaslanan ən müasir silahlarımız atəş dəqiqliklərini və dağıdıcı güclərini də 44 gündə ən yüksək səviyyədə nümayiş etdirdilər.

Lakin müharibə inkişafa deyil, iqtisadiyyatın dağılmasına səbəb olur.

Müharibə problemləri həll etmir, mübahisəli məsələlər danışıqlar və razılaşmalar yolu ilə nizama salınır.

Müharibə insanlara rahatlıq və xoşbəxtlik gətirmir, əksinə, itkilərə, qaçqınlar ordusunun yaranmasına, evsiz və işsiz qalanların sayının artmasına səbəb olur.

Müharibə dünya üçün də faydalı deyil, o, böhranlar yaradır, qiymətlərin artması, inflyasiyanın yüksəlməsi, dövlətlərarası iqtisadi əlaqələrin pozulması, ləngiməsi ilə nəticələnir.

Azərbaycan müharibənin də, qarşılıqlı hörmətə və maraqlara əsaslanan əməkdaşlığın da nə olduğunu yaxşı bilir!

Azərbaycan Prezidenti cənab İlham Əliyev daim sülhə dəvət etsə də, ölkəmizin hərbə hazır olduğunu da bəyan edir:

"Bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir".

"İtlə yoldaş ol, çomağını əldən qoyma" - məşhur atalar sözüdür.

Azərbaycan Prezidenti daim verdiyi vədə, imzaladığı sənədlərə sadiqlik nümayiş etdirib.

Kimsə sözündən qaçanda, yaxud imzaladığı sənədə əməl etmək istəməyəndə belələrini ciddi şəkildə cəzalandırmağı da yaxşı bacarır!

Üçtərəfli Bəyanatın bir neçə bəndinə əməl etmək istəməyən Ermənistanın buna vadar edilməsini 2023-cü ilin aprelində və 19-20 sentyabrında bütün dünya gördü!

Kimlərinsə Ermənistanla birgə hərbi təlimlər keçirməsinin, Avropa İttifaqının dalbadal maliyyə yardımı ayırmasının, hansısa dövlətin və ya beynəlxalq qurumun haylara dəstək sayılan sənədlər qəbul etməsinin heç bir əhəmiyyəti olmur.

Bu gün Ermənistanda revanşist qüvvələr baş qaldıraraq hansısa dövlətin dəstəyi ilə hakimiyyətə gəlmək, köhnə bayatıları oxumaq niyyətindədirlər.

Amma qisasçılıq fikrinə düşənlər unutmamalıdırlar:

Əvvəla, "dəmir yumruq" hazır vəziyyətdədir!

İkincisi, 44 gündə Yerablurun daha beş min məzar genişləndiyini və "döyüşkən xalq"ın 12 min hərbçisinin Azərbaycan əsgərinin qarşısından qaçaraq qorxaq fərariyə çevrildiyini hamı gördü!

Üçüncüsü, Azərbaycan 8 avqustda Vaşinqtonda imzalanan sənədlərə sadiq qalsa da, silahı daim əlindədir!

Dördüncüsü, güvəndiklərinizin, danışıqlarda daim tərəf kimi dəvət etdiklərinizin "köməyi"nin nə olduğunu da unutmayın!

Ən nəhayət, "mifik Ermənistan" xülyası ilə "real Ermənistan"ı itirə biləcəyinizi də yadda möhkəm saxlayın!

Bunu isə sizə rəhbəriniz N.Paşinyan daim tövsiyə edir!

Azərbaycan sülh yolu ilə gedir!

Azərbaycan yeni hədəflər müəyyən edərək yeni istiqamətlərdə inkişaf edir!

Azərbaycanın hərbi qüdrəti də, iqtisadi imkanları da daim artır, möhkəmlənir!

Ən nəhayət, Azərbaycanın nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilən, bunu dəfələrlə əyani şəkildə nümayiş etdirən, dünyanın qəbul etdiyi, hörmət və ehtiramla yanaşdığı İlham Əliyev kimi qüdrətli sərkərdəsi və dövlət başçısı vardır!

Dövlətə 20 ildən artıq rəhbərliyi dövründə dediyini edib!

Bundan sonra da belə olacaqdır!

Unutmayın ki, sülh bizdən çox sizə lazımdır!

4

## Azərbaycanın artan qlobal nüfuzu: regional aktordan strateji gücə doğru



İlham Əliyevin Gürcüstana dövlət səfəri münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Əgər əvvəlki dövrlərdə əməkdaşlıq əsasən enerji, nəqliyyat layihələrini əhatə edirdisə, indi bu münasibətlər çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Xüsusilə Orta dəhliz çərçivəsində Azərbaycanın təşəbbüskarlığı və koordinasiyaedici rolu həlledicidir. Bu da ölkəmizin yalnız Cənubi Qafqaz regionunda deyil, bütün Avrasiya məkanında mühüm logistika qovşağına çevrildiyini göstərir.

Azərbaycan Prezidentinin Gürcüstana səfərinin tarixi əhəmiyyəti həm də onun baş verdiyi beynəlxalq şəraitlə bağlıdır. İran ətrafında hərbi münaqişələr səbəbindən qlobal enerji bazarlarında qeyri-sabitliyin artdığı, nəqliyyat marşrutlarının yenidən formalaşdığı bir dövrdə Azərbaycan sabit və etibarlı tərəfdaş kimi ön plana çıxır. Gürcüstanla əlaqələrin daha da möhkəmləndirilməsi isə bu etibarlılığın institusional əsaslarını gücləndirir.

7

*Akademik Rasim ƏLİQULİYEV:*

## "Ölkənin rəqəmsal inkişafı süni intellekt mərhələsinə qədəm qoyur"

Bu gün ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən rəqəmsal inkişaf, süni intellekt və kibertəhlükəsizlik sahələri dövlət siyasətinin strateji prioritetləri səviyyəsinə yüksəldilmiş, müxtəlif fərman və sərəncamlar, dövlət proqramları və strategiyalar qəbul olunmuşdur. Qürurla qeyd etmək lazımdır ki, artıq Azərbaycanda yüksək göstəricilərə malik rəqəmsal platforma formalaşmaqdadır və bu istiqamətdə əldə olunan nəticələr beynəlxalq səviyyədə müxtəlif qurumlar tərəfindən yüksək qiymətləndirilir.

Lakin qeyd olunan bütün nailiyyətlərə baxmayaraq, ölkə daxilində bu istiqamətdə ayrı-ayrı dövlət qurumları, eləcə də biznes və vətəndaş cəmiyyəti sektorları subyektlərinin fəaliyyətində vahid arxitektur yanaşma və həyata keçirilən İKT layihələrinin koordinasiyası yetərli səviyyədə deyil, bu sahədə hələ də müəyyən pərakəndəlik, qeyri-harmonik inkişaf müşahidə olunmaqdadır.

5

## Orta dəhliz dünyanın ümid marşrutuna çevrilir



Orta dəhlizə investisiya qoyulması Azərbaycana və türk dünyasına çox fayda gətirəcək. Bu, birlik ölkələrinin inteqrasiya və iqtisadi inkişafı ilə yanaşı, beynəlxalq siyasi əhəmiyyətini də artıracaq. Digər tərəfdən, türk regionunda yeni bir münaqişənin yaranmasına maraq göstərilməyəcək. Çünki bu, Asiya ilə Avropanın iqtisadi və siyasi maraqlarına ziddir, Amerika isə Zəngəzur dəhlizinin (TRIPP) açılmasına dəstək və zəmanət verən ölkədir.

8

## Ağdaban fəryadı

Erməni silahlıları tank və BTR-lərlə birlikdə bu dinc məkana qəfildən soxuldular. Cənnət Ağdaban bir andaca cəhənnəmə döndü…

Gecənin qaranlığı səhərin üzündən hələ tam çəkilməmişdi. Başıqarlı zirvələrə söykənən Ağdaban kəndi çarəsizcə çırpınırdı. Dan yeri söküləndə, kəndin üzərinə üfüqdə günəşin ilk şüaları yox, ölümün soyuq nəfəsi çökdü. Meşələrdə quşların nəğmələri kəsildi, hər yeri qulaqbatırıcı gurultu və vahiməli atəş səsləri bürüdü. Evlərin damından yüksələn alov dilləri o an sanki göy üzünü də yandırırdı. Uşaq fəryadı, qadın naləsi ərşə dirənirdi. O gün ağdabanlıların heç kimə yetməyən harayı dağların qoynunda əbədi ağıya çevrilirdi.

1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum etdilər. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarla örtülü meşələrə, dağlara səpələndi. Kəndləri müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən əhali müdafiəsiz qalmışdı. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırdılar, 779 nəfər dinc sakinə divan tutdular.

10

## "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Yerin təki haqqında"Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224 (Cild I); 2024, № 3, maddə 250) aşağıdakı dəyişikliklər edilsin:

1. 7-ci maddənin birinci hissəsinin yeddinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin (qum, qum-çınqıl, gil), habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxurların istifadəsi.".

2. 13-cü maddə üzrə:

2.1. ikinci hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

2.2. aşağıdakı məzmunda səkkizinci və doqquzuncu hissələr əlavə edilsin:

"Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

Yer təki istifadəçilərinə dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə hüququ müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq verilir.".

3. Aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

"Maddə 13-1. **Yerin təki sahələrinin rekultivasiyası**

13-1.1. Yerin təki istifadəçiləri işlərin aparıldığı ərazidə torpağın münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpa edilməsi və yüksəldilməsi, o cümlədən ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması məqsədilə həmin torpaqların rekultivasiyasını rekultivasiya planı əsasında təmin etməlidirlər.

13-1.2. Rekultivasiya planı faydalı qazıntıların istismarını, eləcə də yeraltı qurğuların tikintisini və istismarını həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən yerin təkindən istifadə hüququ əldə edildikdən sonra 3 (üç) ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rekultivasiya planına dair dövlət ekoloji ekspertizasının müsbət rəyi ilə birlikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməlidir.

13-1.3. Yerin təkindən istifadə sahəsinin xüsusiyyətləri, süxurların kimyəvi tərkibi, çirklənmənin növündən asılı olaraq rekultivasiyanın üsulları (mexaniki, bioloji, kimyəvi, termik) və istiqamətləri, o cümlədən müddəti müəyyənləşdirilir, istismarın dərinliyi, faydalı qazıntının növü və istismar ediləcək həcmə uyğun olaraq rekultivasiya planı tərtib edilir.

13-1.4. Rekultivasiya planı hazırlanarkən aşağıdakılar nəzərə alınır:

13-1.4.1. torpağın münbit qatının həcmi və götürüləcək torpağın toplandığı ərazi;

13-1.4.2. faydalı qazıntıların və yanakı süxurların xüsusiyyətləri;

13-1.4.3. ərazinin hidrogeoloji və mühəndis-geoloji şəraiti;

13-1.4.4. süxurların saxlanılma dövründə öz xüsusiyyətlərini dəyişməsinin mümkünlüyü və ətraf mühitə təsiri;

13-1.4.5. yeraltı suların çirklənməsinin yolverilməzliyi;

13-1.4.6. faydalı qazıntıların istismarının müddəti;

13-1.4.7. bərpanın üsulları və ardıcıllığı;

13-1.4.8. bərpa müddəti.

13-1.5. Yerin təki ilə bağlı işlərin aparıldığı ərazilər üzrə rekultivasiya qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2026-cı il*

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri igidliyə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Azər Kərəm oğlu - polkovnik-leytenant

**"Vətən uğrunda" medalı ilə**

Babayev Elmar Elxan oğlu - mayor
İsmayılov Nicat Əbülfəz oğlu - mayor
Quliyev Rüfət Qüdrət oğlu - mayor
Mədətov Fərid Fikrət oğlu - mayor
Babazadə Vaqif Elçin oğlu - kapitan
Səmədov Mədət Fərzulla oğlu - kapitan
İbrahimov Vüsal Cümşüd oğlu- baş leytenant
Ağabalayev Vazeh Xanbala oğlu- leytenant
Ağayev Yaşar Təvəkkül oğlu - ehtiyatda olan baş miçman
Əmranov Rəşad Murtuzəli oğlu - ehtiyatda olan baş miçman
İmamverdiyev Aqil Əzim oğlu - gizir
Novruzlu Səbuhi Rövşən oğlu- çavuş

**"İgidliyə görə" medalı ilə**

Quliyev Şəhriyar İlqar oğlu- polkovnik-leytenant
Quliyev Elnur Əlifağa oğlu - mayor
Mirzəyev Hikmət Elçin oğlu - mayor
Əhmədov Emin Seymur oğlu- leytenant
İbrahimli Tacəddin Əmirullah oğlu - gizir
İsmayılov Oqtay Şahsuvar oğlu - gizir
Quliyev Vaqif İbrahim oğlu - gizir

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Daşdəmirov Vilayət Allahyar oğlu - mayor
Muradov Zaman Muqabil oğlu- mayor
Alxasov Taleh Aydın oğlu - kapitan
Salmanov Tərlan Babək oğlu- kapitan
Abdullayev Rövşən Əhədulla oğlu - gizir
Ağayev Şəmsəddin Əsədulla oğlu - gizir
Babayev İlknur Ramiz oğlu - gizir
Dostalılı Dostalı Şirvan oğlu - gizir
Əliyev Şahin Məhəmməd oğlu - gizir
Xəlilzadə Bəşir Məhəmməd oğlu - gizir
İslamov Emin Bəxtiyar oğlu - gizir
Qurbanzadə Ülvi Babaquli oğlu - gizir
Mərdənov Cəmil Omar oğlu - istefada olan gizir
Muxtarov Kamal Qismət oğlu - gizir
Nuriyev Toğrul Əhliman oğlu - gizir
Yolçiyev Bəşir Qoca oğlu - gizir
Həsənov İsmayıl Bəhlul oğlu- baş çavuş
Nəhmədov Xəzər Sabir oğlu- çavuş
Necəfov Üzeyir Hacı oğlu- ehtiyatda olan kiçik çavuş
Süleymanov Afiq Ziyafət oğlu- kiçik çavuş
Sadıqov Vüsal İbrahim oğlu- əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2026-cı il*

## "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 380-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 380-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin ikinci hissəsinin üçüncü cümləsində, səkkizinci və doqquzuncu hissələrində, 13-1.2-ci (hər iki halda) və 13-1.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13-cü maddəsinin səkkizinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 13-cü maddəsinin ikinci hissəsinin üçüncü cümləsində, doqquzuncu hissəsində və 13-1.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 13-1.2-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Dövlət Ekoloji Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 13-1.2-ci maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi qismində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.

2. "Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin ikinci hissəsinin üçüncü cümləsinə uyğun olaraq, yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi qaydasını;

3.1.2. həmin Qanunun 13-cü maddəsinin doqquzuncu hissəsinə uyğun olaraq, yer təki istifadəçilərinə dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə hüququnun verilməsi qaydasını;

3.1.3. həmin Qanunun 13-1.5-ci maddəsinə uyğun olaraq, yerin təki ilə bağlı işlərin aparıldığı ərazilər üzrə rekultivasiya qaydasını;

3.2."Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 380-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin1998-ci il 27 aprel tarixli 701 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 247 (Cild I)2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "cümləsində və yeddinci hissəsinin birinci cümləsində" sözləri "və üçüncü cümlələrində, yeddinci hissəsinin birinci cümləsində, səkkizinci və doqquzuncu hissələrində, 13-1.2-ci (hər iki halda) və 13-1.5-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci bəndə "Qanunun" sözündən sonra "13-cü maddəsinin səkkizinci hissəsində," sözləri əlavə edilsin;

4.3. 2.4-cü bəndə "Qanunun" sözündən sonra "13-cü maddəsinin ikinci hissəsinin üçüncü cümləsində, doqquzuncu hissəsində,13-1.5-ci maddəsində," sözləri əlavə edilsin;

4.4. aşağıdakı məzmunda 2.11-1-ci və 2.11-2-ci bəndlər əlavə edilsin:

"2.11-1. həmin Qanunun 13-1.2-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Dövlət Ekoloji Ekspertiza Agentliyi qismində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.11-2. həmin Qanunun 13-1.2-ci maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi qismində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar"Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 13-cü maddəsinin səkkizinci hissəsinə əsasən hazırlanmışdır və qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması və bu Qaydalara əsasən müəyyən edilmiş keçid dövründə qeyri-filiz faydalı qazıntı yataqlarından istifadənin tənzimlənməsinin müvəqqəti qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaların əsas məqsədi qeyri-filiz faydalı qazıntı yataqlarından səmərəli istifadənin təmin edilməsi, qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin bu sahədə münasibətləri tənzimləyən normativ hüquqi aktların tələblərinə uyğunlaşdırılması, o cümlədən onlar tərəfindən yer təkindən istifadə və onun mühafizəsi sahəsində müəyyən edilmiş tələblərə dürüst əməl olunması, təhlükəsiz iş şəraitinin yaradılması, eləcə də ətraf mühitin və təbii landşaftın mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsidir.

1.3. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. **dövlət nəzarəti orqanı -** qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə, onların mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılmasını, habelə keçid dövründə qeyri-filiz faydalı qazıntı yataqlarından istifadənin tənzimlənməsini və ona nəzarəti yerin təkindən istifadə sahəsində münasibətləri tənzimləyən və digər aidiyyəti normativ hüquqi aktların tələbləri çərçivəsində həyata keçirən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi;

1.3.2. **keçid dövrü -** bu Qaydaların 8.1-8.3-cübəndlərinin tələbləri nəzərə alınmaqla, bu Qaydalar qüvvəyə mindiyi gündən sonrakı 1 (bir) illik müddət.

1.4. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

**2. Qaydaların tətbiq dairəsi**

2.1. Bu Qaydalar qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan aşağıdakı hüquqi və fiziki şəxslərə şamil edilir:

2.1.1. bu Qaydaların qüvvəyə mindiyi tarixə yer təki sahəsindən faydalı qazıntıların çıxarılması məqsədilə "Dağ-mədən ayırması" statusu (bundan sonra - icazə sənədi) qüvvədə olan yer təki istifadəçilərinə;

2.1.2. bu Qaydaların qüvvəyə mindiyi tarixə icazə sənədinin müddəti bitən və uzadılması barədə "Lisenziyalar və icazələr haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq müraciət edən yer təki istifadəçilərinə.

**3. İşçi qrupun işinin təşkili**

3.1. Bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulan yer təki istifadəçilərinin fəaliyyətinin yerin təkindən istifadə sahəsində münasibətləri tənzimləyən və digər aidiyyəti normativ hüquqi aktların tələblərinə tam uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin (işğaldan azad olunmuş ərazilər üzrə), "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin və aidiyyəti yerli icra hakimiyyəti orqanlarının azı bir nümayəndəsi təmsil olunmaqla, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən işçi qrup yaradılır.

3.2. İşçi qrupun fəaliyyətinə Nazirliyin müəyyən etdiyi sədr rəhbərlik edir və onun işini təşkil edir.

3.3. İşçi qrup, bu Qaydalarla müəyyən edilmiş hüquq və vəzifələri nəzərə alınmaqla, işçi qrupun iclasında təsdiq edilmiş iş planı əsasında fəaliyyət göstərir.

3.4. İşçi qrupun iclasları zərurət olduqda, lakin keçid dövründə altı dəfədən az olmayaraq keçirilir. İşçi qrupun iclaslarının vaxtını və gündəliyini işçi qrupun sədri müəyyən edir.

3.5. İşçi qrupun üzvləri iclaslarda əyani formada, belə iştirak mümkün olmadıqda isə informasiya texnologiyalarından istifadə etməklə distant formada iştirak edə bilərlər.

3.6. İşçi qrupun iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İşçi qrupun iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə, iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir və sədr axırıncı səs verir.

3.7. İşçi qrupun katibi sədr tərəfindən ilk iclas zamanı üzvlər arasından müəyyən edilir.

3.8. İşçi qrupun üzvü təmsil etdiyi dövlət orqanının (qurumunun) adından çıxış edir.

**4. İşçi qrupun vəzifələri və hüquqları**

4.1. İşçi qrupun əsas vəzifələri aşağıdakılardır:

4.1.1. rübdə bir dəfədən az olmayaraq, görülmüş işlər barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məlumat vermək;

4.1.2. bu Qaydaların 5.1.1-ci yarımbəndinə uyğun olaraq işçi qrupa təqdim edilmiş siyahını məlumat üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etmək;

4.1.3. öz fəaliyyəti barədə əhalini məlumatlandırmaq və"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun fəaliyyəti ilə bağlı məlumatları açıqlamaq;

4.1.4. bu Qaydaların 5.1.1-ci yarımbəndində nəzərdə tutulan siyahıya daxil edilmiş yer təki istifadəçilərinin fəaliyyətinin normativ hüquqi aktların tələblərinə uyğunlaşdırılması üzrə görülməsi zəruri olunan tədbirlər, habelə bu məqsədlə yer təki istifadəçiləri tərəfindən təqdim edilməsi tələb olunan sənədlərlə bağlı dövlət nəzarət orqanına tövsiyələr vermək;

4.1.5. qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması və keçid dövründə istifadənin tənzimlənməsi ilə bağlı fəaliyyət üzrə tədbirlərin vaxtında həyata keçirilməsi, yer təki istifadəçilərinin keçid dövrü müddətində qarşılaşdıqları problemlərin operativ aradan qaldırılması və normativ hüquqi aktların tələbləri çərçivəsində digər zəruri dəstək göstərilməsi məqsədilə yer təki istifadəçiləri ilə mütəmadi görüşlər təşkil etmək, habelə əməli və metodiki kömək göstərmək;

4.1.6. bu Qaydaların 5.1.4-cü yarımbəndinə uyğun olaraq qiymətləndirmə prosesində iştirak etmək və qiymətləndirmənin nəticələrinə dair təkliflər vermək.

4.2. Öz vəzifələrini yerinə yetirmək üçün işçi qrupun aşağıdakı hüquqları vardır:

4.2.1. dövlət nəzarəti orqanına və bu Qaydaların 5.1.1-ci yarımbəndində nəzərdə tutulan siyahı ilə müəyyən edilən yer təki istifadəçilərinə bu Qaydalarla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası məqsədilə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.2.2. dövlət nəzarəti orqanından bu Qaydalar üzrə fəaliyyəti barədə rübdə bir dəfədən az olmayaraq hesabat təqdim olunmasını tələb etmək;

4.2.3. dövlət orqanlarının (qurumlarının), habelə digər qurumların nümayəndələrini işçi qrupun fəaliyyətinə cəlb etmək, xarici məsləhətçilərlə və müstəqil ekspertlərlə əməkdaşlıq etmək;

4.2.4. bu Qaydalardan irəli gələn digər hüquqları yerinə yetirmək.

**5. Dövlət nəzarəti orqanının vəzifələri**

5.1. Dövlət nəzarəti orqanının vəzifələri aşağıdakılardır:

5.1.1. keçid dövründə fəaliyyətinin müvafiq normativ hüquqi aktların tələblərinə uyğunlaşdırılması nəzərdə tutulan yer təki istifadəçilərinin siyahısını həmin tarixə yerin təkindən istifadəyə görə ödənilməli olan ödənişlərin, o cümlədən tətbiq edilmiş maliyyə sanksiyalarının, faizlərin və cərimələrin ödənilməsi şərtilə, bu Qaydaların 6-cı hissəsində nəzərdə tutulmuş vəzifələrin icrasına dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə işçi qrupla birlikdə 1 (bir) ay müddətində hazırlamaq və zərurət olduqda yeniləmək;

5.1.2. bu Qaydaların 2.1.2-ci yarımbəndində nəzərdə tutulan yer təki istifadəçilərinə keçid dövrü müddətində birillik icazə sənədini vermək;

5.1.3. keçid dövrü müddətində yer təki istifadəçiləri tərəfindən bu Qaydaların 6-cı hissəsində müəyyən edilən vəzifələrin yerinə yetirilməsinə işçi qrupda təmsil olunan dövlət orqanları (qurumları) ilə birlikdə nəzarət etmək;

5.1.4. bu Qaydaların 8.1-8.3-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, keçid dövrü bitdikdən sonra 3 (üç) ay müddətində bu Qaydaların 5.1.1-ci yarımbəndində nəzərdə tutulan yer təki istifadəçilərinin fəaliyyətini işçi qrupla birlikdə qiymətləndirmək və bu Qaydaların 6-cı hissəsində müəyyən edilən vəzifələri icra edən yer təki istifadəçilərinin fəaliyyətinin davam etdirilməsi ilə bağlı qərar qəbul etmək və aidiyyəti normativ hüquqi aktlardan irəli gələn digər tədbirləri həyata keçirmək;

5.1.5. bu Qaydaların 5.1.4-cü yarımbəndinə uyğun olaraq aparılmış qiymətləndirmə nəticəsində Qanunla müəyyən edilmiş yer təkindən istifadə hüququnun dayandırılması və ya ləğvinin əsasları aşkarlanarsa, həmin istifadəçilərə münasibətdə yer təkindən istifadə hüququnu "Lisenziyalar və icazələr haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq dayandırmaq və yaləğv etmək, qeyri-filiz faydalı qazıntı yataqlarının yenidən istifadəyə verilməsini təmin etmək;

5.1.6. yer təki istifadəçilərinin fəaliyyətinin yer təkindən istifadə sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq davam etdirilməsinin təmin edilməsi istiqamətində digər zəruri tədbirləri həyata keçirmək;

5.1.7. bu Qaydaların 5.1.1-ci yarımbəndində göstərilən siyahıda nəzərdə tutulan yer təki istifadəçilərinə həmin siyahı tərtib edildikdən sonra 10 (on) iş günü müddətində, bu Qaydaların 5-ci hissəsi nəzərə alınmaqla, aşkar edilmiş uyğunsuzluqlara və görülməsi tələb olunan tədbirlərə dair poçt vasitəsilə və ya elektron qaydada bildiriş göndərmək.

5.2. Dövlət nəzarəti orqanı işçi qrupa bu Qaydalarla müəyyən edilmiş vəzifələrinin icrasına dair rüblük hesabat təqdim etməlidir.

**6. Yer təki istifadəçilərinin vəzifələri**

6.1. Qeyri-filiz faydalı qazıntı yataqlarından istifadənin sağlamlaşdırılması ilə bağlı bu Qaydaların 5.1.1-ci yarımbəndində göstərilən siyahıda nəzərdə tutulan yer təki istifadəçilərinin aşağıdakı vəzifələri vardır:

6.1.1. faydalı qazıntı yataqları üzrə qanunla müəyyən edilmiş hallarda ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədini və ya ekoloji pasportu hazırlamaq və dövlət ekoloji ekspertizası rəyini almaq;

6.1.2. istismarı aparılan sahələrdə torpaqların rekultivasiyası üzrə layihələndirmə işləri aparmaq (rekultivasiya planı hazırlamaq);

6.1.3. dağ-mədən işləri ilə əlaqədar yaranan tullantılardan istifadə ilə bağlı Qanunun tələblərinə əməl etmək;

6.1.4. tullantıların daşınması və zərərsizləşdirməsi üzrə fəaliyyəti normativ hüquqi aktların tələblərinə uyğun olaraq həyata keçirmək;

6.1.5. faydalı qazıntıların çıxarılması ilə əlaqədar işlərin texniki layihəsini (və ya dağ işlərinin inkişaf planını) hazırlamaq;

6.1.6. texniki təhlükəsizlik, yanğın təhlükəsizliyi, qaz və elektrik təsərrüfatında təhlükəsizlik tədbirləri üzrə normativ hüquqi aktlarla müəyyən edilmiş tədbirlər görmək;

6.1.7. qurğu və avadanlıqların texniki və ekoloji təhlükəsizlik tələblərinə cavab verməsi ilə bağlı zəruri tədbirlər görmək;

6.1.8. əmək qanunvericiliyi üzrə tələblərə əməl etmək;

6.1.9. torpaq sahəsinin yerquruluşu planını (xəritəsini) əldə etmək;

6.1.10. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə əsasən tələb olunduqda, torpaq sahələri üzərində mülkiyyət və istifadə hüququna dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış almaq;

6.1.11. su obyektlərindən faydalı qazıntıların hasil edilməsi üçün istifadə məqsədilə aidiyyəti dövlət orqanlarından (qurumlarından) müvafiq razılıqlar almaq;

6.1.12. yerin təkindən istifadə sahəsində normativ hüquqi aktlarla müəyyən edilmiş hesabatları və digər texniki sənədləri tərtib etmək, müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırmaq və normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada aidiyyəti üzrə təqdim etmək;

6.1.13. Qanunun 39-cu maddəsi ilə müəyyən edilən ödənişləri həyata keçirmək;

6.1.14. normativ hüquqi aktlarla yer təki istifadəçiləri üçün müəyyən edilən digər vəzifələri yerinə yetirmək.

**7. Yer təki istifadəçilərinin siyahısına dair tələblər**

7.1. Bu Qaydaların 5.1.1-ci yarımbəndində nəzərdə tutulan yer təki istifadəçilərinin siyahısına aşağıdakı sənədlər və məlumatlar əlavə olunmalıdır:

7.1.1. fiziki şəxsə münasibətdə soyadı, adı, atasının adı, hüquqi şəxsə münasibətdə adı;

7.1.2. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

7.1.3."Dağ-mədən ayırması" statusu ilə ayrılmış sahə (ha) və onun koordinatları, habelə icazənin müddəti;

7.1.4. torpaq üzərində hüquq müəyyənedici sənədlərə və torpağın təyinatına dair məlumatlar;

7.1.5. ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi (və ya ekoloji pasport) və rekultivasiya planı;

7.1.6. dağ-mədən işləri ilə əlaqədar yaranan tullantılardan istifadə və faydalı qazıntıların çıxarılması ilə əlaqədar işlərin texniki layihəsi (və ya dağ işlərinin inkişaf planı);

7.1.7. dağ-mədən işləri ilə əlaqədar fəaliyyət göstərən obyektlərin "Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestri"ndə qeydiyyatdan keçirilməsi barədə məlumat;

7.1.8. işəgötürən funksiyasını həyata keçirən yer təki istifadəçisi tərəfindən Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrə əməl olunmasını təsdiq edən sənədlər, yer təki istifadəçilərinin müvafiq ixtisasını və təcrübəsini təsdiq edən sənədlər (diplom, şəhadətnamə).

**8. Yekun müddəalar**

8.1. Bu Qaydaların 5.1.1-ci yarımbəndində göstərilən siyahıda nəzərdə tutulan yer təki istifadəçiləri bu Qaydalar qüvvəyə mindiyi tarixdən etibarən 3 (üç) ay müddətində normativ hüquqi aktların tələblərinə uyğun olaraq sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasını təmin etməlidirlər.

8.2. Bu Qaydaların 8.1-ci bəndində göstərilən müddət bitdikdən sonra dövlət nəzarəti orqanı 1 (bir) ay müddətində yer təki istifadəçilərinin fəaliyyətində normativ hüquqi aktların tələblərinə uyğun olaraq sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsini qiymətləndirir. Qiymətləndirmə nəticəsində yer təki istifadəçisinin fəaliyyətinin normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə cavab vermədiyi müəyyən edilərsə, həmin yer təki istifadəçisinin icazə sənədinin "Lisenziyalar və icazələr haqqında" və "Yerin təki haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq dövlət nəzarəti orqanı tərəfindən dayandırılması və ya ləğv edilməsi işlərinə başlanılır.

8.3. Dövlət nəzarəti orqanı bu Qaydaların 8.1-ci və 8.2-ci bəndlərinə uyğun olaraq öz fəaliyyətində sağlam və təhlükəsiz əmək şəraitini təmin edən, habelə icazə sənədinin dayandırılması və ya ləğv edilməsi nəzərdə tutulan yer təki istifadəçiləri barədə 7 (yeddi) iş günü müddətində işçi qrupa məlumat verməlidir.

8.4. Bu Qaydaların tələblərinə uyğun olaraq ləğv edilmiş icazə sənədi üzrə faydalı qazıntı yataqları Azərbaycan Respublikasının mineral xammala tələbatının ödənilməsi məqsədilə Qanunla müəyyən edilmiş qaydada istifadəyə verilə bilər.

# İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının birgə iclası keçirilib



Aprelin 7-də Azərbaycanın Baş naziri Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycanda neft-qaz və neft-kimya sənayesinin strateji inkişafı, o cümlədən neft emalı və neft-kimya ilə bağlı strateji məqsədlər, inkişaf perspektivləri, uzunmüddətli dövrdə neft məhsullarına ölkədaxili tələbatın dayanıqlı təmin edilməsi və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə yer alan məsələ ilə bağlı SOCAR-ın prezidenti Rövşən Nəcəf təqdimatla çıxış edib. İclasda İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının üzvləri, AİH-in İdarə Heyətinin sədri və baş icraçı direktoru iştirak ediblər.

İclasın yekununda müvafiq qərarlar qəbul olunaraq AİH-in İdarə Heyətinə, SOCAR-a və aidiyyəti qurumlara tapşırıqlar verilib.



# Türk dövlətləri arasında iqtisadi inteqrasiya prosesi müasir dövrün çağırışıdır

Aprelin 7-də Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) İqtisadi əməkdaşlıq komissiyasının "TÜRKPA üzvü olan dövlətlərin birgə iqtisadi fəaliyyətinin həyata keçirilməsinin reallıq və perspektivləri" mövzusunda 13-cü iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Qazaxıstan Respublikası Parlamenti Məclisinin üzvü, TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının sədri Anas Bakkojayev türk dövlətlərinin dünya iqtisadiyyatındakı payı, eləcə də qarşılıqlı ticarət dövriyyəsinin həcmi barədə məlumat verib. O vurğulayıb ki, türk dövlətləri arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişləndirilməsi, daxili ticarətin artırılması iqtisadi diversifikasiyanın təmin olunmasına, ümumi iqtisadi potensialın daha səmərəli reallaşdırılmasına xidmət edir.

Sonra Milli Məclisin komitə sədri Fazil Mustafa çıxış edib. O, Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikrinə istinad edərək bildirib ki, TÜRKPA çərçivəsində birliyin davamlılığının mühüm şərtlərindən biri də güclü iqtisadi əsasların formalaşdırılmasıdır. Komitə sədri vurğulayıb ki, türk dövlətləri arasında iqtisadi inteqrasiya prosesi müasir dövrün çağırışıdır. Bu baxımdan, TURKPA çərçivəsində parlamentlərarası əməkdaşlıq iqtisadi inteqrasiyanın normativ-hüquqi və institusional bazasını gücləndirmək üçün mühüm rol oynayır.

Fazil Mustafa Azərbaycanın türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsini prioritetdə saxladığını deyib və iclasın uzunmüddətli əməkdaşlığın praktik mexanizmlərinin müzakirəsi baxımından səmərəli olacağına inamını bildirib.

Milli Məclisin deputatı Ağalar Vəliyev çıxışında TÜRKPA-ya üzv dövlətlər arasında mövcud birgə iqtisadi layihələrin, o cümlədən birgə müəssisələr və investisiya təşəbbüslərinin, eləcə də azad iqtisadi zonaların imkanlarının daha geniş araşdırılmasının və bu əsasda perspektivli əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini vurğulayıb. Deputat qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət TÜRKPA çərçivəsində çoxşaxəli iqtisadi əlaqələrin genişlənməsinə, ticarət münasibətlərinin stimullaşdırılmasına və qarşılıqlı investisiyaların təşviqinə əlverişli şərait yaradır. Bildirilib ki, Milli Məclis tərəfindən bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə məqsədyönlü və ardıcıl iş aparılır.

Sonra TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, Türkiyə Böyük Millət Məclisinin üzvləri Mahmut Rıdvan Nazırlı, Cemal Enginyurt, Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma, Şimali Kipr Türk Respublikasının Bakıdakı nümayəndəsi Ufuk Turganer, TÜRKPA baş katibinin müavini Muhammet Alper Hayali, Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatı Katibliyinin departament direktoru İsrail Tilegen çıxış ediblər. Onlar TÜRKPA çərçivəsində ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığın konseptual əsaslarının müəyyənləşdirilməsi, eləcə də səmərəli əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədri Anas Bakkojayev iclasın əsas mövzu üzrə hazırlanmış tövsiyə qərarının layihəsini, komissiya sədrinin müavini Bekmurza Ergeşov hesabat məruzəsinin layihəsini, komissiyanın katibi Baurjan Datkayev "Birgə müəssisələr haqqında" model qanun layihəsini müzakirəyə təqdim ediblər. Komissiya üzvləri hesabat məruzəsini, tövsiyə qərarını və model qanun layihəsini təsdiq ediblər.

İclasda Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin Mülki hüquq qanunvericiliyi sektorunun müdiri Azər Səmədov Azərbaycan tərəfinin təşəbbüsü ilə hazırlanan və komissiyanın gələn iclasında baxılması nəzərdə tutulan "Ağıllı şəhər və kənd haqqında" model qanunun layihəsi barədə məlumat verib.

Sonda komissiyanın növbəti iclasının gündəliyi, mövzusu və tarixi müəyyənləşdirilib.

***"Azərbaycan"***

# "Belə səfərlər dostluq münasibətlərinin dərinləşməsinə töhfə verir"

"Region ölkələri arasında dinc və dostluq münasibətlərinin dərinləşdirilməsinin alternativi yoxdur".

AZƏRTAC xəbər verir ki, bu sözləri Tbilisi şəhərinin meri Kaxa Kaladze Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfərini şərh edərkən söyləyib. "Bu səfəri alqışlayıram. Yaxın Şərqdə baş verən çətin prosesləri nəzərə alsaq, sülhdən başqa alternativ yoxdur. Bizim Azərbaycanla dostluq münasibətlərimiz var. Ölkə rəhbərlərinin belə səfərləri dostluq münasibətlərinin dərinləşməsinə töhfə verir", - deyə Kaxa Kaladze bildirib. Onun sözlərinə görə, Azərbaycan Prezidentindən fərqli olaraq Avropa siyasətçiləri Gürcüstanın Orta dəhlizdəki əhəmiyyəti barədə bilərəkdən danışmırlar.

"Geosiyasi mövqeyimiz hər kəs üçün vacibdir. Buna görə də Gürcüstanın bu dəhlizdə istifadəsi arzuolunandır. Bəzi Avropa siyasətçilərinin Gürcüstanın bu məsələdəki rolunu qeyd etməməsinin səbəbi siyasi qərardır. Son illərdə ölkəmizə qarşı şantaj, təhqir və təhdidlərin şahidi oluruq. Bu münasibət qəbuledilməzdir. Bilirik ki, bunun səbəbi ölkənin və gürcü xalqının iqtisadi inkişafına zərər verəcək addımlar atmamağımızdır və buna görə də onlar Gürcüstana qarşı aqressiv münasibət bəsləyirlər", - deyə Kaxa Kaladze qeyd edib.

# Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Milli Məclisdə olub





Aprelin 7-də Milli Məclisin Sədri Sahibə Qafarova qurumlararası əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına uyğun, dostluq və qardaşlıq əsasında inkişaf etdiyi qeyd olunub. Həmçinin strateji müttəfiqlik xarakteri daşıyan dövlətlərarası münasibətlərdən bəhs edilərək, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında dövlət başçıları arasındakı qardaşlıq münasibətlərinin xüsusi rolu vurğulanıb.

Söhbətdə iki ölkənin qanunverici orqanları arasındakı münasibətlərə diqqət yönəldilərək, parlamentarilər, o cümlədən işçi qrupları arasında səmərəli əməkdaşlığın mövcudluğundan məmnunluq ifadə olunub. Həmçinin Azərbaycan və Türkiyə parlamentlərinin müxtəlif parlament əməkdaşlıq platformalarındakı birgə fəaliyyətinin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, bu platformalar regionda sülh, sabitlik və əməkdaşlığa töhfə verirlər.

İki qardaş ölkənin müvafiq qurumları arasında səmərəli əməkdaşlıqdan söz açan spiker Sahibə Qafarova 2021-ci ildə hər iki ölkənin Baş prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi vurğulayıb. Eyni zamanda, çoxtərəfli əməkdaşlıq çərçivəsində yaradılmış Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasının fəaliyyətini yüksək qiymətləndirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürk iki ölkə arasında əlaqələrin dövlət başçılarının müəyyənləşdirdikləri ikitərəfli əməkdaşlıq gündəliyinə uyğun inkişaf etdiyini və bütün istiqamətləri əhatə etdiyini bildirib.

Dünyada və regionda cərəyan edən proseslərə toxunan qonaq Türkiyə və Azərbaycan liderlərinin rolundan bəhs edərək, onların həm xalqları və dövlətləri üçün, həm də beynəlxalq sülh, əmin-amanlıq və əməkdaşlığın təmin olunmasında etibarlı lider və vasitəçi rolunu vurğulayıb.

Görüşdə qonağa Azərbaycan Respublikası Milli Məclisi ilə Baş Prokurorluq arasındakı səmərəli əməkdaşlıq barədə də məlumat verilib.

***"Azərbaycan"***

# Azərbaycan türk dövlətləri arasında əlaqələrin möhkəmlənməsinə böyük töhfələr verir

**Aprelin 7-də Milli Məclisdə TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının 13-cü iclası çərçivəsində "Birgə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün perspektivli sənayelər: aktorlar və amillərin birləşdirilməsi yolları" mövzusunda seminar keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, seminarda TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədri, Qazaxıstan Respublikası Parlamenti Məclisinin üzvü Anas Bakkojayev, İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, İqtisadi əməkdaşlıq komissiyasının üzvü, Türkiyə Böyük Millət Məclisinin deputatı Mahmut Rıdvan Nazırlı, TÜRKPA baş katibinin müavini Muhammet Alper Hayali, Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin ticarət üzrə baş müşaviri Gülixar Yavaş çıxış ediblər.

Çıxışlarda TÜRKPA-ya üzv ölkələr arasında birgə iqtisadi fəaliyyətin reallıqları və perspektivləri, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi ilə bağlı fikirlər səsləndirilib. Türk dövlətlərinin iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsinin vacibliyi vurğulanıb. Bildirilib ki, birgə səmərəli əməkdaşlıq və inteqrasiya, iqtisadi, ticarət, təhlükəsizlik sahələrində qarşılıqlı faydalı əlaqələr iqtisadi artımın sürətləndirilməsinə geniş imkanlar yaradır, ölkələrin hərtərəfli tərəqqisinə xidmət edir.

Fikir mübadiləsi zamanı türk dünyasında iqtisadiyyatın müxtəlif sektorlarında birgə layihələrin icrası imkanları, aktorların və amillərinin effektiv əlaqələndirilməsi yollarının müəyyənləşdirilməsi, dayanıqlı inkişafın təşviqi, ticarət və investisiya əlaqələrinin intensivləşdirilməsindən söhbət açılıb. Tarixi, mədəni və coğrafi baxımdan bir-birinə yaxın olan üzv ölkələr arasında sıx əməkdaşlığın davamlı inkişafını təmin edəcək birgə təşəbbüslərin həyata keçirilməsinə töhfə verəcəyi bildirilib.

Tədbirdə çıxış edən Milli Məclisin komitə sədri, TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının üzvü Fazil Mustafa seminarın mövzusunun həm iqtisadi, həm də geosiyası məzmun daşıdığını söyləyib. O, müasir dünyada iqtisadi işbirliyini suverenlik, təhlükəsizlik və təsir imkanları ilə bağlı strateji alət kimi dəyərləndirib. Dünyada cərəyan edən mürəkkəb proseslər fonunda türk dövlətlərinin koordinasiyalı və məqsədyönlü şəkildə hərəkət etməsinin zəruriliyindən danışıb. Ölkələr arasında enerji, nəqliyyat, logistika dəhlizləri, aqrar sənaye kompleksi və rəqəmsal iqtisadiyyat kimi strateji istiqamətlərdə əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib. Qanunvericilik bazasının, tənzimləmə mexanizmlərinin uyğunlaşdırılmasında parlamentlərin rolundan bəhs edib. Dövlət, biznes və akademik sektorlar arasında əlaqələrin real iqtisadi nəticələr üzərində qurulmasının əhəmiyyətli olduğunu bildirib.

Seminarda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin sektor müdiri Zaur Məmmədov çıxış edərək türk dövlətləri arasında əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini, ölkəmizin bu əlaqələrin möhkəmlənməsinə böyük töhfə verdiyini vurğulayıb. O, türk dövlətləri arasında sənayenin inkişafı və xüsusi iqtisadi zonaların yaradılması, enerji və nəqliyyat sektoru, o cümlədən tranzit imkanlarının genişləndirilməsi, rəqəmsal iqtisadiyyat və innovasiyalar, həmçinin rəqəmsal ticarət platformaların qurulması, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahələrində əməkdaşlıq imkanlarının mövcud olduğunu bildirib.

Daha sonra Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatının (İOFS) Katibliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin direktoru İsrail Tilegen "İslam Əməkdaşlıq Təşkilatı və TÜRKPA ölkələri arasında ət ticarəti strategiyası" mövzusunda təqdimatla çıxış edib. O, TÜRKPA ölkələrinin ət ticarəti sahəsində bir-birini tamamlayan imkanlara malik olduğunu və bu əməkdaşlığın rəqabətədavamlı regional dəyər zəncirinin formalaşmasına şərait yaratdığını vurğulayıb. Qeyd olunub ki, bu ölkələrdə halal sertifikatlı istehsal gücünün artması onların İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində mövcud tələbatın ödənilməsində mühüm üstünlük əldə etməsinə imkan yaradır.

Tədbirdə mövzu ətrafında müzakirələr aparılıb.

***"Azərbaycan"***

# Yeni istiqamət, yeni hədəflər



Müstəqil yaşamaq, müstəqil dövləti olmaq hər bir xalqın ən müqəddəs arzusudur.

Müstəqilliyin yolu isə çox çətin və keşməkeşlidir.

Hər xalq bu mübarizədən qalib çıxa bilmir.

Müstəqilliyə nail olduqdan sonra da bir çox sınaqla üzləşməli olursan.

**Ulu Öndər Heydər Əliyevin təbirincə desək, dövlət müstəqilliyini yaşatmaq onu qazanmaqdan qat-qat çətindir!**

**Xoşbəxtlikdən Azərbaycan xalqı bütün bunların öhdəsindən şərəflə gələ bildi!**

Qarşıda duran əngəl və maneələr, Azərbaycan xalqının müstəqil dövlət kimi yaşamasını istəməyənlər də kifayət qədər idi.

Əvvəlcə müstəqilliyimiz üçün buxova çevrilən "Qarabağ problemi" yenidən dirçəldilərək separatizm hərəkatına rəvac verildi.

Sonra Ermənistanın dostları və havadarları ona hərbi və maliyyə dəstəyi göstərərək, ərazilərimizin işğalına şərait yaratdılar.

*Belə bir gərgin və mürəkkəb vəziyyətdə xalqın əsl rəhbərindən ayrı düşməsi, ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsizlərin rəhbərlik etməsi az qala fəlakətlə nəticələnəcəkdi.*

**Son məqamda Azərbaycan xalqı özünün ən doğru və müdrik qərarını qəbul edərək Ulu Öndər Heydər Əliyevi yenidən ölkəyə rəhbərliyə çağırdı.**

**Xalqın dəvətinə biganə qalmayan Heydər Əliyev geri dönərək mümkün görünməyənləri belə reallıqlara çevirdi:**

- Vətəndaş müharibəsinin alovlarını söndürdü;
- İki dəfə - 1994-cü ilin oktyabr və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin qarşısını aldı;
- Qanunsuz silahlı dəstələr ləğv edilərək əhalidəki külli miqdarda silah-sursat toplanıldı;
- Azərbaycanın bir dövlət kimi məhv edilərək, əvvəllərdə olduğu kimi, kiçik hissələrə bölünməsinin qarşısı alındı;
- Ölkədə möhkəm və dönməz sabitlik yaradıldı;
- Azərbaycanın müstəqilliyi əbədiliyə çevrildi.

*Qarşıda yeni vəzifələr və həllini gözləyən çoxsaylı problemlər də mövcud idi.*

- Ölkənin yeni Konstitusiyası qəbul edildi;
- İki dövlət proqramı qəbul edilərək özəlləşdirmə həyata keçirildi, bazar iqtisadiyyatına keçid təmin olundu;
- Müstəqil daxili və xarici siyasət xətti hazırlanaraq həyata keçirilməsinə başlanıldı;
- "Əsrin müqaviləsi" imzalanaraq ölkə iqtisadiyyatının sürətli inkişafına şərait yaradıldı;
- Uzunmüddətli atəşkəsə nail olundu;
- Azərbaycan beynəlxalq qurum və təşkilatlara üzvlüyə qəbul edildi və s.

**Ömür bundan artığına imkan vermədi.**

**Ulu Öndər Heydər Əliyev ən layiqli siyasi varisini yetişdirərək ölkənin gələcəyini möhkəm və ehtibarlı əllərə tapşırdı, Azərbaycan xalqına müqəddəs vəsiyyətini edərək əbədiyyətə qovuşdu.**

❖ ❖ ❖

**Yeni dövlət başçısı seçilən cənab İlham Əliyev həm Ulu Öndər Heydər Əliyevin yarımçıq qoyduğu işləri başa çatdırmalı, həm də yeni hədəflər müəyyən edərək onların icrasına nail olmalı idi.**

Belə də oldu!

*Ölkə daxilində həllini gözləyən bir sıra təxirəsalınmaz məsələlər vardı:*

- Regionların sosial-iqtisadi inkişafına dair 4 dövlət proqramı qəbul edilərək icra olundu;
- Elektrik enerjisi ilə təminatda mövcud olan fasilələr aradan qaldırıldı;
- 116 yaşayış kompleksi salınaraq məcburi köçkünlərin həyat şəraiti xeyli yaxşılaşdırıldı;
- Sahibkarlığın inkişafına münbit şərait yaradıldı;
- Yoxsulluq və işsizlik 40-50 faizdən 5-6 faizədək endirildi;
- Ölkə üzrə qazlaşdırma 95 faizi keçdi;
- Xalqın sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi üçün əsaslı tədbirlər müəyyənləşdirildi.

*Beynəlxalq sahədə də bir sıra zəruri addımlar atıldı:*

- Beynəlxalq qurum və təşkilatlarda iş gücləndirildi, hücum diplomatiyasına keçid təmin edildi;
- "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri işə salındı;
- "Cənub qaz dəhlizi"nin işə salınması Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasında mühüm rol oynadı;
- Cənab İlham Əliyevin beynəlxalq qurumlara rəhbərliyi dövründə göstərdiyi təşəbbüslər və atdığı addımlar Azərbaycanın dostlarının və tərəfdaşlarının sayını xeyli artırdı;
- Azərbaycan dünyaya həm də idman dövləti kimi təqdim olundu.

*İcra olunan çoxşaxəli və çoxcəhətli işlərlə yanaşı, başlıca hədəf işğal altındakı torpaqların azad edilməsi idi.*

**Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdiyi - "Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir" və "Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir" prinsipinə sonadək sadiq qaldı!**

- Bunun üçün güclü iqtisadiyyat yaratdı;
- Yeni gənc nəsil yetişdirərək onların iştirakı ilə müasir ordu qurdu;
- Həmin ordunu ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırdı;
- Ermənistanın yeni rəhbəri N.Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" söyləyəndə isə "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək "dəmir yumruğ"unu işə saldı.

❖ ❖ ❖

**Azərbaycan heç zaman torpaqlarının işğalı ilə barışmayacaqdır! - bunu dəfələrlə həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev bütün dünyaya bəyan etmişdilər.**

ATƏT-in sülh danışıqlarını şüurlu şəkildə uzatması, əslində, həmsədr dövlətlərin ermənipərəst mövqe tutaraq Azərbaycanı işğalla barışdıracaqlarını güman etmələri müharibəni labüdlüyə çevirirdi.

*Güclü iqtisadiyyatı və möhtəşəm ordusu olan Azərbaycan dördgünlük Aprel döyüşləri sınağından sonra torpaqların yalnız hərbi yolla azad ediləcəyinə əmin olmuşdu.*

Bunun üçün əlverişli məqamın yaranması gözlənilirdi.

**Nəhayət, belə bir gün gəlib çatdı, Ali Baş Komandan İlham Əliyev "İrəli!" əmrini verdi!**

*Azərbaycan tarixinə Zəfər müharibəsi kimi düşən 44 günlük savaş Azərbaycan Ordusunun möhtəşəm qələbəsi ilə başa çatdı!*

İldırım sürətilə davam edən hərbi əməliyyatlar nəticəsində düşmən ordusu məhv edilərək fərarilər dəstəsinə çevrildi, Ermənistan tərəfi yalvar-yaxar edərək kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzaladı.

**Azərbaycan təkcə hərb meydanında deyil, diplomatiya sahəsində və informasiya müharibəsində də qalib gəldi!**

Erməni yenə də erməniliyini göstərdi.

Havadarlarına və müdafiəçilərinə güvənərək üçtərəfli Bəyanatın bir neçə bəndini icra etməkdən yayınmağa çalışdı.

*Daha iki dəfə - 2023-cü ilin aprelində və sentyabrında da "dəmir yumruq" yenidən işə düşdü.*

Bir neçə saat davam edən hərbi əməliyyatlar nəticəsində düşmən ordusunun tör-töküntüləri və terrorçu dəstələri ağ bayraq qaldıraraq təslim oldular, Azərbaycan qanunları əsasında yaşamaq istəməyən erməni separatçıları könüllü şəkildə torpaqlarımızı tərk etdilər.

Ərazisində bir nəfər belə separatçı və əcnəbi əsgər qalmayan Azərbaycan tam və qəti qələbə qazanaraq ərazi bütövlüyünü, dövlət suverenliyini və Konstitusiya əsaslarını da bərpa etdi.

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin şücaəti sayəsində ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoyuldu, Azərbaycan qarşıya qoyduğu birnömrəli hədəfinə çatdı!**

*Əsas milli ideya uğurlu həllini tapdıqdan sonra yeni hədəflərin müəyyənləşməsi zərurətə çevrildi.*

❖ ❖ ❖

**Azərbaycan dünyada yeganə ölkədir ki, öz gücü və imkanları hesabına müharibə apardı, hərbi yolla məqsədinə çatdı, qalib ölkə olsa belə şərtləri müəyyən edərək sülh təklifini özü irəli sürdü.**

Ölkəmizin baş problemini uğurla həll etməsi, qloballaşan dünyada baş verən bir sıra proseslər balanslaşdırılmış və uzaqgörən siyasət yürüdülməsini zəruri edir.

**Bu sahədə Azərbaycan Prezidenti İlham Əliyevin atdığı addımlar müdrik və səmərəli olmaqla yanaşı, dünya tərəfindən də bəyənilir və təqdir olunur.**

Çünki bu siyasətin mayasında sülhpərvərlik və hamıya fayda gətirmək niyyəti durur.

*Bəli, Azərbaycan güclü ordu quraraq istədiyinə nail oldu!*

*Bu gün isə onun məqsədi sülh və əməkdaşlıq yolu ilə dövləti daha da inkişaf etdirmək, yeni çağırışlara cavab verməkdir.*

Bir sıra istiqamətlər üzrə fəaliyyət davam etdiriləcəkdir, bu təbii və normaldır!

**Əsas məqsədə çatdıqdan sonra yeni hədəflərin müəyyənləşdirilməsi də anlaşılandır.**

- İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun daha da inkişafı;
- Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi;
- Avropa İttifaqı ilə əməkdaşlığın davam etdirilməsi;
- Təbii qaz ixracının ilbəil artırılması;
- İqlim dəyişmələrindən irəli gələn çətinliklərə hər an hazır olmaq;
- Yeni layihələrin reallaşdırılmasına nail olmaq - külək, günəş, su-elektrik stansiyalarının sayını artırmaq;
- "Yaşıl enerji" istehsalını və onun dünya bazarlarına çıxarılmasını diqqət mərkəzində saxlamaq;
- Orta dəhlizi işə salmaq və dünya dövlətlərinin onun vasitəsilə daha çox yük daşımasına nail olmaq;
- TDT ilə qarşılıqlı faydalı əlaqə və əməkdaşlığı daim inkişaf etdirmək;
- Beynəlxalq təşkilatlarda iştirakla bərabər, onlardan ölkənin maraqları naminə daha çox faydalanmaq;
- Azərbaycanın beynəlxalq nüfuzunu və siyasi çəkisini daim artırmaq.

**Bütün bu və digər hədəflər, məqsəd və vəzifələr ölkənin maraqlarının təmininə xidmət edir.**

*Bəs bu sahədə qazanılan uğur və nailiyyətlər hansılardır?*

*Sualın cavabını yaxınlarda ABŞ-nin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Uitkoffun beynəlxalq forumda çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev haqqında söylədiyi fikirlərdə tapmaq olar:*

**"Dünyada bir sıra güclü liderlər var. Mən İlham Əliyevi xüsusi qeyd etmək istəyirəm. O, ölkəsini dəyişdirən xüsusi liderdir... Belə liderlər dünya üçün vacibdir, çünki onlar sabitlik yaradır və əməkdaşlıq üçün imkanlar açır".**

Diqqəti daha bir məqama çəkmək istəyirik.

*Stiv Uitkoffun açıqlamasından belə bir qənaət də yaranır ki, Azərbaycan Prezidentinin son dövrdə apardığı siyasət və gördüyü işlər ölkəmizlə bərabər, dünya üçün də vacib və əhəmiyyətlidir.*

❖ ❖ ❖

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin son dövr çıxış və açıqlamalarında görülən və görüləcək işlərlə bağlı maraqlı fikirlərə rast gəlirik:**

*"Planlarımıza gəldikdə, bəli, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün "Cənub qaz dəhlizi" artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".*

*"Biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Əlbəttə ki, bu, böyük aktivdir. Beləliklə, biz onu ixrac etməliyik. Hazırda elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı əvəzləmək məqsədilə daxili tələbat üçün istifadə etməliyik. Kommunikasiya sektoru, süni intellekt, data mərkəzləri ilə bağlı planlarımız da daxil olmaqla artan iqtisadiyyat və sənaye üçün şəraiti təmin etməliyik".*

*"Biz hidroelektrik stansiyalarına sərmayə yatırırıq. Bu layihələr Ermənistanın işğalından azad edilmiş ərazilərdə icra olunur. Hələ ki, 307 meqavat gücündə hidroelektrik stansiyalar artıq sistemimizə qoşulub. Planlarımız bunu 2-3 ilə təqribən ikiqat artırmaqdır. Bu, bizə əlavə potensial və ucuz enerji verəcək".*

*"Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir".*

*"Beləliklə, hidroenerji, Günəş enerjisi, külək enerjisi, potensial olaraq termal enerji, - biz hazırda bu məsələni araşdırırıq, - qaz və bütün mümkün kombinasiyalar nəzərdən keçirilir və işin məhz belə aparılması zəruridir".*

**Söylənilənlərə diqqət yetirdikdə görürük ki, Azərbaycan müxtəlif hədəfləri üzvi şəkildə bir-biri ilə əlaqələndirməyi də ustalıqla bacarır.**

- Ölkədə "Böyük qayıdış" proqramı sürətlə icra olunur;
- Otuz il ərzində ermənilərin xaraba qoyduqları ərazilərdə yeni tipli yaşayış məntəqələri salınır;
- Yurd həsrəti çəkən keçmiş məcburi köçkünlər sistemli şəkildə doğma yurd-yuvalarına qayıdaraq dövlətin onlar üçün tikib təmir etdiyi evlərdə və mənzillərdə məskunlaşır, xoşbəxt günlərinə başlayırlar.

*Bu prosesin gedişində iqtisadi inkişafın yeni istiqamətləri də müəyyənləşir.*

- Müasir infrastruktur qurulur, tarixi, mədəni, dini abidələr bərpa edilir, parklar, idman meydançaları, məktəblər, yeni mədəniyyət ocaqları inşa olunur.
- Bölgədə beynəlxalq turizmin inkişafına şərait yaradılır.
- Aqrar sahənin inkişafında mühüm əhəmiyyəti olan su anbarları yenidən qurulur.
- Yeni su-elektrik stansiyaları tikilir, bərpaolunan enerji istehsalına xüsusi diqqət yetirilir.

❖ ❖ ❖

*Azərbaycan sülh istəyir və sülh üçün çalışır!*

*Lakin bu o demək deyil ki, hərbi gücü və imkanları zəifdir!*

*Qətiyyən!*

**Ordumuz öz döyüş əzmini də, əsgər və zabitlərimiz hərbi məharətlərini də, yeni texnologiyaya əsaslanan ən müasir silahlarımız atəş dəqiqliklərini və dağıdıcı güclərini də 44 gündə ən yüksək səviyyədə nümayiş etdirdilər.**

*Lakin müharibə inkişafa deyil, iqtisadiyyatın dağılmasına səbəb olur.*

- Müharibə problemləri həll etmir, mübahisəli məsələlər danışıqlar və razılaşmalar yolu ilə nizama salınır.
- Müharibə insanlara rahatlıq və xoşbəxtlik gətirmir, əksinə, itkilərə, qaçqınlar ordusunun yaranmasına, evsiz və işsiz qalanların sayının artmasına səbəb olur.
- Müharibə dünya üçün də faydalı deyil, o, böhranlar yaradır, qiymətlərin artması, inflyasiyanın yüksəlməsi, dövlətlərarası iqtisadi əlaqələrin pozulması, ləngiməsi ilə nəticələnir.

*Azərbaycan müharibənin də, qarşılıqlı hörmətə və maraqlara əsaslanan əməkdaşlığın da nə olduğunu yaxşı bilir!*

**Azərbaycan Prezidenti cənab İlham Əliyev daim sülhə dəvət etsə də, ölkəmizin hərbə hazır olduğunu da bəyan edir:**

*"Bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir".*

"İtlə yoldaş ol, çomağını əldən qoyma" - məşhur atalar sözüdür.

Azərbaycan Prezidenti daim verdiyi vədə, imzaladığı sənədlərə sadiqlik nümayiş etdirib.

Kimsə sözündən qaçanda, yaxud imzaladığı sənədə əməl etmək istəməyəndə belələrini ciddi şəkildə cəzalandırmağı da yaxşı bacarır!

Üçtərəfli Bəyanatın bir neçə bəndinə əməl etmək istəməyən Ermənistanın buna vadar edilməsini 2023-cü ilin aprelində və 19-20 sentyabrında bütün dünya gördü!

*Kimlərinsə Ermənistanla birgə hərbi təlimlər keçirməsinin, Avropa İttifaqının dalbadal maliyyə yardımı ayırmasının, hansısa dövlətin və ya beynəlxalq qurumun haylara dəstək sayılan sənədlər qəbul etməsinin heç bir əhəmiyyəti olmur.*

Bu gün Ermənistanda revanşist qüvvələr baş qaldıraraq hansısa dövlətin dəstəyi ilə hakimiyyətə gəlmək, köhnə bayatıları oxumaq niyyətindədirlər.

**Amma qisasçılıq fikrinə düşənlər unutmamalıdırlar:**

*Əvvəla,* "dəmir yumruq" hazır vəziyyətdədir!

*İkincisi,* 44 gündə Yerablurun daha beş min məzar genişləndiyini və "döyüşkən xalq"ın 12 min hərbçisinin Azərbaycan əsgərinin qarşısından qaçaraq qorxaq fərariyə çevrildiyini hamı gördü.

*Üçüncüsü,* Azərbaycan 8 avqustda Vaşinqtonda imzalanan sənədlərə sadiq qalsa da, silahı daim əlindədir!

*Dördüncüsü,* güvəndiklərinizin, danışıqlarda daim tərəf kimi dəvət etdiklərinizin "köməyi"nin nə olduğunu da unutmayın!

*Ən nəhayət,* "mifik Ermənistan" xülyası ilə "real Ermənistan"ı itirə biləcəyinizi də yadda möhkəm saxlayın!

*Bunu isə sizə rəhbəriniz N.Paşinyan daim tövsiyə edir!*

- Azərbaycan sülh yolu ilə gedir!
- Azərbaycan yeni hədəflər müəyyən edərək yeni istiqamətlərdə inkişaf edir!
- Azərbaycanın hərbi qüdrəti də, iqtisadi imkanları da daim artır, möhkəmlənir!

**Ən nəhayət, Azərbaycanın nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilən, bunu dəfələrlə əyani şəkildə nümayiş etdirən, dünyanın qəbul etdiyi, hörmət və ehtiramla yanaşdığı İlham Əliyev kimi qüdrətli sərkərdəsi və dövlət başçısı vardır!**

Dövlətə 20 ildən artıq rəhbərliyi dövründə dediyini edib!

Bundan sonra da belə olacaqdır!

*Unutmayın ki, sülh bizdən çox sizə lazımdır!*

**Bəxtiyar SADIQOV**

## Akademik Rasim ƏLİQULİYEV:

# "Ölkənin rəqəmsal inkişafı süni intellekt mərhələsinə qədəm qoyur"

**Müasir dövrdə rəqəmsal texnologiyaların, xüsusilə süni intellektin sürətli inkişafı dövlət idarəçiliyindən başlayaraq iqtisadiyyatın bütün sahələrində yeni imkanlar və yanaşmalar formalaşdırır. Dünyanın aparıcı ölkələri artıq idarəetmə sistemlərində süni intellekt əsaslı qərar dəstək mexanizmlərindən istifadə etməyə başlayıb və bu tendensiya qlobal rəqəmsal transformasiyanın əsas istiqamətlərindən birinə çevrilib.**

**Azərbaycan da bu prosesdən kənarda qalmır. Ölkəmizdə rəqəmsal transformasiyanın sürətləndirilməsi, innovativ texnologiyaların tətbiqi və milli süni intellekt ekosisteminin formalaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyevin "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər də göstərir ki, gələcəyin idarəetmə modeli artıq yüksək texnologiyalar və intellektual sistemlər üzərində qurulur.**

**Azərbaycanda bu sahədəki vəziyyət barədə AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev "Azərbaycan" qəzetinə müsahibə verib. Alim müsahibəsində Azərbaycanın yeni rəqəmsal arxitekturasının yaradılması, bu istiqamətdə qarşıya qoyulan vəzifələr, problemlər və perspektivlər, eləcə də ölkəmizdə süni intellekt və rəqəmsallaşma sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlərdən söz açıb.**



*- Rasim müəllim, dövlətimizin başçısı Azərbaycanın yeni rəqəmsal arxitekturasının yaradılması ilə bağlı müvafiq dövlət qurumları, həmçinin elmi müəssisə və təşkilatların qarşısına da mühüm vəzifələr qoymuşdur. Sizcə, bu təşəbbüs ölkəmizin rəqəmsal inkişafı baxımından hansı strateji məqsədlərə xidmət edir və əsas gözləntilər nədən ibarətdir?*

- Bildiyiniz kimi, son 20 il ərzində ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) cəmiyyətin və dövlət həyatının müxtəlif sahələrində geniş tətbiqi ilə bağlı ardıcıl işlər həyata keçirilmiş, rəqəmsal cəmiyyətin formalaşması istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Ölkənin telekommunikasiya infrastrukturu əsaslı şəkildə yenidən qurulmuş, həm stasionar, həm də mobil rabitə şəbəkələri təkmilləşdirilmiş və ən son texnologiyalarla təmin olunmuşdur.

Bu gün ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən rəqəmsal inkişaf, süni intellekt və kibertəhlükəsizlik sahələri dövlət siyasətinin strateji prioritetləri səviyyəsinə yüksəldilmiş, müxtəlif fərman və sərəncamlar, dövlət proqramları və strategiyalar qəbul olunmuşdur. Qürurla qeyd etmək lazımdır ki, artıq Azərbaycanda yüksək göstəricilərə malik rəqəmsal platforma formalaşmaqdadır və bu istiqamətdə əldə olunan nəticələr beynəlxalq səviyyədə müxtəlif qurumlar tərəfindən yüksək qiymətləndirilir.

Lakin qeyd olunan bütün nailiyyətlərə baxmayaraq, ölkə daxilində bu istiqamətdə ayrı-ayrı dövlət qurumları, eləcə də biznes və vətəndaş cəmiyyəti sektorları subyektlərinin fəaliyyətində vahid arxitektur yanaşma və həyata keçirilən İKT layihələrinin koordinasiyası yetərli səviyyədə deyil, bu sahədə hələ də müəyyən pərakəndəlik, qeyri-harmonik inkişaf müşahidə olunmaqdadır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni rəqəmsal arxitekturasının formalaşdırılmasının əsas məqsədi məhz uzun illər ərzində yaranmış müxtəlif xarakterli rəqəmsal fərqlərin aradan qaldırılması, sinxron və harmonik fəaliyyətin təmin edilməsi, nəticə etibarilə virtual məkanda dövlətin kibertəhlükəsizliyinin təmin olunması və kibersuverenliyin dayaqlarının möhkəmləndirilməsidir. Rəqəmsal arxitekturanın əsas strateji hədəflərindən biri də dövlət maraqları çərçivəsində inteqrasiya olunmuş rəqəmsal mühitin qurulması, vahid milli data ekosisteminin, etibarlı şəbəkə-kommunikasiya infrastrukturunun yaradılması və idarəetmənin səmərəliliyi kimi kompleks məsələlərin həll edilməsidir.

Məlumdur ki, artıq Azərbaycan əşyaların interneti və big data erasına qədəm qoymuşdur. Bu kimi qabaqcıl texnologiyaların tətbiqi və inkişafı üçün isə böyükhəcmli, etibarlı məlumat bazaları və rəqəmsal platformalar tələb olunur. Eyni zamanda ölkənin beynəlxalq internet əlaqələrinin şaxələndirilməsi və qlobal informasiya mühitinə çıxış imkanlarının gücləndirilməsi də vacib istiqamətlərdən hesab edilir.

Qeyd etmək lazımdır ki, bu gün ayrı-ayrı dövlət qurumlarında və biznes sektorunda fəaliyyət göstərən şirkətlərdə vətəndaşların şəxsi həyatı ilə bağlı müxtəlif təyinatlı məlumat bazaları, mühüm əhəmiyyət kəsb edən informasiya resursları formalaşır. Buna görə də böyükhəcmli məlumatların həm toplanılması və saxlanılması, həm də emalı və ötürülməsi üçün müvafiq texnoloji mühitin formalaşdırılması əsas vəzifələrdən biridir. Həmin ilkin verilənlərdən, məlumatlardan keyfiyyətli biliklərin əldə olunması dövlət idarəçiliyinin təkmilləşdirilməsinə, süni intellekt texnologiyalarının geniş tətbiqinə, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, həmçinin güvənli milli kibertəhlükəsizlik ekosisteminin formalaşdırılmasına xidmət edəcəkdir.

Digər mühüm məsələ isə ondan ibarətdir ki, hazırda ölkəmizdə bir sıra dövlət qurumları özlərinə məxsus korporativ data mərkəzlərini formalaşdırır. Bu mərkəzlərdə toplanan məlumatların emalı üçün yüksək hesablama gücünə malik resurslar, bulud texnologiyaları, o cümlədən superkompüterlər tələb olunur ki, hər bir qurumun da bu imkanlara malik olması əksər hallarda mümkün olmur. Bundan başqa, data mərkəzlərinin yaradılması və dayanıqlı fəaliyyəti böyük maliyyə, enerji və insan resursları tələb edir. Ona görə də ölkə üzrə generasiya olunan və toplanan məlumatların yadda saxlanılması, ümummilli maraqlar naminə vahid ekosistemə inteqrasiyası və onların səmərəli idarə olunması üçün yüksəkixtisaslı kadrların yetişdirilməsi son dərəcə vacibdir.

Bundan başqa, son zamanlar dövlət başçısının rəhbərliyi altında alternativ və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirilir, bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Bir vacib məqamı da qeyd etmək lazımdır ki, rəqəmsal dövlətin, ümumiyyətlə, informasiya cəmiyyətinin ən vacib və ən həssas, kritik dayaqlarından biri də enerji təhlükəsizliyi ilə bağlıdır. Bu səbəbdən son zamanlar müasir texnoloji çağırışlar enerji təhlükəsizliyi məsələsinə tamamilə fərqli bir yanaşmanı aktuallaşdırmışdır. Rəqəmsal dövlət mahiyyət etibarilə bütövlükdə müxtəlif təyinatlı kompüterlərin, telekommunikasiya qurğularının, şəbəkə sistemlərinin əsasında qurulan mürəkkəb bir texnoloji infrastruktur olduğuna görə, elektrik enerjisi təminatı kəsilərsə, onun fəaliyyəti də faktiki olaraq dayanmış olur. Ölkəmizdə qlobal çağırışlar kontekstində formalaşmaqda olan enerji təhlükəsizliyi sahəsində irəli sürülən yeni yanaşmaların və həyata keçirilən innovativ layihələrin əsas arxitektur tələblərindən biri də rəqəmsal dövlətin elektrik enerjisi ilə dayanıqlı və fasiləsiz şəkildə təmin olunmasıdır.

Beləliklə, qeyd olunan kompleks tədbirlərin həyata keçirilməsi dövlət başçısı tərəfindən müəyyən edilmiş strateji vəzifələrin icrasını təmin etməklə yanaşı, eyni zamanda dövlətin rəqəmsal suverenliyinin möhkəmləndirilməsinə, kibertəhlükəsizliyinin yüksək səviyyədə qorunmasına və rəqəmsal dövlətin formalaşdırılması üçün etibarlı institusional zəminin yaradılmasına imkan verir, nəticə etibarilə cəmiyyətimizin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Əlbəttə ki, rəqəmsal dövlətin formalaşması, istismarı və inkişafı proseslərində elmi cəhətdən əsaslandırılmış arxitektur tələblər yerinə yetirilərsə, dövlətin dayanıqlı fəaliyyətinin və kibersuverenliyinin yüksək səviyyədə təmin olunmasına güvənlik yaranar.

*- Məlumdur ki, dövlətimizin başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının sədri təyin edilmişdir. Belə bir şuranın yaradılması hansı zərurətdən meydana çıxmışdır və ölkənin rəqəmsal inkişaf strategiyasının həyata keçirilməsi üçün hansı yeni imkan və perspektivləri vəd edir?*

- Qeyd etdiyim kimi, Prezident İlham Əliyev tərəfindən müvafiq dövlət qurumları, eləcə də elmi müəssisə və təşkilatların, ali məktəblərin qarşısında ölkəmizdə rəqəmsal dövlətin formalaşdırılması, süni intellekt texnologiyalarının tətbiqi və inkişafı istiqamətində genişmiqyaslı və təxirəsalınmaz elmi tutumlu kompleks vəzifələr müəyyənləşdirilmişdir. Ayrı-ayrı dövlət qurumlarının sərəncamında olan informasiya resurslarının qarşılıqlı inteqrasiyasının təmin edilməsi, zəruri hallarda mərkəzləşdirilməsi, vahid texnoloji siyasətin həyata keçirilməsi və ölkə səviyyəsində rəqəmsal mühitin texnoloji suverenliyinin təmin olunması ilə bağlı ciddi tapşırıqlar verilmişdir.

Eyni zamanda dövlət başçısı tərəfindən cari ilin fevral ayında "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün fəaliyyət planı" təsdiqlənmişdir. Fəaliyyət planı çərçivəsində qarşıya qoyulan geniş və çoxşaxəli vəzifələrin icrası əsas etibarilə vahid koordinasiya və effektiv idarəetmə, müxtəlif aspektlər üzrə rəqəmsal fərqlərin ölçülməsi və qiymətləndirilməsi mexanizmlərinin işlənilməsini, o cümlədən müəyyən olunmuş cari boşluqların və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq qərarların qəbul edilməsini və zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Bundan başqa, Prezidentin "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şuranın sədri təyin edilməsi mühüm məsələlərdəndir.

Şuranın yaradılmasında əsas məqsəd dayanıqlı və təhlükəsiz rəqəmsal dövlət infrastrukturunun formalaşdırılması, yüksək keyfiyyətə malik vahid rəqəmsal platformanın yaradılması və cəmiyyətin bütün sektorları - dövlət, biznes və vətəndaş cəmiyyəti üzrə seqmentlərinin fəaliyyətinin harmonik inkişafının təmin olunmasıdır. Bütün bu mürəkkəb sosio-texnoloji proseslərin təşkili və idarə olunmasının təmin edilməsi, dinamikasının mütəmadi izlənilməsi və obyektiv şəkildə qiymətləndirilməsi ilə bağlı ayrı-ayrı dövlət qurumları ilə yanaşı, elm və ali təhsil müəssisələrinin, alim və mütəxəssislərin də qarşısına ciddi vəzifələr qoyulmuşdur. Əlbəttə ki, Rəqəmsal İnkişaf Şurası bütün bu proseslərin əlaqələndirilməsi və ölkədə rəqəmsal inkişafın daha sistemli və sürətli şəkildə həyata keçirilməsi üçün mühüm institusional siyasi idarəetmə platforması kimi çıxış edir.

Artıq müşahidələr göstərir ki, hazırda bütün aidiyyəti dövlət qurumları ölkəmizdə ən prioritet istiqamətlərdən olan rəqəmsal transformasiya, süni intellekt və kibertəhlükəsizlik məsələləri, həmçinin cəmiyyətin rəqəmsal savadlılığının artırılması prosesinə fəal şəkildə cəlb olunmuşlar. Fikrimcə, nəzərdə tutulan müddət ərzində rəqəmsallaşma sahəsində həyata keçiriləcək kompleks tədbirlər dövlətimizin və cəmiyyətimizin inkişafında böyük rol oynayacaq, rəqəmsal dövlətin funksional və intellektual imkanlarının yüksəldilməsinə, nəticə etibarilə həm də onun kiberimmunitetinin gücləndirilməsinə mühüm töhfə verəcəkdir.

*- Rasim müəllim, ölkəmizdə rəqəmsallaşma sahəsində qarşıya qoyulan strateji vəzifələrin həyata keçirilməsi üçün yüksəkixtisaslı kadrların, peşəkar insan resurslarının yetişdirilməsi istiqamətində hansı tədbirlərin görülməsini zəruri hesab edirsiniz?*

- Əlbəttə ki, yuxarıda qeyd etdiyim strateji vəzifələrin icrası beynəlxalq tələblərə cavab verən, innovativ təfəkkürlü, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını zəruri edir. Qeyd etmək lazımdır ki, artıq dövlət başçısının tapşırığı ilə rəqəmsal dövlətin kadr bazasını formalaşdırmaq və davamlı dəstəkləmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, beynəlxalq təcrübəyə istinad edərək bütün ali təhsil müəssisələrində mövcud olan ixtisaslara, tədrisin məzmununa yenidən baxılır, müəyyən qiymətləndirmələr aparılır. Həmçinin rəqəmsal transformasiyanın yaratdığı zərurət nəzərə alınaraq yeni ixtisaslar daxil edilir.

Məlumdur ki, rəqəmsal dövlətin qurulması dövlətin konstitusion vəzifələrinin icrasında rəqəmsallaşmanın geniş tətbiqini zəruri edir. Hazırda rəqəmsal dövlət infrastrukturunda, cəmiyyətin müxtəlif sektorlarında, hakimiyyətin bütün qollarına aid qurumlarda fəaliyyət göstərən mütəxəssislərin İKT biliklərinin attestasiyası, fasiləsiz təhsil mexanizminin formalaşdırılması, peşə biliklərinin qiymətləndirilməsi və sertifikatlaşdırılması dövrün tələbinə çevrilir.

Artıq ölkəmizin ali təhsil müəssisələrində əmək bazarında bəzi ixtisaslara tələbatın kəskin azalması və yeni reallıqlar nəzərə alınaraq onların aktuallığı yenidən dəyərləndirilir. Digər tərəfdən, cəmiyyətin müxtəlif fəaliyyət sferalarına aid mövcud ixtisasların qlobal çağırışların tələblərinə uyğunlaşdırılması və təkmilləşdirilməsi prosesi həyata keçirilir. Bilavasitə kompüter elmləri ilə bağlı olmayan digər ixtisasların da İKT reallıqlarına, süni intellektin tələblərinə uyğunlaşdırılması istiqamətində məqsədyönlü addımlar atılır.

Xüsusilə vurğulamaq istərdim ki, son zamanlar sürətlə inkişaf edən rəqəmsal, o cümlədən süni intellekt texnologiyaları proqram mühəndisliyi, rəqəmsal dövlət, kompüter mühəndisliyi, data analitikası, data mühəndisliyi, kibertəhlükəsizlik, informasiya hüququ, rəqəmsal kriminalistika və s. kimi ixtisaslar üzrə peşəkar kadrlara tələbatı daha da artırmışdır. Artıq ölkəmizdə rəqəmsal arxitektorlar, rəqəmsal menecerlər, sistem mühəndisləri, rəqəmsal hüquqşünaslar kimi yeni peşə istiqamətlərinin formalaşdırılması müasir dövrün tələbidir.

Digər tərəfdən, məlumdur ki, dövlət başçısı tərəfindən 2022-ci ildə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Həmin proqram üzrə ixtisaslar əsas etibarilə rəqəmsal texnologiyalar, süni intellekt və digər əlaqəli ixtisasları əhatə edir. Azərbaycanlı gənclərin dünyanın aparıcı universitetlərində təhsil alması və sonra ölkəmizə qayıdaraq fəaliyyət göstərməsi bu sahədə kadr potensialının inkişaf etdirilməsinə verilən önəmin, diqqətin göstəricisidir.

Bununla yanaşı, kadr hazırlığı sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində də real addımlar atılır, ali təhsilin məzmunu yenilənir, tədris materialları və dərsliklər müasir tələblərə uyğun şəkildə təkmilləşdirilir.

Qeyd etmək lazımdır ki, rəqəmsal dövlət quruculuğu prosesində cəmiyyətin və dövlətin bütün sferaları üzrə kadr hazırlığı yalnız ali təhsil sistemi ilə məhdudlaşmamalı, eyni zamanda müxtəlif təşəbbüslər və layihələr çərçivəsində, biznes və vətəndaş cəmiyyəti sektorlarında da fasiləsiz təhsil, müasir bilik və bacarıqların tədrisi, kadrların yenidən hazırlanması istiqamətində sistemli və davamlı tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac vardır.

*- Sizcə, Azərbaycanda rəqəmsallaşma prosesinin sürətlənməsi və süni intellektin inkişafı kontekstində cəmiyyətin rəqəmsal savadlılığı hansı bilik və bacarıqları, yeni kompetensiyaları əhatə etməlidir?*

- Şübhəsiz ki, bu istiqamətdə qarşımızda duran ən mühüm vəzifələrdən biri də cəmiyyətin yeni rəqəmsal reallıqlara hazırlanması prosesini sistemli və davamlı şəkildə həyata keçirməkdir.

Müasir dövrdə cəmiyyətin hər bir fərdinin rəqəmsal xidmətlərdən istifadə qabiliyyətinə və bacarığına malik olması vacib məsələlərdən birinə çevrilmişdir. Çünki rəqəmsal dövlət konsepsiyası həm də rəqəmsal vətəndaşın formalaşdırılmasını şərtləndirir. Rəqəmsal transformasiyanın effektivliyi isə vətəndaşların müvafiq bilik, bacarıq və kompetensiyalara nail olmasından asılıdır. Ona görə də dövlət tərəfindən bu məsələnin strateji əhəmiyyəti nəzərə alınaraq ardıcıl zəruri tədbirlər həyata keçirilir, rəqəmsal bilik və bacarıqların formalaşdırılması istiqamətində həm orta, həm də ali təhsil sistemində müxtəlif səviyyələrdə müvafiq tədris mexanizmləri tətbiq olunur.

Onu da qeyd etmək lazımdır ki, müasir mərhələdə cəmiyyətdə yeni rəqəmsal bilik və bacarıqların formalaşması prosesi daha da sürətlənmişdir. Xüsusilə süni intellekt texnologiyalarının inkişafı fonunda onların imkanları və üstünlükləri ilə yanaşı, potensial riskləri - deepfake kimi texnologiyaların yayılması, çox müxtəlif kibertəhlükələrin həm beynəlxalq, həm də milli səviyyədə yaratdığı çağırışlar aktuallaşmışdır.

Digər tərəfdən, fiziki məhdudiyyətli şəxslərin, həssas əhali qruplarının cəmiyyətə inteqrasiyası, onların əmək bazarında iştirakının təmin edilməsi və rəqəmsal mühitdə dəyər yaratma imkanlarının genişləndirilməsi inklüziv cəmiyyətin inkişafı baxımından mühüm aktuallıq kəsb edir. Müasir dövrdə hər bir fərd real məkanda olduğu kimi, virtual məkanda da fəaliyyətini qanuni normalar və tələblər çərçivəsində həyata keçirməli, yalnız texnoloji savadlılıq deyil, eyni zamanda rəqəmsal etika, hüquq və mədəniyyətə dair baza biliklərinə və davranış qaydalarına yiyələnməlidir.

Bu baxımdan bütün sosial təbəqələr və qruplar üzrə fasiləsiz öyrənmə, yeni biliklərin əldə olunması, qabaqcıl texnologiyalardan təhlükəsiz istifadə bacarıqlarının inkişaf etdirilməsi son dərəcə vacibdir. Rəqəmsal dövlət mühiti isə yaşından və sosial statusundan asılı olmayaraq bütün vətəndaşlar üçün əlçatan və inklüziv olmalı, onların fərdi maraqlarına xidmət etməklə yanaşı, ümumilikdə, cəmiyyətin dayanıqlı inkişafına töhfə verməlidir.

Cəmiyyətin rəqəmsal savadlılığının təmin olunması prosesi yalnız dövlət qurumlarının deyil, eyni zamanda hər bir fərdin, biznes sektoru, vətəndaş cəmiyyəti institutlarının fəal iştirakını tələb edir. Hər bir vətəndaş bu reallıq kontekstində dərk edərək həm öz üzərində davamlı işləməli, həm də ailə üzvlərinin rəqəmsal inkişafını təşviq etməlidir.

Fikrimcə, rəqəmsal cəmiyyətin institusional əsaslarının gücləndirilməsi məqsədilə vətəndaşların bilik və bacarıq səviyyəsini qiymətləndirməyə imkan verən müvafiq sertifikasiya və ya "rəqəmsal vətəndaş pasportu" mexanizmlərinin tətbiqi də zəruri hesab oluna bilər.

Bundan başqa, media resurslarından səmərəli istifadə etməklə rəqəmsal savadlılığın artırılmasına yönəlmiş maarifləndirmə və təbliğat işlərinin daha sistemli, məqsədyönlü və genişmiqyaslı şəkildə həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, dövlət başçısı həm orta məktəblərdə, həm də ali təhsil müəssisələrində rəqəmsal və süni intellekt biliklərinin icbari qaydada tədrisi ilə bağlı ciddi tapşırıqlar vermişdir ki, bu da ölkəmizin təhsil siyasətində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu uzaqgörən yanaşma gələcək nəslin həm yeni texnologiyaların imkanları, həm də yaratdığı risklər və təhlükələr barədə sistemli biliklərə yiyələnməsini təmin etməyə yönəlmişdir.

Nəticə etibarilə artıq orta təhsil səviyyəsindən başlayaraq formalaşan bu bilik bazası yeni nəslin yüksək kompetensiyalara malik rəqəmsal vətəndaş kimi yetişməsinə xidmət edəcəkdir. Rəqəmsal vətəndaşlar isə innovativ texnologiyaların aparıcı qüvvəsinə çevrilərək cəmiyyətin davamlı intellektual inkişafını sürətləndirəcəklər.

*- Rasim müəllim, rəqəmsallaşma fonunda artan kibertəhlükələr ölkəmiz üçün nə kimi problemlər və risklər yaradır? Bu istiqamətdə fəaliyyətin gücləndirilməsi üçün hansı strateji addımların atılmasını məqsədəuyğun hesab edirsiniz?*

- Rəqəmsallaşma proseslərinin dərinləşməsi ilə paralel olaraq, çox təəssüflər olsun ki, kibertəhlükələr və risklər də qlobal miqyasda sistemli, mürəkkəb və çoxşaxəli xarakter alır. Təbii ki, bu proses Azərbaycandan da yan keçmir. Cəmiyyət həyatının idarəetmə, bank, maliyyə, kommunikasiya, təhsil və sosial münasibətlər kimi əsas sahələrinin getdikcə daha çox rəqəmsal platformalara inteqrasiya olunması yeni imkanlar yaratmaqla yanaşı, müəyyən riskləri də aktuallaşdırır. Bu risklər və təhlükələr təkcə texnoloji deyil, eyni zamanda hüquqi, siyasi-ideoloji, institusional və sosial-iqtisadi baxımdan narahatlıqlar doğuran çağırışlardır.

Vətəndaşların fərdi məlumatlarının ələ keçirilməsi, şərəf və ləyaqətlərinə yönəlmiş kiberhücumlar, bank kartları və maliyyə sistemlərinə müdaxilələr və s. cəmiyyət üçün ciddi narahatlıq doğuran məsələlərdir. Bu nöqteyi-nəzərdən əsas hədəf rəqəmsallaşmanın üstünlüklərindən və imkanlarından maksimum yararlanmaq, eyni zamanda onun yaratdığı riskləri nəzarətdə saxlamaqdır.

Hal-hazırda formalaşmaqda olan rəqəmsal dövlət bir tərəfdən milli dövlətçiliyimizin ayrılmaz tərkib hissəsi, digər tərəfdən isə qlobal virtual mühitin bir seqmenti kimi çıxış edir. Bu səbəbdən rəqəmsal dövlətin dayanıqlığı yalnız ölkədaxili kibertəhlükəsizlik tədbirləri ilə deyil, həm də beynəlxalq kibermühitdə baş verən proseslərin düzgün qiymətləndirilməsi və bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsi ilə təmin olunmalıdır. Məhz bu yanaşmanın nəticəsi olaraq ölkə rəhbərliyi tərəfindən davamlı şəkildə strateji qərarlar qəbul edilir, normativ-hüquqi baza formalaşdırılır və inkişaf etdirilir. Belə ki, Prezident İlham Əliyev tərəfindən 28 avqust 2023-cü il tarixli sərəncamla "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" təsdiq edilmişdir. Bu sənəd rəqəmsal dövlətin təhlükəsizliyinin təmin olunması baxımından konseptual çərçivə rolunu oynayır.

Hazırda ölkəmizdə müvafiq dövlət qurumlarının sıx qarşılıqlı fəaliyyəti əsasında mərkəzləşdirilmiş koordinasiya və vahid prinsiplərlə idarə olunan milli kibertəhlükəsizlik ekosistemi formalaşdırılmaqdadır. Bu ekosistem yalnız baş vermiş kiberinsidentlərə operativ reaksiya mexanizmlərini deyil, eyni zamanda bu insidentlərlə əlaqəli məlumatların sistemli şəkildə toplanmasını, dərin və hərtərəfli intellektual təhlilini, potensial risklərin öncədən müəyyənləşdirilməsini, rəqəmsal mühitdə və obyektlərdə boşluqların aşkarlanaraq aradan qaldırılması üçün tövsiyələrin hazırlanmasını nəzərdə tutur. Bu çərçivədə fərdi məlumatların etibarlı mühafizəsi, uşaqların zərərli və təhlükəli rəqəmsal məzmun və təsirlərdən qorunması prioritet vəzifələr kimi xüsusi diqqət mərkəzində saxlanılır.

Milli kibertəhlükəsizliyin əsas hədəflərindən biri də dövlət qurumlarının rəqəmsal platformada fasiləsiz və dayanıqlı fəaliyyətinin təmin olunmasıdır. Xüsusən də bank-maliyyə sistemlərinin, kritik informasiya infrastrukturlarının, strateji əhəmiyyətli informasiya resurslarının qorunması bu baxımdan prioritet məsələdir. Ayrı-ayrı qurumların kibertəhlükəsizlik vəziyyətinin mütəmadi olaraq kompleks qiymətləndirilməsi, ölkə üzrə kibertəhlükəsizlik vəziyyətinin davamlı monitorinqinin aparılması və qabaqlayıcı tədbirlərin görülməsi xüsusi əhəmiyyət daşıyır.

Nəzərə almaq lazımdır ki, cəmiyyətin və dövlətin kompleks təhlükəsizliyi kontekstində iqtisadi, enerji, ekoloji və s. sferaların təhlükəsizliyi kimi sektorlar da sürətlə rəqəmsallaşır və onlayn platformalara inteqrasiya olunur. Bu kontekstdə əsas məqsəd yalnız kibertəhdidlərə cavab vermək deyil, həm də rəqəmsal dövlətin ifrat mürəkkəb sosio-texnoloji infrastrukturunun kiberdayanıqlığını, həmçinin fövqəladə hallarda belə etibarlı və dayanıqlı fəaliyyət qabiliyyətini artırmaqdır. Xüsusilə son zamanlar əşyaların interneti texnologiyalarına əsaslanan kiberfiziki sistemlərin nəqliyyat, sənaye, enerji və digər kritik infrastrukturlarda geniş tətbiqi real məkanda baş verən müxtəlif təbiətli və mənşəli təhlükələrin də rəqəmsal mühitə təsir imkanlarını artırır. Bu isə kibertəhlükəsizliklə yanaşı, digər növ təhlükəsizlik mexanizmlərinin də inteqrasiya olunmuş şəkildə işlənib hazırlanmasını tələb edir.

Bu kontekstdə milli kibertəhlükəsizlik ekosisteminin effektivliyinin artırılması onun beynəlxalq əməkdaşlıq və koordinasiya münasibətlərinin gücləndirilməsini zəruri edir. Çünki kibertəhlükələr əksər hallarda bir ölkənin sərhədləri ilə məhdudlaşmır. Digər tərəfdən, strateji informasiya resurslarının fövqəladə hallarda həm ölkə daxilində, həm də kənarda data mərkəzlərdə etibarlı saxlanılması rəqəmsal dövlətin kiberdayanıqlığını artırır.

**(Ardı var)**

***Müsahibəni apardı:***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın və Türkiyənin baş prokurorları Bakı Dövlət Universitetində mühazirə oxuyublar

**Aprelin 7-də Azərbaycanın baş prokuroru Kamran Əliyev və Türkiyə Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürk Bakı Dövlət Universitetində (BDU) birgə mühazirə ilə çıxış ediblər.**







Bu barədə AZƏRTAC-a BDU-dan məlumat verilib. Tədbir “Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində prokurorluq orqanlarının beynəlxalq hüquqi əməkdaşlığı” mövzusuna həsr edilib.

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, TDT müasir beynəlxalq münasibətlər sistemində türk dünyasını birləşdirən mühüm regional platformalardan biridir. TDT həm də hüquqi və təhlükəsizlik sahəsində əməkdaşlıq üçün mühüm platformadır. Müasir dövrdə transmilli cinayətkarlıq, kibercinayətlər kimi təhlükələr artıq sərhəd tanımır. Bu isə hüquq-mühafizə və xüsusilə prokurorluq orqanları arasında daha sıx və koordinasiyalı əməkdaşlığı zəruri edir.

Türkiyə Ali Məhkəməsinin baş prokuroru Muhsin Şentürkün mühazirəsində müasir dövrdə terrorizm, insan alveri, qanunsuz miqrasiya, narkotiklərin qaçaqmalçılığı, kibercinayətkarlıq və maliyyə cinayətləri kimi sərhəd aşan təhdidlərin artdığı vurğulanıb. Bildirilib ki, bu cinayətlərlə mübarizədə beynəlxalq əməkdaşlıq zəruri xarakter daşıyır. Bu kontekstdə prokurorluq orqanları ədalətin təmin olunmasında və cinayətkarlığa qarşı mübarizədə əsas institutlardan biridir.

Muhsin Şentürk qloballaşma və rəqəmsallaşmanın cinayətlərin xarakterini dəyişdirdiyini, xüsusilə rəqəmsal mühitdə törədilən cinayətlərin yeni çağırışlar yaratdığını bildirib. Bu baxımdan güclü beynəlxalq hüquqi əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasının vacibliyi vurğulanıb.



Çıxışda TDT təşkilatı çərçivəsində əməkdaşlığın əhəmiyyətinə xüsusi toxunulub. Qeyd edilib ki, təşkilata üzv dövlətlərin Baş prokurorluqları arasında yaradılan şura qarşılıqlı etimadın möhkəmlənməsinə, təcrübə mübadiləsinə və koordinasiyalı fəaliyyətə mühüm töhfə verir. Bu platforma kibercinayətlər və sərhəd aşan digər cinayətlərlə mübarizədə birgə yanaşmaların formalaşdırılmasına imkan yaradır.

Baş prokuror Kamran Əliyev mövzunu həm nəzəri, həm də praktiki aspektlərdən geniş təhlil edərək TDT-nin müasir beynəlxalq münasibətlər sistemində artan rolunu hüquqi prizmadan dəyərləndirib. O bildirib ki, qlobal transformasiyalar şəraitində türk dövlətləri arasında siyasi, iqtisadi, sosial və mədəni inteqrasiyanın davamlılığı, ilk növbədə, hüquqi mexanizmlərin uyğunlaşdırılmasından və institusional əməkdaşlığın gücləndirilməsindən asılıdır.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən türk dünyasının vahid ailə kimi çıxış etməsi ideyasının hüquqi baxımından əhəmiyyətini vurğulayan baş prokuror qeyd edib ki, ortaq hüquqi məkanın formalaşdırılması üzv dövlətlər arasında qarşılıqlı etimadı möhkəmləndirir və regional təhlükəsizliyin təmin olunmasına xidmət edir. Çıxışda qarşılıqlı hüquqi münasibətlərin yalnız siyasi iradə ilə deyil, qanunvericilik bazalarının uyğunlaşdırılması, vahid hüquqi yanaşmaların formalaşdırılması və prokurorluq orqanları arasında operativ əməkdaşlıq mexanizmlərinin tətbiqi ilə mümkün olduğu diqqətə çatdırılıb.

Bundan başqa, transmilli cinayətkarlığın müasir dövrdə yeni formalar aldığı, xüsusilə kibercinayətkarlıq, terrorizmin maliyyələşdirilməsi, insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi və çirkli pulların yuyulması kimi cinayətlərlə mübarizədə koordinasiyalı fəaliyyətin zəruriliyi qeyd olunub. Baş prokuror ibtidai istintaq mərhələsində qarşılıqlı hüquqi yardımın göstərilməsi, rəqəmsal və ənənəvi sübutların toplanması və mübadiləsi, həmçinin operativ informasiya mübadiləsi mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb.

Mühazirədə ekstradisiya institutunun beynəlxalq cinayət hüququnda əhəmiyyətinə də toxunularaq bildirilib ki, TDT-yə üzv dövlətlər arasında olan qarşılıqlı etimad bu prosedurların daha operativ həyata keçirilməsinə imkan verir, habelə prokurorluqlar arasında birbaşa əlaqə mexanizmlərinin inkişafı cinayət törətmiş şəxslərin məsuliyyətdən yayınmasının qarşısının alınmasında mühüm rol oynayır.

Baş prokuror həmçinin türk dövlətlərinin baş prokurorları şurasının fəaliyyətinə toxunaraq bu platformanın yalnız təcrübə mübadiləsi deyil, həm də ortaq hüquqi yanaşmaların formalaşdırılması, birgə istintaq mexanizmlərinin yaradılması və rəqəmsal ədliyyə sistemlərinin inteqrasiyası baxımından strateji əhəmiy-yət kəsb etdiyini bildirib. Prokurorluq əməkdaşlarının peşəkar hazırlığı, akademik mübadilə proqramları və birgə təlimlərin gələcək əməkdaşlığın əsas istiqamətlərindən biri olduğunu vurğulayıb.

# Qazaxıstan nümayəndə heyəti AZƏRTAC ilə əməkdaşlığın daha da genişləndirilməsinə hazır olduğunu bildirib

**Bakıda səfərdə olan Qazaxıstan Respublikası mədəniyyət və informasiya nazirinin müavini Rüstəm Əlinin başçılıq etdiyi nümayəndə heyəti aprelin 7-də Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) olub.**



Nümayəndə heyətinin tərkibinə Qazaxıstan Xarici İşlər Nazirliyinin Beynəlxalq İnformasiya Komitəsinin sədri Erlan Jetibayev və Qazaxıstanın Azərbaycandakı səfirliyinin attaşesi Temirlan Baxıtjan daxil idi.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev ilə keçirilən görüşdə media sahəsində əməkdaşlığın cari vəziyyəti, informasiya qarşılıqlı fəaliyyətinin genişləndirilməsi məsələləri, həmçinin birgə layihələrin həyata keçirilməsi perspektivləri müzakirə edilib.

Qazaxıstan mediası, xüsusilə "Kazinform" agentliyi ilə AZƏRTAC arasında dayanıqlı informasiya mübadiləsinin və beynəlxalq media platformaları çərçivəsində qarşılıqlı fəaliyyətin uğurla davam etdiyini vurğulayan Vüqar Əliyev deyib: "Biz birgə real layihələr vasitəsilə əməkdaşlığın inkişafına və fəal xəbər mübadiləsinə böyük əhəmiyyət veririk. Məqsədimiz ölkələrimiz haqqında dəqiq və operativ informasiya təqdim etməkdir".

Ölkələrimizin liderləri İlham Əliyevin və Kasım-Jomart Tokayevin siyasi iradəsi sayəsində Azərbaycan-Qazaxıstan münasibətlərinin yüksək səviyyədə olduğunu diqqətə çatdıran Vüqar Əliyev bildirib ki, dövlətlərimizin strateji tərəfdaşlığı və müttəfiqlik münasibətləri fəal inkişaf edir, qardaşlıq əlaqələrini, ortaq türk dəyərlərini və iqtisadi əməkdaşlığı daha da möhkəmləndirir.

AZƏRTAC-ın rəhbəri hazırda sosial şəbəkələrin həm informasiyanın yayılmasına kömək etdiyini, həm də tez-tez feyk xəbərlərin mənbəyinə çevrildiyini qeyd edərək deyib: "Bu gün informasiya agentlikləri feyk xəbərlərlə fəal mübarizə aparır. Faktların yoxlanılması onların işinin ayrılmaz hissəsinə çevrilib. Süni intellekt və yoxlama texnologiyalarından feyk xəbərlərin aşkar edilməsində geniş istifadə olunur. Hazırda media sahəsində süni intellektin fəal tətbiqi mərhələsi başlayıb. Süni intellekt informasiya və jurnalistika sahələrinə həm kömək edir, həm də çətinliklər yaradır. AZƏRTAC öz fəaliyyətində yeni süni intellekt texnologiyalarını tətbiq edir".

Şuşa Qlobal Media Forumunun əhəmiyyəti barədə qonaqlara məlumat verən Vüqar Əliyev qeyd edib ki, bu forum artıq təcrübə mübadiləsi və əməkdaşlıq üçün ənənəvi beynəlxalq platformaya çevrilib. Şuşa Qlobal Media Forumu müxtəlif ölkələrin media qurumları arasında əlaqələrin inkişafını, təcrübə mübadiləsini və yeni müqavilələrin bağlanmasını təşviq edir.

Xarici medianın AZƏRTAC ilə əməkdaşlıqda maraqlı olduğu da xüsusi qeyd edilib.

Görüş zamanı qonaqlara agentliyin fəaliyyəti barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, AZƏRTAC-ın xarici ölkələrdə 22 müxbir məntəqəsi var və agentlik səkkiz dildə xəbərlər hazırlayaraq öz kanalları ilə yayır.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Rüstəm Əli isə Azərbaycanda medianın yüksək inkişaf səviyyəsini vurğulayaraq, iki ölkənin jurnalist birlikləri arasında peşəkar əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edib.

"Ölkələrimiz arasında qardaşlıq münasibətləri mövcuddur. Coğrafi məsafəyə baxmayaraq, bizi ortaq dəyərlər və sıx humanitar əlaqələr birləşdirir. Bu cür səfərlər təcrübə mübadiləsinə və daha yaxşı qarşılıqlı anlaşmaya kömək edir", - deyə o bildirib.

Nazir müavini vurğulayıb ki, bu gün insan kapitalının inkişafına, o cümlədən gənc media mütəxəssislərinin dəstəklənməsinə xüsusi diqqət yetirilməlidir. O əlavə edib: "Təcrübə mübadiləsi və gənclərin potensialının inkişaf etdirilməsi əməkdaşlığımızın əsasını təşkil edir. Birgə təşəbbüsləri irəli aparmaq üçün peşəkar jurnalist birliyinin və gənc mütəxəssislərin səylərini birləşdirmək vacibdir".

Rüstəm Əli qeyd edib ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkədə süni intellekt sahəsinin inkişafına və tətbiqinə xüsusi diqqət yetirir. "Ümidvarıq ki, bu ilin sonuna qədər Qazaxıstanda süni intellekt sahəsinin tətbiqində nəzərəçarpacaq nəticələr görəcəyik", - deyə o vurğulayıb.

Söhbət əsnasında tərəflər jurnalistlərin qarşılıqlı səfərlərinin təşkili və birgə media layihələrinin həyata keçirilməsi məsələlərini də müzakirə ediblər.

Görüşdən sonra qonaqlar redaksiyaların fəaliyyəti ilə tanış olub, xəbərlərin və multimedia materiallarının hazırlanması prosesini izləyiblər.

# *Yardımdan investisiyaya:* Aİ və Afrika tərəfdaşlıq modellərini dəyişirlər

**Onilliklərdir ki, Avropa Afrika üçün əsas tərəfdaş olub və inkişafa yardım göstərməklə qonşu qitədə idarəetməni formalaşdırıb. Lakin tənqidçilər bu modelin yeni qlobal reallıqla ayaqlaşmadığını deyirlər. Odur ki, Avropa İttifaqı ABŞ, Çin və Rusiyanın artan rəqabət fonunda Afrika qitəsinə yanaşmasını yenidən nəzərdən keçirir.**




Brüsseldən gələn bu siqnal Afrikada müsbət qarşılanıb və onlar bu formatın müdafiə, texnologiyanın inkişafı və enerji kimi əsas sahələrdə artımı sürətləndirəcəyinə inanırlar. Malavinin sabiq prezidenti Lazarus Çakveranın sözlərinə görə, bu, Afrika liderləri üçün həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə imkanlar yaradır: "Biz böyüdükcə, dünən uyğun olan şey bu gün artıq uyğun olmaya bilir. Buna görə də qarşılıqlı faydalı vəziyyətə nail olmaq və ən yaxşı hərəkət istiqamətini anlamaq üçün davamlı dialoqa ehtiyac var. Bu, müxtəlif tərəfdaşlıq səviyyələrini əhatə edir. Məsələn, Avropa və Afrika arasında ticarət daha böyükdür. Biz inanırıq ki, qitədə iqtisadi inteqrasiya qitə xaricindəki ölkələrlə ikitərəfli müqavilələrimizlə eyni dərəcədə inkişaf etdirilməlidir".

"Hesab edirəm ki, Afrika siyasətimizi yenidən nəzərdən keçirməli və köhnəlmiş və konkret reallıqları nəzərə almayan yardım məntiqindən uzaqlaşmalıyıq", - deyə Avropa Parlamentinin üzvü və Avropa Parlamentinin vitse-prezidenti Yunus Omarci bildirib. Brüsseldə keçirilən Africa Political Outlook (Afrika Siyasi Görünüşü) forumunda çıxış edən Omarci qeyd edib ki, Avropa Afrikadakı maraqlarını tanımalıdır. "Çünki Afrika qitəsində inkişaf və rifah Avropada inkişaf və rifahı müəyyən edir", - deyə o əlavə edib.

Bu cür maraq sahələrindən biri Rusiyanın 2022-ci ildə Ukraynaya tammiqyaslı hücumundan sonra əhəmiyyətli dəyişikliklərə məruz qalan Avropa enerji bazarıdır. İrandakı müharibədən və Tehranın Hörmüz boğazını blokadasından bəri alternativ neft və qaz nəqli marşrutları pozularkən Afrikanın bu sektordakı əhəmiyyəti coğrafi yaxınlığı və nisbətən təhlükəsiz dəniz yolları səbəbindən artır.

Kəsilən qaz təchizatını əvəz etmək üçün İtaliyanın Baş naziri Corca Meloni Əlcəzairlə daha sıx enerji əməkdaşlığına ehtiyac olduğunu bəyan edib. Meloninin sözlərinə görə, Əlcəzair hazırda İtaliyanın təbii qaz ehtiyacının 30 faizdən çoxunu ödəyir. Nigeriya da Cənubi Avropaya əsas qaz tədarükçüsü olaraq qalır: Portuqaliyanın mayeləşdirilmiş təbii qaz idxalının yarıdan çoxu Nigeriyadan gəlir. Analitiklər hesab edirlər ki, Avropa və Afrika arasında bu cür enerji əlaqələrinin dərinləşməsi investisiya axınlarını və qitədəki iqtisadi vəziyyəti tez bir zamanda dəyişdirə bilər. Bununla belə, əsas çətinliklər - infrastruktur və təhlükəsizlik hələ də qalmaqdadır.

Mart ayında Aİ-nin xarici siyasət üzrə rəhbəri Kaya Kallas Nigeriya və Qanaya səfər edib və bu, iki bölgə arasında strateji tərəfdaşlıqda əsas mərhələ olub. Nigeriyada o, miqrasiya ilə bağlı readmissiya müqaviləsi imzalayıb və səhiyyə, kənd təsərrüfatı, maliyyə, miqrasiya, iqlim və rəqəmsal ictimai infrastrukturu dəstəkləmək üçün 288 milyon avro ayırıb. Qanada isə Kallas iki ölkə arasında Qvineya körfəzində terrorizmə qarşı mübarizə və dəniz təhlükəsizliyini əhatə edən ilk təhlükəsizlik və müdafiə tərəfdaşlığı müqaviləsini imzalayıb. Kallas bildirib: "Bu tərəfdaşlıq bizə həm Avropada, həm də Qanada vətəndaşlarımızın təhlükəsizliyi üçün vacib olan sahələrdə daha sıx əməkdaşlıq etməyə imkan verir". O, imzalanmış sənədi Aİ-Afrika münasibətləri tarixində görünməmiş adlandırıb.

Səfərlər və təhlükəsizlik sazişi bəzi analitiklərin fikrincə, Rusiya təbliğatı, antimüstəmləkəçilik və cihadçı zorakılığının dayandırılmaması nəticəsində baş vermiş bir sıra çevrilişlərdən sonra Avropanın regiondakı dominantlığının zəiflədiyi bir vaxta təsadüf edir. Xatırladaq ki, 2020-ci ildən 2026-cı ilin əvvəllərinə qədər Mali, Burkina-Faso, Qvineya, Qabon, Niger, Qvineya-Bisau və Madaqaskarda çevrilişlər baş verib. Həmin dövrdə Fransanın rəhbərlik etdiyi qüvvələrin Sahel bölgəsindən qovulması da müşahidə olunub və bu, yaxın vaxtlaradək Afrikada dominant oyunçu olan Parisin təsirini azaldıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hörmüz boğazı Yaxın Şərqdəki müharibənin iqtisadi cəbhəsinə çevrilib

Dünya ictimaiyyətinin diqqəti Yaxın Şərqə, xüsusilə strateji əhəmiyyətli Hörmüz boğazı ətrafında yaranmış gərginliyə yönəlib. Beynəlxalq logistika zəncirində mühüm halqa sayılan, coğrafi baxımdan Fars körfəzi ilə Oman körfəzini birləşdirən Hörmüz boğazı regionun və dünyanın enerji arxitekturasında mühüm arteriya hesab olunur.



Şimaldan İran, cənubdan isə Oman və BƏƏ ilə hüdudlanan bu su keçidi xam neft ixracının ən mühüm qovşağı sayılır. Səudiyyə Ərəbistanı, İraq, Küveyt və Qətər kimi nəhəng enerji ixracatçıları öz karbohidrogen ehtiyatlarını dünya bazarına bu yolla çıxarırlar. Eyni zamanda boğaz mayeləşdirilmiş təbii qaz tranziti üçün əvəzolunmaz marşrutdur. O səbəbdən boğaz ətrafındakı hərbi toqquşma və blokada qiymətlərin kəskin bahalaşması ilə yanaşı, qlobal iqtisadi sabitliyin ciddi pozulmasına da yol açır. Dünyadakı neft axınının beşdəbirinin bu dar keçiddən asılı olması qlobal maliyyə bazarlarında zəncirvari böhranın yaranmasını qaçılmaz edir. Mütəxəssislər xəbərdarlıq edirlər ki, boğazın uzunmüddətli qapadılması həm istehsalçı, həm də istehlakçı ölkələr üçün fəlakətli ssenari deməkdir.

Beynəlxalq dəniz hüququna əsasən, boğazın ən dar nöqtələri İran və Omanın ərazi sularına daxildir ki, bu da Tehrana ciddi geosiyasi üstünlük verir. İran tərəfi boğazdan keçid üçün yeni qaydalar hazırladığını açıqlayıb. Bu qaydalara əsasən, gəmilər xüsusi icazə və lisenziya almalı olacaqlar. İranın İslam İnqilabı Keşikçiləri Korpusunun Hərbi Dəniz Qüvvələri Hörmüz boğazından keçid rejiminin artıq əvvəlki kimi olmayacağını bəyan edib. İran Silahlı Qüvvələrinin nümayəndəsi Əbülfazl Şekarçi isə bildirib ki, boğaz ABŞ və İsrail üçün uzun müddət bağlı qalacaq.

Məlumata görə, İran ölkələri üç kateqoriyaya ayırıb: "düşmən", "neytral" və "dost". Bildirilir ki, "düşmən" ölkələrin gəmilərinə Hörmüz boğazı vasitəsilə keçid qadağan edilə bilər. "Neytral" ölkələrin gəmilərindən yüksək rüsumların tutulacağı, "dost" ölkələrin isə boğazdan sərbəst keçid imkanına malik olacağı qeyd edilir. Fars körfəzi regionundakı bir çox ərəb ölkəsi "neytral" və ya "düşmən" kateqoriyasına daxil edilib. Bu isə həmin ölkələrin ya yüksək ödənişlərlə üzləşməsi, ya da ümumiyyətlə boğazdan istifadə imkanlarının məhdudlaşdırılması ilə nəticələnə bilər.

İranın xarici işlər nazirinin keçmiş müavini Mehdi Səfəri deyib ki, Hörmüz boğazından keçmək üçün rüsumlar İran rialı ilə ödənilməlidir: "Niyə Hörmüz boğazı üçün rüsumların ödənişində Çin yuanı müzakirə olunur? İndi bu rüsumların İran rialı əsasında alınmasının vaxtıdır. Hörmüz boğazından keçmək istəyən hər bir qurum rial əldə edə və keçid rüsumunu bununla ödəyə bilər".

Vəziyyətin kritik hal aldığını görən Bəhreyn Krallığı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) İran tərəfindən bağlanan mühüm su yolunun yenidən açılması üçün BMT Təhlükəsizlik Şurasına müraciət ediblər. BƏƏ Prezidentinin müşaviri Ənvər Qarqaş bəyan edib ki, Körfəz ölkəsi Hörmüz boğazında təhlükəsizliyi təmin etməyə yönəlmiş beynəlxalq səylərə qoşulmağa hazırdır. Bəhreyn Krallığı da İranın cəhdləri ilə bağlı BMT-yə qətnamə layihəsi təqdim edib. "The Wall Street Journal" nəşrinə görə, bu addımlar bölgədəki enerji blokadasını yarmaq üçün son diplomatik təşəbbüslərdir.

ABŞ isə Hörmüz boğazına nəzarəti ələ keçirmək və gəmilərdən keçid üçün ödəniş almaq niyyətində olduğunu bildirib. Prezident Donald Tramp deyib ki, boğazda normal gəmiçiliyin bərpası Vaşinqton üçün əsas prioritetlərdən biridir: "Bizim belə bir konsepsiyamız var ki, keçid üçün ödəniş tətbiq edək". "Reuters" agentliyində dərc olunan məqalədə vurğulanıb ki, ABŞ və İran arasında artan gərginlik fonunda Hörmüz boğazı ətrafında yaranan vəziyyət dünya iqtisadiyyatı üçün ciddi risklər yaradır. Məqalədə qeyd edilib ki, ABŞ Prezidenti Donald Trampın Tehrana sərt xəbərdarlığına cavab olaraq İran tərəfi rəqiblərini daha geniş və dağıdıcı hücumlarla hədələyib. Bildirilib ki, Hörmüz boğazı faktiki olaraq bağlanıb və bu vəziyyət enerji bazarlarında ciddi dalğalanmaya səbəb olub.

Eyni zamanda onlarca ölkə boğazda gəmiçiliyin bərpası yollarını müzakirə edir. Lakin konkret razılaşma əldə olunmayıb. Avropa ölkələri isə yalnız atəşkəs olacağı halda bu prosesə dəstək verə biləcəklərini bildiriblər. Mütəxəssislərin fikrincə, böhran davam edərsə, qlobal təchizat zəncirlərində problemlər, inflyasiya və iqtisadi geriləmə qaçılmaz olacaq.

Göründüyü kimi, Hörmüz boğazı qlobal güclərin qarşıdurma poliqonuna çevrilib. İranın keçid üzərində hegemonluğu və ABŞ-nin iddiaları qlobal inflyasiyanı idarəolunmaz həddə çatdıra bilər. Avropanın ehtiyatlı mövqeyi və BMT çərçivəsindəki təşəbbüslərin nəticəsiz qalması gərginliyin daha da dərinləşəcəyinə işarə edir. Dünya birliyi ya beynəlxalq dəniz hüququnun bərpası üçün ortaq məxrəcə gəlməli, ya da enerji təhlükəsizliyinin iflası ilə nəticələnəcək daha böyük qlobal böhranla üzləşməlidir. Hörmüz boğazı ətrafındakı oyunun qalibinin kim olacağı bəlli deyil, lakin qlobal iqtisadi sabitliyin sarsıldığı artıq məlumdur.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın artan qlobal nüfuzu: regional aktordan strateji gücə doğru

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana dövlət səfəri həm dost və qonşu ölkə ilə ikitərəfli münasibətlərin daha da inkişafı, həm də Cənubi Qafqazın yeni geosiyasi reallıqları fonunda xüsusi tarixi məna kəsb edən yenilik kimi böyük maraq doğurdu. Bu səfər son illər regionda formalaşmış yeni güc mərkəzinin - Azərbaycanın artan beynəlxalq nüfuzunun daha bir mühüm göstəricisidir.**

Son onilliklər Azərbaycan regionda özünü qlobal əhəmiyyətli iqtisadi, xüsusən logistik mərkəz kimi təsdiqləməyə nail olub. Ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra bölgəmizdə yaranan yeni reallıqlar fonunda bu rol daha da güclənir. Belə bir kontekstdə Gürcüstanla münasibətlər strateji xarakter daşıyır. Tarixən Bakı-Tbilisi xətti üzərində qurulmuş əməkdaşlıq bu gün daha geniş məzmun qazanaraq enerji təhlükəsizliyi, tranzit marşrutları və regional inteqrasiyanın əsas sütunlarından birinə çevrilib.

### Münasibətlərdə yeni mərhələnin başlanğıcı

Məhz bu baxımdan cənab İlham Əliyevin Gürcüstana dövlət səfəri münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Əgər əvvəlki dövrlərdə əməkdaşlıq əsasən enerji, nəqliyyat layihələrini əhatə edirdisə, indi bu münasibətlər çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Xüsusilə Orta dəhliz çərçivəsində Azərbaycanın təşəbbüskarlığı və koordinasiyaedici rolu həllediсidir. Bu da ölkəmizin yalnız Cənubi Qafqaz regionunda deyil, bütün Avrasiya məkanında mühüm logistika qovşağına çevrildiyini göstərir.

Azərbaycan Prezidentinin Gürcüstana səfərinin tarixi əhəmiyyəti həm də onun baş verdiyi beynəlxalq şəraitlə bağlıdır. İran ətrafında hərbi münaqişələr səbəbindən qlobal enerji bazarlarında qeyri-sabitliyin artdığı, nəqliyyat marşrutlarının yenidən formalaşdığı bir dövrdə Azərbaycan sabit və etibarlı tərəfdaş kimi ön plana çıxır. Gürcüstanla əlaqələrin daha da möhkəmləndirilməsi isə bu etibarlılığın institusional əsaslarını gücləndirir.

Prezident İlham Əliyev mətbuata bəyanatında bu məsələyə xüsusi diqqət yetirərək demişdir: "Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim".

### Şərq və Qərb arasında etibarlı körpü

Bu səfər eyni zamanda Azərbaycanın müstəqil xarici siyasət kursunun uğurunu nümayiş etdirir. Bakı regionda balanslaşdırılmış və praqmatik siyasət yürüdərək Şərqlə Qərb arasında körpü rolunu gücləndirir. Bu isə ölkənin beynəlxalq arenada siyasi çəkisinin artmasına, qərar qəbuletmə proseslərində söz sahibinə çevrilməsinə şərait yaradır.

Nəticə etibarilə Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri Azərbaycanın regional liderliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun artması və Cənubi Qafqazın gələcək inkişaf trayektoriyasının müəyyənləşdirilməsi baxımından mühüm tarixi fakt kimi qiymətləndirilməlidir. Ümumilikdə son illər Azərbaycan beynəlxalq münasibətlər sistemində keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Əgər bir zamanlar ölkəmizin rolu daha çox regional kontekstdə dəyərləndirilirdisə, bu gün Azərbaycan çox geniş və qlobal siyasət, iqtisadiyyat üçün son dərəcə mühüm bir coğrfiyada aparıcı geosiyasi və geoiqtisadi aktorlardan biri kimi çıxış edir. Bu transformasiya təsadüfi deyil. Prezident İlham Əliyevin liderliyi ilə aparılan ardıcıl dövlət siyasəti, düzgün seçilmiş prioritetlər və dəyişən qlobal şəraitin dəqiq qiymətləndirilməsi ölkəmizin beynəlxalq nüfuzunu getdikcə artırmaqdadır.

### Dünyanın enerji xəritəsində sabitlik yaradan güc mərkəzi

Bu yüksəlişin arxasında dayanan əsas amillərdən biri təbii ki, enerji diplomatiyasıdır. Azərbaycan Xəzər hövzəsinin zəngin enerji resurslarını beynəlxalq bazarlara çıxararaq təkcə iqtisadi qazanc əldə etməklə kifayətlənmir, eyni zamanda Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir. Enerji layihələri ölkənin siyasi çəkisini artıran mühüm alətə çevrilib və Bakı artıq qlobal enerji xəritəsində sabitlik yaradan güc mərkəzlərindən biri kimi qəbul olunur.

Bir faktı da qeyd edək ki, Azərbaycanın artan nüfuzu yalnız enerji amili ilə məhdudlaşmır. Qlobal ticarət marşrutlarının yenidən formalaşdığı bir dövrdə ölkəmizin nəqliyyat və logistika sahəsində həyata keçirdiyi strategiya xüsusi əhəmiyyət kəsb edir. Avropa ilə Asiyanı birləşdirən Orta dəhlizin əsas halqalarından biri olaraq Azərbaycan tədricən Avrasiyanın mühüm tranzit və logistika mərkəzinə çevrilir. Bu isə ölkəmizə yalnız iqtisadi dividendlər deyil, həm də geosiyasi təsir imkanları qazandırır.

Azərbaycanın uğur modelinin digər mühüm elementi balanslaşdırılmış xarici siyasətdir. Rəsmi Bakı müxtəlif güc mərkəzləri arasında çevik və praqmatik siyasət yürüdərək həm Qərb, həm də Şərqlə əməkdaşlıq münasibətlərini inkişaf etdirir. Bu yanaşma ölkəmizə müstəqil qərarvermə imkanlarını qorumağa və dəyişkən beynəlxalq şəraitdə manevr qabiliyyətini saxlamağa şərait yaradır. Məhz bu çoxvektorlu diplomatiya Azərbaycanın beynəlxalq arenada etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş kimi qəbul olunmasına səbəb olur.

Postmünaqişə dövründə formalaşan yeni reallıqlar da Azərbaycanın regional rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Ölkəmiz yalnız hərbi-siyasi üstünlüyünü təmin etməklə kifayətlənməyərək, eyni zamanda sülh gündəliyinin təşəbbüskarı kimi çıxış edir, quruculuq-bərpa və inteqrasiya layihələri ilə regionda uzunmüddətli sabitliyin formalaşmasına töhfə verir. Bu isə Azərbaycanın regional liderlik mövqeyini daha da gücləndirir.

Azərbaycan çoxtərəfli diplomatiyada da fəallığını artıraraq beynəlxalq platformalarda öz mövqeyini möhkəmləndirir. Müxtəlif qlobal və regional təşəbbüslərdə iştirak, yeni tərəfdaşlıqların qurulması və beynəlxalq tədbirlərə evsahibliyi ölkəmizin beynəlxalq imicini yüksəldən mühüm amillərdəndir. Bu proses Azərbaycanın qlobal dialoq məkanlarında daha görünən və təsirli aktora çevrildiyini göstərir.

Nəhayət, Azərbaycanın geostrateji mövqeyi onun artan nüfuzunun təbii əsasını təşkil edir. Şərq ilə Qərbin, Şimal ilə Cənubun kəsişməsində yerləşən ölkəmiz düzgün siyasət nəticəsində bu coğrafi üstünlüyü real siyasi və iqtisadi gücə çevirə bilib. Nəticədə bu gün Azərbaycan artıq sadəcə tranzit ərazi deyil, qlobal prosesləri birləşdirən və istiqamətləndirən "körpü dövlət" funksiyasını yerinə yetirir.

### Uzunmüddətli strateji inkişaf kursunun müəllifi

Bütün bu amillərin məntiqi nəticəsi olaraq Azərbaycan beynəlxalq münasibətlər sistemində getdikcə daha mühüm rol oynayan, təşəbbüslər irəli sürən və regional deyil, daha geniş miqyasda təsir gücünə malik olan dövlətə çevrilib. Bu isə onu göstərir ki, ölkəmizin qlobal nüfuzunun artması keçici tendensiya deyil, uzunmüddətli strateji inkişaf kursunun nəticəsidir. Bu kursun müəllifi Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş cənab İlham Əliyevdir. Hadisələr göstərir ki, ölkəmizin qlobal nüfuzunun artması təkcə obyektiv geosiyasi və iqtisadi amillərlə bağlı deyil. Bu prosesdə siyasi iradə, strateji baxış və ardıcıl idarəetmə modeli həlledici əhəmiyyət daşıyır. Məhz bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin rolu, tarixi xidmətləri müstəsnadır.

Bu rol ilk növbədə Azərbaycanın xarici siyasət kursunun formalaşdırılmasında və onun davamlılığının təmin edilməsində özünü göstərir. Son illər ölkənin yürütdüyü balanslaşdırılmış və çoxvektorlu diplomatiya məhz mərkəzləşdirilmiş strateji yanaşmanın nəticəsidir. Cənab İlham Əliyevin siyasi iradəsi və məsələlərə strateji baxışı sayəsində müxtəlif güc mərkəzləri ilə paralel və qarşılıqlı faydaya əsaslanan münasibətlərin qurulması Azərbaycanın beynəlxalq arenada manevr imkanlarını genişləndirməkdədir.

Dövlətimizin başçısının liderliyi ilə reallaşdırılan iri enerji layihələri Azərbaycanı Avropanın enerji təhlükəsizliyində əsas tərəfdaşlardan birinə çevirib. Bu isə ölkənin yalnız iqtisadi deyil, siyasi nüfuzunun da artmasına səbəb olub. Eyni zamanda Prezidentin nəqliyyat və logistika strategiyasına verdiyi önəm Azərbaycanın geoiqtisadi rolunu əhəmiyyətli dərəcədə genişləndirib. Orta dəhliz kimi təşəbbüslərin inkişafında respublikamızın aktiv mövqeyi, beynəlxalq tərəfdaşlarla koordinasiya və infrastruktur layihələrinin sürətləndirilməsi birbaşa siyasi rəhbərliyin prioritetləri ilə bağlıdır.

Tarixi Zəfərimizlə regionda yeni reallıqlar yaratmış cənab İlham Əliyev postmünaqişə dövründə yalnız hərbi-siyasi nəticələrin möhkəmləndirilməsi ilə kifayətlənməyərək, regionda yeni əməkdaşlıq formatlarının təşviqi, sülh gündəliyinin irəli sürülməsi və yenidənqurma proseslərinin koordinasiyası ilə çıxış edir. Bu yanaşma Azərbaycanın regional liderliyini daha da gücləndirir.

Bütün bunlarla yanaşı, Azərbaycan Prezidentinin beynəlxalq platformalarda fəal iştirakı, ikitərəfli və çoxtərəfli görüşlərdə irəli sürdüyü təşəbbüslər Azərbaycanın qlobal nüfuzunu daha da artırır. Dövlətimizin başçısının çıxışları, irəli sürdüyü tezislər, sistemli, ardıcıl diplomatik fəaliyyəti ölkəmizin mövqeyini aydın şəkildə dünya ictimaiyyətinə çatdırır. Həmçinin zəmanəmizin ən parlaq siyasi liderlərindən biri kimi cənab İlham Əliyev şəxsiyyətinə olan beynəlxalq rəğbət və inam dövlət rəhbərimizin şəxsində Azərbaycanın qlobal nüfuzunu daha da yüksəldir.

### Davamlı və çoxşaxəli əsaslarla aydın gələcəyə

Müasir dünyamız yalnız geosiyasi deyil, həm də texnoloji və enerji transformasiyası dövrünü yaşayır. Bu dəyişikliklər dövlətlərin beynəlxalq mövqeyini müəyyən edən əsas amilləri yenidən formalaşdırır. Belə bir şəraitdə Azərbaycanın gələcək rolu artıq təkcə enerji və nəqliyyat imkanları ilə deyil, həm də innovasiya, rəqəmsallaşma və "yaşıl inkişaf" strategiyaları ilə müəyyən olunacaq.

Ənənəvi olaraq enerji resursları ilə tanınan Azərbaycan qarşıdakı dövrdə bu üstünlüyünü yeni mərhələyə keçirməyə çalışır. Xüsusilə "yaşıl enerji" sahəsində atılan addımlar ölkəmizin beynəlxalq nüfuzunu artırmaq potensialına malikdir. Xəzər dənizinin böyük külək enerjisi potensialı, Günəş enerjisi layihələri və alternativ enerji mənbələrinə yönəlmiş investisiyalar Azərbaycanın "təmiz enerji" ixracatçısına çevrilməsi perspektivini gücləndirir. Bu isə Avropanın enerji təhlükəsizliyində ölkənin rolunu yalnız qaz və neftlə deyil, həm də bərpaolunan enerji ilə möhkəmləndirəcək.

Buna paralel olaraq, süni intellekt və rəqəmsal texnologiyalar sahəsində inkişaf Azərbaycanın gələcək beynəlxalq mövqeyinə yeni məzmun qazandıracaq. Qlobal iqtisadiyyatın getdikcə rəqəmsallaşdığı bir dövrdə dövlətlərin rəqabət qabiliyyətinin yalnız təbii resurslarla deyil, həm də texnoloji potensialla ölçüldüyünü nəzərə alsaq, Azərbaycanın süni intellekt, rəqəmsal iqtisadiyyat və s. kimi innovativ sahələrə investisiya qoyması ölkəmizi regionun həm də innovasiya mərkəzinə çevirəcək. Bu istiqamətdə həyata keçirilən layihələr respublikamızın artıq yalnız xammal ixracına deyil, bilik və texnologiya əsaslı inkişaf strategiyasına söykənir.

Eyni zamanda Azərbaycanın nəqliyyat və logistika mərkəzi kimi rolu da rəqəmsal transformasiya ilə daha da güclənəcək. Orta dəhlizin inkişafı ilə yanaşı, bu marşrutun rəqəmsal idarə olunması, logistika proseslərinin avtomatlaşdırılması və süni intellektin tətbiqi ölkənin tranzit imkanlarını daha səmərəli və rəqabətqabiliyyətli edəcək.

Bütün bu istiqamətlər Azərbaycanın çoxvektorlu xarici siyasəti ilə vəhdət təşkil edir. Müxtəlif güc mərkəzləri ilə əməkdaşlıq edən ölkəmiz həm enerji, həm texnologiya, həm də nəqliyyat sahələrində paralel tərəfdaşlıqlar quraraq qlobal sistemdə öz yerini daha da möhkəmləndirəcək.

Bu reallıq və perspektivlər ölkəmizin beynəlxalq nüfuzunun daha davamlı və çoxşaxəli əsaslar üzərində formalaşmasını təmin edir, Azərbaycanın qlobal nüfuzunun yeni mərhələyə yüksəldiyini göstərir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

## Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri əməkdaşlıqda yeni imkanlar açır

Azərbaycan-Gürcüstan münasibətləri keyfiyyətcə yeni mərhələyə keçib. Bu mərhələ qonşu dövlətlər arasında münasibətlərin hüquqi, siyasi, iqtisadi və kommunikasiya əsaslarının yenidən nəzərdən keçirilməsi zərurətini yaradıb. Bu istiqamətdə vacib strateji qərarların qəbul edilməsi qaçılmazdır. Prezident İlham Əliyevin Gürcüstana səfəri çərçivəsində məhz bu məsələlər müzakirə olunub, konkret layihələr üzrə razılaşmalar əldə edilib. Görüşlər çərçivəsində müzakirə olunan məsələlər, sadəcə, ikitərəfli əməkdaşlığın artırılmasını deyil, həm də bölgənin təhlükəsizliyini, iqtisadi əlaqələrin və tranzit-kommunikasiya təşəbbüslərinin gələcək perspektivlərini də əhatə edib.



Tərəflər qarşılıqlı hörmət və etimad prinsipinə söykənən təmasların davamlı formada irəlilədiyini təsdiqləyiblər. Gürcüstanın Baş naziri nitqində xalqlarımız arasındakı qədim əlaqələrə işarə edərək deyib: "Əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb". Bu yanaşma iki ölkənin münasibətlərinin təkcə siyasi, yaxud ticari mənfəətlərə deyil, həm də köklü keçmişə dayandığını bir daha təsdiqləyir. Prezident İlham Əliyev isə bəyanatında vurğulayıb ki, mövcud münasibətlər regionda əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradır və tərəfdaşlıq gələcəkdə də inkişaf edəcək. Dövlətimizin başçısı qeyd edib ki, "bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər". Bu yanaşma Azərbaycan və Gürcüstan arasında formalaşmış qarşılıqlı etimadın və ortaq maraqların əhəmiyyətini göstərir.

Səfər çərçivəsində iqtisadi sahədəki tərəfdaşlıq geniş təhlil olunub. Qeyd edilib ki, ticarət həcminin çoxalması, qarşılıqlı sərmayə qoyuluşlarının artırılması və müştərək layihələrin icrası əməkdaşlığın maliyyə dayaqlarını daha da möhkəmləndirir. Gürcüstandakı əlverişli investisiya şəraiti Azərbaycan iş adamlarının fəaliyyətinin genişlənməsinə təkan verir, eyni zamanda yeni layihələr üçün zəmin hazırlayır.

Bununla yanaşı, enerji və nəqliyyat sektorundakı müştərək fəaliyyət strateji əməkdaşlığın ana xətlərindən biri kimi aktuallığını qoruyur. Azərbaycanın enerji ehtiyatlarının qlobal bazarlara çıxmasında Gürcüstanın tranzit ölkə funksiyası həyati əhəmiyyət kəsb edir. Bununla yanaşı, Şərqlə Qərbi qovuşduran nəqliyyat yollarının təkmilləşdirilməsi hər iki dövlətin regional logistika qovşağına çevrilmə ehtimalını gücləndirir. Bu faktorlar Cənubi Qafqazın beynəlxalq arenadakı çəkisini daha da artırır.

Qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Gürcüstan əlaqələri beynəlxalq təşkilatlar çərçivəsində də uğurla inkişaf edir. İki dövlət hər zaman bir-birinin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərinin toxunulmazlığını dəstəkləyib.

Müzakirələrdə regional sabitlik və sülh məsələləri də yer alıb. Tərəflər Cənubi Qafqazda həmrəylik mühitinin möhkəmləndirilməsinin vacibliyini ifadə edərək, yeni siyasi reallıqların bölgəyə əlavə imkanlar qazandırdığını vurğulayıblar. Bu yöndən baxdıqda Azərbaycan-Gürcüstan tərəfdaşlığı bölgədə həm iqtisadi, həm də siyasi dayanıqlığın təmin olunmasında həlledici rol oynayır. Yekun olaraq, səfər zamanı aparılan fikir mübadilələri və verilən bəyanatlar nümayiş etdirdi ki, iki dövlət arasındakı strateji bağlar daha da sıxlaşır. Tarixi yaxınlıq, qarşılıqlı yardım və ortaq qayələr üzərində bərqərar olan bu münasibətlər növbəti illərdə regionun tərəqqisinə və əməkdaşlığın miqyasının genişlənməsinə böyük fayda verəcək.

***Müşfiq MƏMMƏDLİ, Milli Məclisin deputatı***

## Regiona rifah gətirən tərəfdaşlıq modeli

Aprelin 6-da Prezident İlham Əliyev Gürcüstana dövlət səfəri edib. Səfər çərçivəsində dövlət başçısının Gürcüstan Prezidenti Mixeil Kavelaşvili və Baş nazir İrakli Kobaxidze ilə görüşləri keçirilib. Görüşlər zamanı həm ikitərəfli əməkdaşlığa aid məsələlər, həm də regionda gedən cari proseslər müzakirə olunub. Eyni zamanda dövlət rəhbərləri mətbuata bəyanatlarla çıxış ediblər.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, iki ölkə arasında siyasi dialoq ən yüksək səviyyədə aparılır və qarşılıqlı etimada əsaslanır. Dövlət başçılarının və hökumət nümayəndələrinin mütəmadi səfərləri bu münasibətlərin dərinliyini və sabitliyini nümayiş etdirir. Bu cür təmaslar iki ölkə arasında əlaqələrin gələcək inkişafı üçün yeni imkanlar yaradır və strateji tərəfdaşlığı daha da möhkəmləndirir. "İqtisadi əməkdaşlıq bu münasibətlərin əsas sütunlarından biridir.Ticarət dövriyyəsinin artması, sərmayələrin təşviqi və iqtisadi əlaqələrin şaxələndirilməsi iki ölkənin qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığını gücləndirir. Ötən il Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsinin həcmi 881 milyon ABŞ dolları təşkil edib. Enerji sahəsində tərəfdaşlıq xüsusi əhəmiyyət daşıyır. Azərbaycan qazının Gürcüstan üzərindən Qərbə nəqli Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan və "Cənub qaz dəhlizi" kimi layihələr yalnız ikitərəfli deyil, həm də beynəlxalq əhəmiyyət kəsb edir. Bu layihələr Avropanın enerji mənbələrinin şaxələndirilməsinə töhfə verir və Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi rolunu gücləndirir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, nəqliyyat və logistika sahəsində əməkdaşlıq da strateji xarakter daşıyır. 5 milyon ton daşıma gücünə malik Bakı-Tbilisi-Qars dəmir yolu xətti Şərqlə Qərb arasında səmərəli bağlantı yaradaraq regionun tranzit potensialını artırır. Hazırkı regional geosiyasi proseslər bu yolun Avropa-Asiya marşrutu üzrə əhəmiyyətini daha da artırıb. Yeni əməkdaşlıq sahəsi olan Ermənistan-Azərbaycan normallaşma və etimad quruculuğunun növbəti addımı kimi Ermənistana Azərbaycan neftinin daşınması da məhz bu marşrutdan keçir. Bununla yanaşı, humanitar və mədəni əlaqələr xalqlar arasında dostluq və qarşılıqlı anlayışı daha da gücləndirir. İki ölkə beynəlxalq təşkilatlar çərçivəsində də bir-birini dəstəkləyir, suverenlik və ərazi bütövlüyü məsələlərində ortaq mövqe nümayiş etdirirlər.

P.Vəliyeva deyib ki, regional təhlükəsizlik məsələləri də əməkdaşlığın əsas istiqamətlərindəndir: "Müdafiə və təhlükəsizlik sahəsində dialoq qarşılıqlı etimadı artırır və regionda sabitliyin qorunmasına xidmət edir. Ümumilikdə, Azərbaycan və Gürcüstan arasında münasibətlər yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, həm də daha geniş regional və qlobal kontekstdə mühüm rol oynayır. Bu tərəfdaşlıq modeli sabitlik, inkişaf və qarşılıqlı fayda prinsiplərinə əsaslanaraq region üçün uğurlu nümunə kimi çıxış edir".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Orta dəhliz dünyanın ümid marşrutuna çevrilir

## Almaniya dəhlizin inkişafına investisiya qoymaq istəyir

Qlobal səviyyədə baş verən siyasi qarşıdurmalar və münaqişələr fonunda Yaxın Şərqdə gedən müharibə dünyanın ən böyük neft-qaz tranzitini həyata keçirən Hörmüz boğazının fəaliyyətini iflic edib. Xatırladaq ki, qlobal bazarlara ixrac olunan neft və qazın 20 faizi bu boğazdan keçir.




Nəticədə qlobal bazarlarda neftin bir barelinin qiyməti 110-120 dolları keçib. Bu azmış kimi artıq dünyanın bir çox ölkəsində yanacaq çatışmazlığı baş verib, yanacaqdoldurma məntəqələrinin qarşısında uzun növbələr yaranıb. İspaniya ilə sərhəddə yaşayan fransızlar maşınlarını yanacaqla benzinin nisbətən ucuz olduğu həmin ölkədə doldururlar. Enerji sahəsində ixtisaslaşan bir çox mütəxəssis bildirdi ki, vəziyyət belə davam edərsə, neftin bir barelinin qiyməti 200 dollara yüksəlməklə qlobal iqtisadi böhran yarana bilər.

Məlum olduğu kimi, dünyanın ən sərfəli marşrutlarından biri olan Qırmızı dəniz-Süveyş kanalı marşrutunda baş verən hərbi qarşıdurma sayəsində onun fəaliyyəti minimum səviyyəyə enib. Uzunluğu 9 min kilometrdən çox olan Trans-Sibir marşrutu da Rusiya-Ukrayna müharibəsi üzündən beynəlxalq marşrut kimi fəaliyyətini dayandırıb. Belə vəziyyət beynəlxalq təchizat və ticarət zəncirində böyük qırılmalar yaradıb. Hamı vəziyyətdən çıxış yolu tapmağa çalışır. Çünki baş verən müharibələr üzündən hər iki marşrutun nə vaxt fəaliyyətə başlayacağı bilinmir. Bu üzdən diqqət Orta dəhlizə (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) yönəlib. Orta dəhlizin isə Asiya ilə Avropa arasında olan böyük ticarətin ağırlığını qaldırmaq imkanı yoxdur. Dəhliz vasitəsilə yükdaşımanın həcmini artırmaq üçün onun texniki imkanları genişləndirilməlidir. Bunun üçün əlavə olaraq külli miqdarda investisiya qoyulmasına ehtiyac var.

Ötən il Avropa İttifaqı Mərkəzi Asiyada ölkələrin nəqliyyat infrastrukturunun inkişafına 10 milyard avro investisiya qoyulması barədə qərar qəbul etmişdir. İndi də Avropanın iqtisadi flaqmanı olan Almaniya Orta dəhlizin inkişafı üçün sərmayə qoymaq qərarına gəlib. Məlumdur ki, almanlar sərmayə qoyarkən hər bir məsələni ətraflı araşdırıb sonra qərar verirlər. Bu məqsədlə Almaniyanın Xarici İqtisadi Fəaliyyətə Dəstək üzrə Dövlət Agentliyi ("NRW.Global Business") 29 iyun-3 iyul tarixlərində Azərbaycana və Qazaxıstana biznes-missiya təşkil edəcək. Səfərin əsas məqsədi Orta dəhlizin dinamik inkişafını daha da artırmaqdır.

Avropa ilə Asiyanı birləşdirən strateji əhəmiyyətli bu ticarət yolunun logistika və infrastruktur sahəsindəki önəmi durmadan artır. Son illər bu istiqamətdə yük axını dəfələrlə artıb və proqnozlara görə, artım 2030-cu ilə qədər əhəmiyyətli dərəcədə artacaq. Almaniyalı mütəxəssislərin hesablamalarına görə, həmin ilə qədər təxminən 20 milyard avro məbləğində kapital qoyuluşu ölkənin Şimali Reyn-Vestfaliya müəssisələri üçün əlverişli imkanlar yaradacaq.

Qazaxıstan Nəqliyyat Nazirliyinin məlumatına görə, marşrut üzrə daşımaların dinamikası sabit artım nümayiş etdirir: 2019-cu ildə 759 min, 2020-ci ildə 783 min, 2021-ci ildə 586 min, 2022-ci ildə 1,485 milyon, 2023-cü ildə 2,764 milyon, 2024-cü ildə 4,484 milyon tona çatıb. Ötən il isə bu rəqəm daha da artaraq 4,7 milyon tona qədər yüksəlib.

Orta dəhlizə investisiya qoyulması Azərbaycana və türk dünyasına çox fayda gətirəcək. Bu, birlik ölkələrinin inteqrasiya və iqtisadi inkişafı ilə yanaşı, beynəlxalq siyasi əhəmiyyətini də artıracaq. Digər tərəfdən, türk regionunda yeni bir münaqişənin yaranmasına maraq göstərilməyəcək. Çünki bu, Asiya ilə Avropanın iqtisadi və siyasi maraqlarına ziddir, Amerika isə Zəngəzur dəhlizinin (TRIPP) açılmasına dəstək və zəmanət verən ölkədir.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hökumət başçılarının/Vitse-prezidentin görüşündə Orta dəhlizin ortaq türk maraqları üçün xüsusi əhəmiyyət daşıdığını bildirərək demişdir: "Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycanın suverenliyinə aid məsələlər müzakirə predmeti deyil



**Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair saziş layihəsinin paraflanması ilə Bakı və Ermənistan arasında önəmli bir mərhələ qət olunub. Hazırda Ermənistan tərəfindən əvvəlki dövrlərdən fərqli olaraq ərazi iddiaları da daxil hər hansı obyektiv, yaxud subyektiv tələblərin irəli sürülmədiyi və de-fakto sülhə nail olunduğu bir situasiyada Rusiyanın bir sıra dövlət və hökumət rəsmilərinin, o cümlədən hakimiyyət dairələrinə bağlı ayrı-ayrı media qurumlarının Azərbaycan və Ermənistan arasında yeni müzakirə dalğası yaratması qəbuledilməzdir. Reallıqları əks etdirməyən məsələlərin gündəmə gətirilməsi, xüsusən Azərbaycanın beynəlxalq hüquqla tanınan Qarabağ bölgəsinin rəsmi Bakının iştirak etmədiyi və razılığı soruşulmadan müzakirə mövzusuna çevrilməsi yolverilməzdir və ilk növbədə beynəlxalq hüququn hamılıqla tanınmış normalarında əksini tapan prinsiplərlə daban-dabana zidd davranışdır.**

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Vətən müharibəsi və antiterror tədbirləri ilə bu gün Rusiya rəsmilərinin gündəmdə saxlamağa çalışdığı mövzu, o cümlədən həmin kontentin əsasında dayanan separatizm artıq tarixin arxivinə qovuşub. Prezident İlham Əliyevin liderliyində yaranan yeni reallıqda hətta Ermənistan belə ötən bir ilə yaxın dövrdə analoji məzmunlu müzakirələrdə maraqlı görünməmişdir. "Məhz bu reallığın nəticəsidir ki, Azərbaycan və Ermənistan arasında artıq uzun müddətdir ki, silahlar susub, sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində real nəticələrə gətirib çıxaran addımlar atılıb və bu proses hazırda da davam etməkdədir. Eyni zamanda Azərbaycan ərazisindən tranzit məhdudiyyətinin götürülməsi ilə üçüncü ölkələrdən daşınan yüklər, habelə ölkəmizin məhsulları Ermənistana heç bir maneə olmadan çatdırılmaqdadır. Ölkələr arasında ticari münasibətlərin bərqərar olunması ilə yanaşı, artıq Bakı və İrəvan bir çox beynəlxalq məsələdə, habelə çoxtərəfli müstəvilərdə qarşılıqlı dəstəkdə ifadə olunan mövqe nümayiş etdirir və mümkün qədər sülhün möhkəmləndirilməsinə xidmət edən ritorikaya üstünlük verirlər. Belə bir şəraitdə şimal qonşumuzda rəsmi və ictimai dairələrin Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş daxili məsələlərinə müdaxilə xarakterli bəyanatlar səsləndirməsi, xüsusən Rusiya və Ermənistan liderləri arasında 1 aprel görüşünün ardınca bu tip müzakirələrin geniş vüsət alması birmənalı şəkildə regionda dayanıqlı sülh və sabitlik şəraitinin heç də bütün güclər tərəfindən alqışlanmadığını göstərir. Daha dəqiq desək, bir sıra qlobal subyektlər Cənubi Qafqazda mümkün münaqişə ehtimalına öz maraqlarının təmini üsulu kimi baxmaqdan hələ də çəkinməyiblər. Çox təəssüflər olsun ki, Azərbaycanla qarşılıqlı müttəfiqlik münasibətlərinə malik olmasına baxmayaraq, bu qəbuledilməz ritorikanın əsas daşıyıcısı kimi məhz Rusiya çıxış edir. Xarici İşlər Nazirliyinin 5 aprel bəyanatında da ifadə olunduğu kimi, rəsmi Bakı diplomatik kanallar vasitəsilə Azərbaycanın Qarabağ bölgəsindən siyasi spekulyasiyalarda istifadə edilməsinin qəbuledilməzliyinə dair mövqeni Rusiya Prezidenti Administrasiyasına, bu ölkənin hökumətinə və Xarici İşlər Nazirliyinin diqqətinə çatdırıb", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu mövzunun hələ də Rusiya tərəfinin rəsmi siyasi diskursunda davam etməsi, Peskovun "Vesti" kanalına son müsahibəsində Ermənistan-Rusiya münasibətlərinə dair mövqe bildirərkən Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi tanınmasına dair spekulyativ şərh verməkdən çəkinməməsi rəsmi Moskvanın regionda dayanıqlı sülh və sabitlikdə o qədər də maraqlı görünməyən imicinin formalaşması üçün heç də haqsız görünməyən arqumentlər toplusu formalaşdırır. Yəni Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması, hər hansı bir dövlətin qərarına deyil, tarix, beynəlxalq hüquq və ədalətə söykənməsi, 2020-ci il 44 günlük Vətən müharibəsi və 2023-cü il birgünlük antiterror tədbirləri nəticəsində bu reallığın bir daha təsdiq və bərqərar olunması fonunda Rusiyanın ölmüş bir mövzunu gündəmdə saxlamağa çalışması süni düyün nöqtəsi formalaşdırmaq cəhdindən fərqli bir məzmunda izah oluna bilmir. Görünən odur ki, bu gün Rusiyada hələ də ayrı-ayrı dairələr imperialist təfəkkürdən qurtula bilməyib, Cənubi Qafqazda öz maraqlarını bərabərhüquqlu əməkdaşlığa əsaslanan situasiyada yox, "parçala və hökm sür" direktivi işığında təmin etməyə cəhd göstərirlər. Bu da nəinki Moskvanın Cənubi Qafqazdakı maraqlarını təmin etmir, üstəlik, Rusiyanın bölgədəki nüfuzunu ciddi şəkildə sarsıdır.

B.Məhərrəmov bildirib ki, şimal qonşumuz, xüsusən bu məzmunlu müzakirələri aparmaqda fəallıq göstərən dairələr çox da uzaq olmayan tarixə ekskursiya edərək Rusiya Federasiyası da daxil olmaqla heç bir ölkənin heç bir dövrdə Qarabağ bölgəsi də daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü sual altına qoya bilmədiyini, hətta işğal dövründə belə cari istiqamətdə dilemma xarakterli süni situasiya formalaşdırmağa nail olunmadığını görə bilərlər: "Bu mənada Azərbaycanın hər hansı bölgəsinin ikinci və üçüncü dövlətlər arasında müzakirələr zamanı danışıqlar predmeti, yaxud mövzusu kimi, hətta arqumentləri gücləndirəcək element kimi belə istifadə olunması BMT Nizamnaməsi və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin, ələlxüsus dövlətlərin daxili yurisdiksiyasında olan məsələlərə qarışılmasının yolverilməzliyi prinsipinin kobud pozuntusudur və heç bir formada nə müzakirə tərəflərinə, nə də müzakirənin əhatələdiyi regionda sülhə, sabitliyə və rifaha fayda verə bilər. Hazırda regionda hökm sürən və bölgə dövlətlərinin və xalqlarının maraq, mənafe və rifahını ifadə edən cari reallıq məhz Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövlətinin hərbi-siyasi qələbələri ilə formalaşdığı və qlobal miqyasda qəbullanıldığı bir şəraitdə bu kimi qəbuledilməz və beynəlxalq hüquqa zidd cəhdlər regionun təhlükəsiz gələcəyini sığortalayan cari konfiqurasiyanı zədələmək gücündə deyil. Ölkəmizin ümumbəşəri dəyərləri rəhbər tutması, bütün dünya dövlətləri və xalqları ilə sülhün, əmin-amanlığın hökm sürdüyü və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin rəhbər tutulduğu şəraitdə əməkdaşlığı özünün çoxvektorlu xarici siyasət kursunun prioritetlərindən birinə çevirdiyi şəraitdə hər hansı bir dövlətin, o cümlədən regionla dərin tarixi, siyasi, mədəni və humanitar əlaqələrə malik Rusiyanın qeyri-praqmatik mövqe və davranış sərgiləməsi arzuolunan deyil və bölgəyə müsbət nə isə vəd edə bilməz".

Deputat vurğulayıb ki, bu baxımdan rəsmi Moskva Azərbaycanın suverenliyinə aid məsələlərin nə Rusiya-Ermənistan, nə də Rusiyanın hər hansı dövlətlə münasibətlərində müzakirə mövzusu ola bilməyəcəyini başa düşməli və regionda maraqlarını bu kimi effektsiz və çürük imperialist niyyətlərdə ifadə olunan dolayı kombinasiyalarla deyil, beynəlxalq hüququn rəhbər tutulduğu, birbaşa sağlam əməkdaşlıq konfiqurasiyasına əsaslanan fəaliyyətlə təmin etməlidir. Şimal qonşumuz, nəhayət, anlamalıdır ki, rəsmi Bakı Rusiya Federasiyası ilə hansısa süni gərginlikdə yox, bir neçə əsrlik dərin tarixi kökə malik siyasi, mədəni və humanitar bağlar vasitəsilə həm Rusiya, həm də Azərbaycanın mənafelərinə, bütövlükdə regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə, əməkdaşlığın dərinləşməsinə xidmət edən reallığın formalaşdırılmasında maraqlıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## TÜRKPA komissiyasının sədri: "Türk dövlətləri arasında qarşılıqlı ticarətin həcmi 57 milyard ABŞ dollarıdır"

**"Türk dövlətlərinin dünya iqtisadiyyatındakı payı təxminən 2 faizdir. Türk dövlətləri arasında qarşılıqlı ticarətin həcmi isə təxminən 57 milyard ABŞ dollarıdır".**




AZƏRTAC xəbər verir ki, bunu TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının aprelin 7-də keçirilən on üçüncü iclasında komissiyanın sədri, Qazaxıstan Respublikası Parlamenti Məclisinin deputatı Anas Bakkojayev deyib.

O bildirib ki, türk dövlətlərinin xarici ticarətinin həcmi 1,1 trilyon ABŞ dolları həcmindədir. Türk dövlətləri öz aralarında, həmçinin Asiya və Avropa bazarlarına ixracı artırmaq üçün böyük imkanlara malikdirlər. "Bu isə, öz növbəsində, ölkələrimiz arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq, daxili ticarətin artırılması yolu ilə iqtisadi diversifikasiyanın təmin edilməsi, kiçik və orta sahibkarlığın inkişafı ilə türk əməkdaşlığının möhkəm təməlini təşkil etməlidir. Bunun üçün lazımi addımlar atılmaqdadır", - deyə Anas Bakkojayev diqqətə çatdırıb.

# Neftin bahalaşması dünyaya necə təsir edir

Yaxın Şərqdə baş qaldıran yeni hərbi gərginlik, xüsusilə Hörmüz boğazının bağlanması enerji bazarlarına təsirsiz ötüşməyib. Dünya neft daşımalarının ən strateji marşrutlarından biri sayılan bu boğaz ətrafında risklərin artması "qara qızıl"ın qiymətini yüksəldib.



Məlumatlara görə, dünya üzrə daşınan neftin təxminən 20 faizi məhz Hörmüzdən keçir. Belə bir yolun risk altına düşməsi neft idxalçılarını gərgin vəziyyətə salır. Enerji qiymətlərində hər artım birbaşa olaraq nəqliyyat, ərzaq, istehsal və xidmət sektorlarında xərclərin yüksəlməsi ilə nəticələnir. Bu isə son nəticədə vətəndaşların gündəlik həyatına təsir edir.

Hazırkı vəziyyət göstərir ki, bir çox ölkə artıq enerji böhranının nəticələrinə qarşı fövqəladə tədbirlər planı hazırlayıb. Böyük Britaniyada dizel yanacağının qiyməti son illərin ən yüksək həddinə yüksəlib. Hökumət yanacağa tətbiq olunacaq əlavə verginin yenidən nəzərdən keçirilməsini gündəmə gətirib. Eyni zamanda müəyyən enerji siyasətinin hazırlanması, fövqəladə hallar üçün dövlətin ehtiyat yanacaq bazasının tətbiqi kimi məsələlər müzakirə olunur.

Avstraliya isə sosial yükü azaltmaq üçün daha fərqli üsula əl atıb. Belə ki, Tasmaniya və Viktoriya ştatlarında ictimai nəqliyyat pulsuz elan olunub ki, bu da əhalinin yaşayış xərclərini azaltmağa yönəlmiş əhəmiyyətli addımdır. Bu qərar yanacaq sərfiyyatını azaltmaqla yanaşı, insanların şəxsi avtomobillərdən istifadəsini minimuma endirməklə ümumi enerji istehlakını aşağı salmağa xidmət edir.

Misirdə vəziyyət daha sərt inzibati tədbirlərlə müşayiət olunur. Enerjiyə qənaət məqsədilə restoran, mağaza və kafelərin axşam saat 21:00-dək bağlanması qərara alınıb. Küçə işıqları və reklam lövhələrinin söndürülməsi, bəzi işçilərin həftədə ən azı bir gün məsafədən işləməyə keçməsi enerji böhranının şəhər həyatına birbaşa müdaxilə etdiyini göstərir. Bu addımlar enerji istehlakını azaltmaqla yanaşı, hökumətin vəziyyətin ciddiliyini dərk etdiyini ortaya qoyur.

Asiyanın digər ölkələrində isə problem daha çox yanacaq çatışmazlığı və sosial məhdudiyyətlər şəklində özünü göstərib. Myanmada şəxsi avtomobillər üçün limitli yanacaq sistemi tətbiq olunub. QR kodlar vasitəsilə gündəlik yanacaq limiti müəyyən edilir. Burada artıq inzibati nəzarət ön plana keçib. Ölkədə aviaşirkətlərin bəzi marşrutları dayandırması və biletlərin kəskin bahalaşması isə böhranın nəqliyyat sektoruna ciddi zərbə vurduğunu göstərir.

Pakistan və Filippin kimi ölkələrdə dövlət qurumları dördgünlük iş həftəsinə keçib. Bu addım bir tərəfdən ofislərdə enerji istehlakını azaltmağa, digər tərəfdən isə nəqliyyat xərclərini minimuma endirməyə hesablanıb. Pakistanda toy və şənliklərdə qonaq sayının 200 nəfərlə məhdudlaşdırılması, xarici səfərlərin yalnız zəruri hallarda mümkün olması enerji böhranının sosial həyata ciddi təsir etdiyini göstərir. Filippində isə dövlət qurumlarına enerji istehlakını 20 faiz azaltmaq barədə birbaşa göstəriş verilib.

Yaponiyada benzin qiymətlərində təxminən 9 faizlik artım qeydə alınıb. Hökumətin subsidiyaları qiymət artımının təsirini müəyyən qədər yumşaltsa da, iqtisadi təzyiqin artdığı açıq hiss olunur. Yaponiya kimi sənaye nəhəngi üçün enerji qiymətlərində hər dəyişiklik istehsal xərclərinə, ixraca və ümumi iqtisadi tempə təsir göstərir.

Tayland və Şri-Lanka da enerjiyə qənaət tədbirlərini sərtləşdirən ölkələr sırasındadır. Taylandda dövlət qulluqçularına işıqları söndürmək, lift əvəzinə pilləkənlərdən istifadə etmək və xarici səfərləri dayandırmaq tapşırılıb. Şri-Lankada isə dövlət müəssisələri, məktəblər və universitetlər üçün dördgünlük iş həftəsi tətbiq edilib, sürücülər üçün həftəlik 15 litrlik yanacaq limiti müəyyən olunub.

Banqladeşdə vəziyyət daha kəskin xarakter alıb. Universitetlərin müvəqqəti bağlanması, bəzi dini və ictimai tədbirlərin təxirə salınması böhranın cəmiyyətin bütün təbəqələrinə təsir etdiyini göstərir. Artan idxal xərclərini qarşılamaq üçün 2,5 milyard dollar xarici maliyyə dəstəyi axtarılması isə ölkənin iqtisadi təzyiq altında olduğunu açıq şəkildə ortaya qoyur.

Vyetnam isə vergi güzəştləri yolu ilə bazarı sabitləşdirməyə çalışır. Benzin, dizel və aviasiya yanacağı üzrə əlavə dəyər vergisinin müvəqqəti ləğv olunması qiymət artımının vətəndaşlara təsirini azaltmağa xidmət edir. Eyni zamanda vətəndaşlara velosiped və alternativ nəqliyyat vasitələrindən istifadə tövsiyə olunur.

Bütün bunlar göstərir ki, neftin bahalaşması sıradan bir hadisə deyil. Bu proses ölkələrin iqtisadi siyasətinə, sosial həyatına, iş rejiminə, nəqliyyat sisteminə və hətta insanların gündəlik davranışlarına qədər təsir edir. Hörmüz boğazında vəziyyətin sabitləşməməsi halında enerji qiymətlərində artımın davam etməsi qaçılmaz görünür. Bu isə qlobal inflyasiyanın daha da dərinləşməsi, ərzaq və xidmət qiymətlərinin artması, yaşayış xərclərinin yüksəlməsi deməkdir.

Hazırkı proseslər bir daha sübut edir ki, qlobal iqtisadiyyat enerji təhlükəsizliyi məsələsində hələ də son dərəcə həssasdır. Bir coğrafiyada baş verən gərginlik minlərlə kilometr uzaqda yaşayan insanların gündəlik həyatına, iş rejiminə və büdcəsinə böyük təsir göstərir. Neft bazarındakı bu proses həm də dövlətlər üçün ciddi xəbərdarlıqdır. Belə ki, alternativ enerji mənbələrinə keçid, enerji səmərəliliyi və strateji ehtiyatların gücləndirilməsi artıq zərurətə çevrilib.

*Təhminə VERDİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# İQTİSADİYYAT

# Sınaqlardan çıxan yaxın qonşuluq, uzaq gələcəyə hesablanan strateji tərəfdaşlıq

**Hazırkı geosiyasi reallıqda Azərbaycan - Gürcüstan münasibətləri qonşuluq əlaqələrindən çıxaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu yaxınlıq iki ölkə arasında yalnız siyasi koordinasiyanı deyil, həm də iqtisadi əməkdaşlığın genişlənməsini təmin edir. Xüsusilə ticarət, enerji, nəqliyyat və investisiya sahələrində əlaqələrin dərinləşməsi regional iqtisadi inteqrasiya və dayanıqlı inkişafdan xəbər verir.**

İki gün öncə Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri və səfər çərçivəsində verilən rəsmi bəyanatı da göstərdi ki, Azərbaycan - Gürcüstan münasibətləri yalnız mehriban qonşuluq əlaqələri ilə məhdudlaşmır. Bu münasibətlər artıq dərin köklərə malik strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Hər iki ölkə qarşılıqlı hörmət və etimad üzərində qurulmuş əməkdaşlığı ilbəil genişləndirərək region üçün nümunəvi model yaradır. Azərbaycan ilə Gürcüstan arasındakı ortaq maraqlar, regionun sabitliyi və inkişafı naminə birgə səyləri daha da möhkəmləndirir.

Ölkələrimizi və xalqlarımızı təkcə iqtisadi amillər deyil, həm də dərin tarixi və mədəni köklər birləşdirir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları qardaşlıq, dostluq şəraitində yaşayıb, bir-birinin mədəniyyətinə və adət-ənənələrinə hörmət göstəriblər. Bu gün həmin ənənələr gündəlik həyatda və dövlətlərarası münasibətlərdə özünü qoruyub saxlayır. İqtisadi əməkdaşlıq isə tarixi bağları daha da gücləndirir: iki ölkə arasında müxtəlif sahələri əhatə edən layihələr region üçün strateji əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru xətti və müasir nəqliyyat-logistika infrastrukturu Azərbaycanla Gürcüstanın ortaq iqtisadi dəyərləridir. Bu cür dəyərlərə söykənən əməkdaşlıq qarşılıqlı maraqlara, etimada və regionun dayanıqlı inkişafına xidmət edir.

Azərbaycanla Gürcüstanın iqtisadi əməkdaşlığı uzun və zəngin tarixə malikdir. Hələ sovetlər dönəmində enerji və nəqliyyat sahələrində formalaşmış əməkdaşlıq indi müstəqillikdən və ortaq maraqlardan doğan yeni çalarlarla davam edir. Nəqliyyat-logistika sahəsindəki birgə investisiyalar, sərhəd-keçid məntəqələrinin modernləşməsi və regional ticarət dəhlizlərinin formalaşması iqtisadi əlaqələri daha da möhkəmləndirib. Uzunmüddətli əməkdaşlıq və qarşılıqlı inam fonunda, İlham Əliyevin də dediyi kimi, "Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi yenə də birgədir". Bu birlik təbii ki, sadəcə, söz olaraq qalmır, iqtisadi, siyasi və mədəni sahələrdə davamlı olaraq özünü göstərir. Səfər zamanı Prezident İlham Əliyev Gürcüstanın iqtisadi inkişafını yüksək qiymətləndirərək vurğulayıb ki, qonşu ölkədə sərmayə üçün müsbət iqlim mövcuddur: "Gürcüstanın dinamik iqtisadi inkişafı göz önündədir".

Bu yanaşma bir daha göstərir ki, regionda iqtisadi sabitliyin əsas qüvvə və hərəkətverici amili siyasi sabitlikdir. "Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur. Biz bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparmışıq və nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər", - bəyanatı ilə Prezident İlham Əliyev hər iki ölkə arasında iqtisadi münasibətlərin yüksək perspektivi olduğuna da diqqət çəkdi.

Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələr regional ticarət və tranzit baxımından mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, son zamanlar Ermənistana göndərilən ticarət məhsullarının bir hissəsi Azərbaycan və Gürcüstan ərazisindən tranzit olunur. Bu, hər iki ölkənin nəqliyyat, logistika infrastrukturunun strateji əhəmiyyətinin nə dərəcədə yüksək olduğunu göstərir, regional ticarət və iqtisadi əməkdaşlıq üçün önəmini artırır. Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu və avtomobil yolları regional ticarətin səmərəli həyata keçirilməsinə imkan yaradır. Belə tranzit yollar Azərbaycan və Gürcüstan arasında iqtisadi əməkdaşlığı gücləndirir, ticarət dövriyyəsini artırır və investisiya imkanlarını genişləndirir. Bu baxımdan Prezidentin məsələ ilə bağlı Tbilisidə səsləndirdiyi fikirlər diqqətçəkəndir: "Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim".



Görünən odur ki, Gürcüstanın tranzit imkanları regionun qlobal əhəmiyyətini artıran əsas amillərdəndir. "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Ceyhan kimi layihələr iqtisadi və geosiyasi baxımdan mühüm rol oynayır. Eləcə də Orta dəhliz layihəsi Azərbaycan və Gürcüstanı Avropa ilə Asiya arasında strateji nəqliyyat körpüsünə çevirir. İlham Əliyevin də qeyd etdiyi kimi, bu dəhliz artıq "əsas nəqliyyat damarı" funksiyasını daşıyır və onun genişləndirilməsi prioritet istiqamətlərdəndir. Orta dəhliz çərçivəsində həyata keçirilən infrastruktur layihələri - dəmir yolları, limanlar və logistika mərkəzləri hər iki ölkənin iqtisadiyyatına ciddi təsir göstərərək Azərbaycanın və Gürcüstanın tranzit potensialını genişləndirir. Bu layihələr yeni iş yerlərinin yaradılmasına, biznes mühitinin yaxşılaşmasına və xarici investisiyaların artmasına imkan yaradır.

Tbilisi səfəri bir daha göstərdi ki, Azərbaycan-Gürcüstan münasibətləri möhkəm təməllər üzərində qurulub və gələcəyə istiqamətlənib. İki ölkə arasında mövcud olan qarşılıqlı etimad, siyasi iradə və ortaq maraqlar bu tərəfdaşlığın uzunmüddətli və davamlı olacağına əminlik yaradır. Belə münasibətlər yalnız iki dövlət üçün deyil, həm də bütövlükdə regionun sabitliyi və inkişafı üçün əhəmiyyətlidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# ASP ölkə sənayesinin flaqmanına çevrilir

## 30 rezidenti olan Ağdam Sənaye Parkında 1000-ə yaxın daimi işçi çalışır









**Ağdam Sənaye Parkı (ASP) ölkəmizdə rezidentlərinin sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdədir. İndiyədək burada 30 biznes subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib.İşğaldan azad edilmiş ərazilərimizin iqtisadiyyatında önəmli yer tutan və böyük perspektivə malik olan bu parka qoyulan investisiyalar artır, onun müəssisələrində işçi qüvvəsi də, məhsul istehsalı da çoxalır. İndiyədək parka yatırılan sərmayənin həcmi 149,7 milyon manata çatıb.**

Hazırda Ağdam Sənaye Parkının 1000-ə yaxın daimi işçisi var. Onların da çoxu Ağdamın və ətraf rayonların sakinləridir. İşə qəbul zamanı yerli əhaliyə üstünlük verilməsi işğaldan azad edilmiş ərazilərimizin sakinlərinin məşğulluq probleminin həllinə bir töhfədir.

Prezident İlham Əliyev Ağdama hər səfəri çərçivəsində sənaye parkında yeni müəssisələrin təməlini qoyur, artıq hazır olanların isə açılışında iştirak edir. Məsələn, 2024-cü il sentyabrın 19-da Prezidentimiz Ağdam Sənaye Parkında "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun açılışında iştirak etdi. Bu, sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalını həyata keçirən bir müəssisədir. İnvestisiya dəyəri 10 milyon manatdan çox təşkil edir. Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir ki, bunun da 350 min cütü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizinin yerli, 35 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır. "BAFCO İnvest" MMC sənaye parklarında tətbiq olunmuş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində xeyli vəsaitə qənaət edib.

Elə həmin gün dövlətimizin başçısı Ağdam Sənaye Parkında daha 5 müxtəlif təyinatlı müəssisənin açılışını etdi. Keçən il dekabrın 23-də isə Prezident burada "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoydu. Bu müəssisə parkda 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə ediləcək.

Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

Sözügedən vaxt Prezident İlham Əliyev Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışını da etdi. Sənaye parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək.

İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

Xatırladaq ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam Sənaye Parkı dövlətimizin başçısının 28 may 2021-ci il tarixli fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Ümumiyyətlə, sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir. O cümlədən Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan və Gürcüstan mərkəzi bankları təcrübə mübadiləsi aparıblar

**Gürcüstan Milli Bankının nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə Azərbaycan Mərkəzi Bankında (AMB) işgüzar səfərdə olub.**

AMB-dən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində təşkil edilən görüşlərdə maliyyə sabitliyi funksiyaları üzrə fəaliyyətin həyata keçirilməsi, makroprudensial siyasət çərçivəsinin formalaşdırılması, ev təsərrüfatları, qeyri-maliyyə sektoru və daşınmaz əmlak bazarı üzrə maliyyə sabitliyinin qiymətləndirilməsi üzrə hər iki ölkənin mərkəzi banklarının təcrübələri müzakirə olunub.

Görüşlər zamanı həmçinin stres-test çərçivəsi, eləcə də fiziki və keçid riskləri üzrə iqlim stres-testlərinin təşkili məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Birgə maliyyələşmə proqramı üzrə 5 mindən çox şəxsin məşğulluğu təmin edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin icra etdiyi "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı mühüm aktiv məşğulluq proqramlarından biridir.**

Cari ildə daha 400 şəxs qeyd edilən proqram çərçivəsində işlə təmin edilib. Bu məqsədlə 95 işəgötürənlə əməkdaşlıq müqaviləsi imzalanıb.

2021-ci ildə icrasına başlanan birgə maliyyələşmə proqramı ötən dövrdə ümumilikdə 5000-dən çox şəxsin məşğulluğunun təminatına imkan verib.

Bu proqram üzrə məşğulluğu təmin edilmiş şəxslərin 1 il ərzində əməkhaqlarının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən ödənilir.

# Gecikdirilmiş 200,7 min manat vəsait işçilərə ödənilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti yanvar-mart ayları ərzində işəgötürənlər tərəfindən sosial xarakterli ödənişlər olan 200 742 manat vəsaitin işçilərə ödənilməsinin gecikdirildiyini müəyyən edib.**

Görülən tədbirlər nəticəsində həmin vəsait işəgötürənlər tərəfindən işçilərə ödənilib. Bu vəsaitlərin 87 faizi əməkhaqqı, qalan hissəsi zərərə görə ödənc, müavinət və kompensasiyalardan ibarət olub.

Müraciətlərin araşdırılması zamanı Dövlət Əmək Müfəttişliyi Xidməti 44 işçinin əmək müqaviləsinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini də müəyyən edib.

Xidmətin qanunvericiliyə əsasən gördüyü tədbirlər nəticəsində həmin işçilər yenidən əvvəlki işlərinə bərpa olunublar.

# Dünya birjalarında neft bahalaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft bahalaşıb.**



Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,58 dollar artaraq 111,35 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 3,04 dollar artaraq 115,45 dollar təşkil edib.

Qan yaddaşımız

# Ağdaban fəryadı

Kəlbəcərin qoynunda, dörd tərəfi sıldırım qayalar və zümrüd meşələrlə əhatə olunmuş Ağdaban kəndi sanki dünyanın səs-küyündən uzaq, dinc bir nağıl guşəsi idi. Dağların sinəsindən süzülən büllur bulaqlar söz ustadı Aşıq Şəmşirin misraları ilə birləşib dərələrdə xoş əks-sədaya çevrilərdi. Lakin 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə bu ilahi sükut barıt qoxusu və fəryad səsləri ilə pozuldu.

Qəhrəman döyüşçü Saşa Hüseynov həyatı bahasına təkbaşına bütöv bir ordunun qarşısını kəsmişdi ki, kənd sakinləri, qocalar və uşaqlar Ağdabanı sağ-salamat tərk edə bilsinlər.



Erməni silahlıları tank və BTR-lərlə birlikdə bu dinc məkana qəfildən soxuldular. Cənnət Ağdaban bir andaca cəhənnəmə döndü…

Gecənin qaranlığı səhərin üzündən hələ tam çəkilməmişdi. Başıqarlı zirvələrə söykənən Ağdaban kəndi çarəsizcə çırpınırdı. Dan yeri söküləndə, kəndin üzərinə üfüqdə günəşin ilk şüaları yox, ölümün soyuq nəfəsi çökdü. Meşələrdə quşların nəğmələri kəsildi, hər yeri qulaqbatırıcı gurultu və vahiməli atəş səsləri bürüdü. Evlərin damından yüksələn alov dilləri o an sanki göy üzünü də yandırırdı. Uşaq fəryadı, qadın naləsi ərşə dirənirdi. O gün ağdabanlıların heç kimə yetməyən harayı dağların qoynunda əbədi ağıya çevrilirdi.

## Qanla açılan səhər

1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum etdilər. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarla örtülü meşələrə, dağlara səpələndi. Kəndləri müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən əhali müdafiəsiz qalmışdı. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırdılar, 779 nəfər dinc sakinə divan tutdular. Onlar yaşlı, qoca, qadın, uşaq demədən dünyada görülməmiş ən qəddar üsullarla dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər.

Bu faciə zamanı 32 nəfər amansızcasına qətlə yetirilib, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılıb. 2 nəfər itkin düşüb, 12 nəfərə ağır bədən xəsarəti yetirilib, 5 nəfər isə girov götürülüb.

Dədə Şəmşirin nəslindən olan 15 nəfər sakin bu faciənin qurbanı olub. Ermənilər Ağdabanı təkcə strateji məkan olduğu üçün deyil, əslində, Kəlbəcər ədəbi mühitinin beşiyi kimi də çoxdan hədəfə almışdılar. Vandallar Ağdabanda yalnız soyqırımı törətmədilər. Erməni quldurları tərəfindən tarix, memarlıq və mədəniyyət abidələri dağıdıldı, müqəddəs ziyarətgah və məzarlıqlar təhqir olunaraq məhv edildi.

Erməni faşistləri Ağdaban faciəsi zamanı Azərbaycan ədəbiyyatına misilsiz töhfələr vermiş ağdabanlı şair Qurbanın və onun oğlu, klassik aşıq şeirinin ustadlarından olan Dədə Şəmşirin əlyazmalarını da yandıraraq məhv ediblər.

## Əfsanəvi kəşfiyyatçı

Ağdaban faciəsi törədilən zaman cəmi 14 yaşı olan Mütəllim Hüseynov üçün dünya həmin gün dəyişdi. Bir yeniyetmənin arzularla dolu həyatı elə o gün barıt və qan qoxusu ilə qaraldı. Atalı dünyası yoxa çıxdı. Mütəllim Hüseynov, sadəcə, həmin faciənin şahidi yox, onun yaşatdığı ağrı-acını iliklərinə qədər bu gün də hiss edən şəhid övladı oldu. O, qəhrəman bir atanın - erməni hücumlarına qarşı sarsılmaz mübarizə aparan, son damla qanına qədər doğma torpağı uğrunda qəhrəmanlıqla döyüşən Saşa Saleh oğlu Hüseynovun oğlu idi. Qəhrəman atasının son nəfəsinə qədər səngəri tərk etməməsi və düşmənin zirehli texnikasına, təpədən-dırnağa silahlanmış döyüşçülərinə qarşı az qala yalın əllə mübarizə aparması, bu uğurda canını belə qurban verməkdən çəkinməməsi Mütəllimin qəlbində həm sönməz qürur mənbəyi, həm də ən böyük təsəllidir.

1943-cü ildə doğulmuş Saşa Saleh oğlu Hüseynov ağdabanlıların yaddaşında bu gün də düşmənə qarşı igidliklə döyüşən kəndin canlı qalası kimi qalıb. O, Birinci Qarabağ müharibəsi dövründə yaşının 50-ni haqlamasına baxmayaraq, 809 saylı hərbi hissənin ən mahir atıcısı və cəsur kəşfiyyatçısı olub. Döyüş yoldaşları onu "əsl kəşfiyyatçı" adlandırırdılar. Komandiri Hicran Abbasov xatırlayır ki, Saşa Hüseynov dəfələrlə təkbaşına erməni kəndlərinə keçər, ən gizli planları öyrənib onlara çatdırardı: "Ağdabanla həmsərhəd olan Çapar kəndindən edilən hücumların qarşısının alınmasında Saşa daim fərqlənərdi. Onun atdığı güllə hədəfdən yayınmazdı. Saşa tez-tez erməni kəndlərinə kəşfiyyata gedər, lazımi məlumatlar, onların planları haqqında kəşfiyyat xəbərləri gətirərdi. 1991-ci ilin martında Saşa erməni kəndlərinə kəşfiyyata getmişdi. Erməni quldurları ondan duyuq düşmüşdülər, bir gecə mühasirədə qalmasına baxmayaraq, vəziyyətdən çıxıb çox əhəmiyyətli məlumatlar gətirmişdi".



Döyüş yoldaşı Sərvan Səfərovun şahidliyinə görə, Saşa Hüseynov 1992-ci il aprelin 8-də möcüzə yaradır. Sərrast atəşlə düşmənin bir PDM-ni (BMP) yoldan çıxarır. Texnikanı düzəltmək üçün ətrafına yığılan 20-yə yaxın ermənini avtomatla məhv edir. Bu zaman arxadan gələn böyük bir qüvvə bunu görür və yüksəklikdən Saşanın tutduğu mövqeni güclü atəşə tutur. Onlara elə gəlirmiş ki, burada böyük bir qüvvə var.

## Uşaqlığın son gecəsi

1978-ci ildə Ağdaban kəndində Saşa Hüseynovun ailəsində dünyaya gələn Mütəllimgil ailədə üç qardaş, iki bacı olublar.

34 il keçdikdən sonra da həmin dəhşətli faciədən danışanda eyni kədərli hisslər keçirən Mütəllim müəllim Ağdabanla bağlı acılı-şirinli xatirələrini belə dilə gətirir: "Biz Ağdabanda çox gözəl uşaqlıq yaşadıq. Qayğımız yox idi. İşimiz məktəbə getmək, gələndə isə kəndin içində oynamaq idi… Kəlbəcər rayonu Ağdaban kənd orta məktəbində oxuyurdum. Əjdər, Əsəd, Zahir, Baba, Xasay, Dilpazə, Yaşar, Mərdan kimi dəyərli müəllimlərimiz var idi. O vaxt məktəbdə təməlimiz elə möhkəm qoyuldu ki, sonradan məcburi köçkünlüyün gətirdiyi çətinliklərə baxmayaraq, ali təhsil alıb müəllim oldum. Deyərdim ki, kəndimiz Yer üzünün cənnəti idi. Ağdabanda hamının imkanı yaxşı idi. Amma müharibə bizim uşaqlığımızı da, xoş günlərimizi də əlimizdən aldı..."

O danışır ki, 1988-ci il hadisələrindən sonra Çapar kəndindən daim Ağdabana hücumlar edilib: "Ermənilər ruslara məxsus silahlardan, tanklardan, BTR-lərdən istifadə edərək Ağdabana dəfələrlə hücuma keçirdilər. Bizim kəndin 19 nəfərdən ibarət özünümüdafiə batalyonu var idi. Zirehli texnika, tank əleyhinə silahları olmadığı üçün, sadəcə, ov tüfəngi, avtomatla düşmənin qarşısını alıb geri otuzdururdular".

1992-ci il aprelin 8-i səhər saat 5 radələri...

Erməni quldurları zirehli texnika ilə Ağdabana soxulur. Saşa Hüseynov ailəsinə "Mən qayıdana qədər evdən çıxmayın!" deyib, əlinə avtomatını alaraq ölümün üstünə yeriyir.

Həmin günün dəhşəti Mütəllim müəllimin xatirələrinə belə hopub: "O gün atam posta getməli idi. Birdən bir güllə səsi gəldi, ardınca ikinci güllə pəncərəmizi qırıb divara girdi. Atam pəncərədən baxan kimi dedi: "Ermənilər "əsir düşən" yüksəkliyini alıblar". Sakitcə patron çantasını və avtomatını götürdü. Bizə dönüb sonuncu dəfə baxdı və dedi: "Mən qayıdana qədər heç kəs evdən çıxmasın!" Atam çıxdı və bir daha geri dönmədi..."

Mütəllimgil bir müddət evdə gözləyəndən sonra görürlər ki, burada qalmaq getdikcə daha təhlükəli hal alır. Çünki onların evi düşmən üçün hədəflərdən biri olur:

- Ermənilər bilirdilər ki, atam hərbçidir. O, düşmənə xeyli zərbə vuran hərbçi olduğuna görə evimizi daha çox atəşə tuturdular. Anam Gülarə dedi ki, evdən çıxıb məhəllədə ağaclıqda gizlənək. Belə də etdik. Təxminən saat 9 radələrinə qədər 19 nəfərdən ibarət özünümüdafiə batalyonumuz ermənilərin və 366-cı alayın hücumunun qarşısını aldılar. Ancaq həmin alayın tərkibində olan BTR-lərin, tankların kəndə girişindən sonra özünümüdafiə batalyonumuz məcburi şəkildə geri çəkilməli oldu. Bu zaman qonşumuz Yusif gəlib dedi ki, ermənilər Əsəd əmimgilin evini yandırıblar, indi bura gələcəklər, çıxıb qaçın.

Məhləylə qaçıb qonşu qapıya çatanda zirehli maşın evimizin qarşısına çıxdı və ermənilər bizi görüb BTR-dən güllələməyə başladılar. Allahın qismətindən o güllələrdən heç biri bizə dəymədi. Çox çətinliklərlə dərəylə, tikanlıqla kənddən çıxdıq və Bağırlı kəndinə gəldik. Buradan isə bizi bir maşına yığıb, təhlükəsiz ərazi hesab edilən Yanşaq kəndinə gətirdilər. Həmin vaxta qədər atamdan heç bir xəbər ala bilmədik.

## "Atamın nəşini tapanda silahı hələ də əlində idi..."

- Aprelin 8-i axşamı hərbçilərimiz Ağdabanı düşməndən geri aldılar. Səhəri günü biz kəndə qayıdanda burada dəhşətli faciələrin törədildiyinin şahidi olduq. Bir günün içində 33 nəfəri şəhid etmişdilər. Camal kişi var idi, qızı Ülviyyəni belinə alıb qaçmaq istəyəndə bir güllə ilə hər ikisini vurmuşdular. Ata-bala bir yerdə can vermişdi.

Musa adlı sindromlu xəstə var idi. Anası Həyat qoca qadın idi. Onlar evdən çıxa bilməmişdilər, kənddə qalmışdılar. Musa ermənilərin üstünə gedib deyib ki, mən sizə nə etmişəm ki, bizi incidirsiniz? Musanı tutub əllərini məftillə bağlayıb, qonşunun ot tayasına atıb diri-diri yandırmışdılar. Oğlunun qışqırtısına çıxan anasını da evin divarına dirəyib bir daraq gülləni onun bədəninə boşaltmışdılar.

Postda olan əsgərlərimiz güllələri qurtarana qədər ermənilərlə döyüşmüşdülər. Onları əsir götürmüşdülər. İsbəndyarın sinəsini yarıb ürəyini çıxartmışdılar, Qorxmaz və Rayəti yerə uzadıb üstlərindən diri-diri tankla keçmişdilər. 17 yaşlı Ziyəddini güllələmişdilər.

Həmin zaman yaxın qohumlarımızdan da şəhid olanlar, girov götürülənlər oldu. Dayımın ailəsini tamamilə məhv etdilər. Sovet dayımı və qızı Mehribanı girov götürmüşdülər, dayımın yoldaşını və oğlunu orada güllələyib şəhid eləmişdilər.

Gördük ki, kənddə tək-tək evlər yandırılmayıb. Əsir, girov, şəhid düşən insanların yaxınlarının ah-naləsi bu gün də qulağımdan getməyib.

Atamın nəşini üç gün sonra kənddən 3 kilometr aralıda, döyüşdüyü yerdə tapdıq. Silahı hələ də əlində idi... Onu Yanşaq kənd qəbiristanlığında dəfn elədik. Və o gündən də mənim atasız, köçkünlük həyatım başladı.

## Azad Ağdaban

- Amma atamın o son - "Mən gələnə qədər gözləyin" sözü qulağımda hey səslənərək, mənim üçün bir vəsiyyət oldu. 28 il o torpağın azadlığını gözlədik. Bu gün Ağdabana gedəndə atamın və şəhid kəndlilərimizin ruhunun şad olduğunu hiss edirəm. Çünki onların can verdikləri torpaqda artıq düşmən ayağı yoxdur.

Düzdür, düşmən Ağdabanı vəhşicəsinə dağıdıb, evlərimizdən əsər-əlamət yoxdur, amma torpaq həminkidir. Əsas olan da budur. Bu yurdun əsl sahibləri qayıdıblar. Kəlbəcər də, Ağdaban da yenidən dirçələcək, əvvəlki kimi cənnətməkan olacaq.

Mütəllim müəllim bu gün sinif otaqlarında şagirdlərinə təkcə dərsləri deyil, həm də atası Saşa Hüseynov və torpaqlarımızın bütövlüyü uğrunda canını qurban verən qəhrəman şəhidlərimizdən qalan o böyük dərsi - Vətəni son nəfəsə qədər sevməyi öyrədir. Ağdabanın qanla suvarılmış torpağı indi azaddır. Bu Zəfər elə Mütəllim Hüseynovun timsalında faciələr, məcburi köçkünlük həyatı yaşamış insanlarımıza da ən böyük təsəllidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*






# Xocavənd şəhərində daha 33 ailəyə evlərinin açarları təqdim olunub




Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. AZƏRTAC xəbər verir ki, Xocavənd şəhərinə növbəti köç karvanı ilə 33 ailə olmaqla 142 nəfər yola salınıb. Həmin ailələr öz yurdlarına qovuşublar və onlara evlərinin açarları təqdim olunub.









Yeni köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Onlar bildiriblər ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə 33 ailə olmaqla 142 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# Mövsümi köç edəcək fermerlər üçün təlimlərdə yeni model



İşğaldan azad edilmiş ərazilərə heyvandarlıq təsərrüfatlarının və arı ailələrinin mövsümi köçü artıq 6-cı ildir uğurla həyata keçirilir. Bu müddət ərzində fermerlərin təhlükəsiz fəaliyyətinin təmin edilməsi əsas prioritet istiqamətlərdən biri olub.

Əvvəlki 5 mövsüm ərzində köç prosesində iştirak edən fermerlər üçün köçdən öncə təhlükəsizlik qaydalarına dair genişmiqyaslı təlimlər təşkil edilib. Təlimlər Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) iştirakı ilə Sumqayıt və Gəncə şəhərlərində, eləcə də Füzuli, Bərdə, Göygöl və Yevlax rayonlarında növbəli şəkildə keçirilib.

Kənd Təsərrüfatı Nazirliyindən AZƏRTAC-a bildirilib ki, cari ildə isə təlimlərin təşkili mexanizmində yeni yanaşma tətbiq olunub. Belə ki, ANAMA tərəfindən Dövlət Aqrar İnkişaf mərkəzlərinin (DAİM) əməkdaşları üçün xüsusi hazırlıq təlimləri keçirilib, onlar təlimçi statusu əldə ediblər.

Yeni modelə əsasən, fermerlər artıq digər rayonlara getmədən, öz rayonlarında fəaliyyət göstərən DAİM-lərdə bu təlimlərdə iştirak edə biləcəklər.

Tətbiq edilən bu yanaşma təlimlərin əlçatanlığını artırmaqla yanaşı, fermerlərin vaxt və resurslarına qənaət etməyə, həmçinin təhlükəsizlik biliklərinin daha geniş şəkildə yayılmasına şərait yaradır.





# Mədəniyyət





**2026 - "Şəhərsalma və Memarlıq İli"**

# Xəzərin nəfəsi ilə yaşayan Bakı bulvari



**Xəzərin sahilində məskən salan Bakı bulvarı füsunkar gözəlliyi ilə görənləri valeh edən nadir məkanlardandır. Bura, sadəcə, istirahət zonası deyil, eyni zamanda Bakının ruhunu, tarixini və müasirliyini özündə birləşdirən salnamədir. Bu gün 117 illiyini qeyd edən bulvar ötən əsrlərin izlərini qoruyaraq gələcəyə doğru inamla addımlayan nadir ünvanlardandır.**

Bakı bulvarının formalaşması uzun və mürəkkəb şəhərsalma prosesinin nəticəsi kimi XIX əsrin əvvəllərindən başlanır. Həmin dövrdə Bakı sahil zolağı əsasən təsərrüfat məqsədləri üçün istifadə olunurdu. Bu ərazidə əsasən anbarlar və çoxsaylı körpülər yerləşirdi. 1860-cı illərdə "Qafqaz və Merkuri" Paraxod Cəmiyyətinin fəaliyyəti nəticəsində sahil zolağı qərbdə Aleksandrovski, şərqdə isə Petrovski sahilləri olmaqla iki hissəyə bölünürdü ki, bu da vahid sahil küçəsinin formalaşmasına imkan vermirdi.




Sahil ərazisinin sistemli şəkildə abadlaşdırılması istiqamətində ilk ciddi addımlar azərbaycanlı memar Qasım bəy Hacıbababəyov tərəfindən atılmışdır. O, 1860-cı ildə qala divarlarının dəniz tərəfdən sökülməsindən sonra sahil zolağının planlaşdırılmasını həyata keçirmiş, 1865-1868-ci illərdə II Aleksandrın adını daşıyan sahil küçəsinin əsasını qoymuşdur. Təxminən 650 metr uzunluğunda sahil xəttinin formalaşdırılması, 1862-ci ildə anbar komplekslərinin yerləşdirilməsinə dair layihənin hazırlanması da məhz onun adı ilə bağlıdır.

Sonrakı illərdə şəhərin sürətli inkişafı, xüsusən 1863-cü ildə Avropa-Fars tranzit yolunun Bakıya istiqamətlənməsi sahilboyu ərazilərin abadlaşdırılmasını aktuallaşdırdı. 1865-ci ildə general-leytenant Mixail Petroviç Kolyubakinin təşəbbüsü ilə köhnə qala divarlarının sökülməsi üçün icazə alındı, əldə olunan vəsait sahilboyu daş örtüklü küçələrin salınmasına yönəldildi. 1867-ci ildə su kəmərlərinin çəkilməsi, fəvvarələrin və digər infrastruktur elementlərinin yaradılması ilə sahil ərazisi artıq bulvar xarakteri almağa başladı. Lakin uzun müddət sahil zolağı özəl şirkətlərin körpüləri və sənaye obyektləri ilə tutulduğundan vahid şəhərsalma planını həyata keçirmək mümkün olmamışdı.

Yalnız XX əsrin əvvəllərində bu istiqamətdə real addımlar atıldı. 1902-ci ildə Şəhər Duması Bakının dənizkənarı şəhər olduğunu nəzərə alaraq əhali üçün bulvar şəklində dənizə çıxışının təmin edilməsi barədə qərar qəbul etdi. Sahil zolağının abadlaşdırılması məqsədilə mülki mühəndis K.B.Skureviç tərəfindən layihə hazırlandı və şəhər rəhbərliyi tərəfindən dəstəkləndi.

Layihəyə əsasən, sahilboyu nəqliyyatın hərəkəti üçün 20 metr enində küçənin salınması, ərazinin münbit torpaqla doldurulması və yaşıllaşdırılması nəzərdə tutulurdu. Nəhayət, 1909-cu ildə Bakı Şəhər Upravasının tikinti şöbəsinin rəisi, mühəndis və təşkilatçı Məmmədhəsən Hacınski bu layihənin həyata keçirilməsinə rəhbərlik etmiş, onun təşəbbüsü və görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə Dənizkənarı bulvarın əsaslı şəkildə salınması təmin olunmuşdur.

Layihə işlərinə memar Adolf Eyxler də cəlb edilmiş, həmçinin müsabiqə çərçivəsində Zivər bəy Əhmədbəyov, İosif Ploşko, İvan Edel kimi tanınmış memar və mühəndislər dəvət olunmuşlar. Mülki mühəndis Q.M.Termikelovun "Zvezda" layihəsinin qalib seçilməsi ilə bulvarın konseptual inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Bu dövrdə sahildə çimərliklərin yaradılması (Mixail Botov, daha sonra Nikolay Bayevin layihələri əsasında), istirahət və ictimai obyektlərin tikintisi, eləcə də yaşıllaşdırma işləri bulvarın şəhərin mühüm ictimai məkanına çevrilməsini təmin etmişdir.

Xəzərin sahilində uzanan bu gözəllik məkanı salınarkən əsas məqsəd şəhər sakinləri üçün istirahət zonası yaratmaq idi. Lakin zaman keçdikcə Bakı bulvarı, sadəcə, park olmaqdan çıxaraq paytaxtın simvoluna, onun vizit kartına çevrildi. Burada hər daş, hər ağac sanki bir tarix danışır. Bulvar neft bumu dövründən müasir inkişaf mərhələsinə qədər uzanan yolun canlı şahididir. Sovet dövründə də bulvar öz əhəmiyyətini qoruyub saxladı... Müstəqillik illərində Bakı bulvarı məzmunu və gözəlliyi ilə yeni mərhələyə qədəm qoydu. Xüsusilə son zamanlar həyata keçirilən genişmiqyaslı abadlıq və yenidənqurma işləri nəticəsində bulvar daha da genişlənərək müasir memarlıq nümunələri ilə zənginləşdi. Bu gün burada yerləşən Milli Park ərazisi həm yerli sakinlərin, həm də şəhər qonaqlarının ən sevimli məkanlarından biridir.

Bulvar boyunca ucalan müasir tikililər - Bakı Ferris Wheel, Dəniz Mall, Azərbaycan Xalça Muzeyi və Beynəlxalq Muğam Mərkəzi kimi mədəniyyət ocaqları bu ərazinin həm estetik, həm də funksional baxımdan zənginliyini artırır.

Bakı bulvarının ən möhtəşəm və rəmzi məkanlarından biri də Dövlət Bayrağı Meydanıdır. 2010-cu il sentyabrın 1-də istifadəyə verilən meydanda ucaldılmış bayraq dirəyinin hündürlüyü 162 metr, bayrağın ölçüləri 70x35 metr, çəkisi isə təxminən 350 kiloqramdır. Bu unikal meydanın açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər. Bu gün burada dalğalanan bayrağımız İkinci Qarabağ müharibəsində qazanılmış Zəfərdən sonra milli qürurun, qələbəmizin əzəmətinə çevrilib. Bu gün bulvarda insanların ən çox ziyarət etdiyi məkanlardan biri də Zəfər Muzeyidir. Bu layihə bulvarın müasir inkişaf konsepsiyasında mühüm yer tutur.

Xatırladaq ki, bulvarın ərazisi son illər əhəmiyyətli dərəcədə genişləndirilmişdir. XX əsrin ortalarında onun uzunluğu 3-4 kilometr olduğu halda bu gün 25 kilometrə yaxınlaşmışdır. Hazırda bulvarın Ağ Şəhər bulvarı və Bayıl bulvarı istiqamətlərində genişləndirilməsi davam edir.

Bakı bulvarı yalnız istirahət məkanı deyil, həm də insanların görüşdüyü, xatirələr yaratdığı, bayramların qeyd olunduğu, həyat ritminin hiss olunduğu bir məkandır. Mavi Xəzər dənizi ilə həmahəng uzanan bu bulvar daim yenilənir, genişlənir. 117 illik tarixə malik Bakı bulvarı zamanın sınaqlarından çıxaraq bu gün də öz cazibəsini qoruyur. O, keçmişin yaddaşı, gələcəyin özüdür.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

**Musiqi xadimlərimiz**

# Həyatını Üzeyir bəylə təsadüfi tanışlığı dəyişdi

**İxtisasca mühəndis-texnoloq olan, uşaqlıqdan dəqiq elmlərə sonsuz marağı olan Ədilə Hüseynzadə 1916-cı il aprelin 29-da Bakıda dünyaya göz açıb, İçərişəhərdə boya-başa çatıb. Ailəsində incəsənətə böyük sevgi görüb, musiqiyə duyduğu heyranlıq kiçik yaşlarında aldığı təhsillə cilalanıb.**



O, 6 yaşından yeddiillik musiqi məktəbində professor İ.S.Aysberqin sinfində fortepiano dərsləri alıb. Lakin dəqiq fənlərə marağı orta məktəbi bitirəndə sənət seçiminin önündə dayanıb. 1929-cu ildə Nəriman Nərimanov adına Sənaye Texnikumuna daxil olub. Adı texnikumun əlaçı tələbələri sırasında çəkilib. Sənayə Texnikumunu əla qiymətlərlə başa vurduğuna görə Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyası) imtahansız qəbul edilib. Həmin təhsil ocağını da əla qiymətlərlə bitirərək mühəndis-texnoloq peşəsinə yiyələnib. Ancaq hələ kiçik yaşlarında qəlbində yurd salan musiqi sevgisi duyğularını başqa bir aləmə qanadlandırıb.

Gələcək həyatını musiqisiz təsəvvür edə bilmədiyi günlərin birində dahi bəstəkar Üzeyir bəy Hacıbəyli ilə tanış olması həyatını yeni bir məcraya yönəldib. Sonralar Ədilə Hüseynzadə həmin günləri barədə deyib: "1936-cı ilin yayında atamın Şüvəlandakı bağında oturmuşduq. Birdən kiçik bacım təngnəfəs gəlib xəbər verdi ki, Üzeyir bəy bir neçə nəfərlə bizim evə tərəf gəlir. Hamımız cəld qapıya çıxdıq. Doğrudan da, Üzeyir bəy idi. Atam tez onu ehtiramla qarşıladı və bağa dəvət etdi. Üzeyir bəy Hacıbəyli bildirdi ki, yayda dincəlmək və yaradıcılıqla məşğul olmaq üçün sakit bağ axtarır. Bağımızın bir tərəfində qonaq-qara üçün ayrıca ev var idi. Atam oranı Üzeyir bəy Hacıbəyliyə göstərdi. Üzeyir bəy də evi çox bəyəndi. Böyük sənətkar nə qədər israr etsə də, atam onunla pul söhbəti aparmadı. Beləliklə, 1936-cı ilin yay aylarında Üzeyir bəy Hacıbəyli ailəsi ilə bərabər bizim bağda istirahət etdi və özünün məşhur "Koroğlu" operasının dördüncü pərdəsini də orada yazdı. Elə həmin yay Üzeyir bəy Şüvəlan bağlarına elektrik xətti çəkdirdi. Ona qədər bağlarda sakinlər lampa işığından istifadə edirdilər".

Qarşıdan çoxlarının həyatının faciəli ilinə çevriləcək 1937-ci il gəlirdi. Dəhşətli repressiya burulğanı yaxınlaşdıqca başlarının üstündə qara buludlar dolaşan ailələrdən biri Hüseynzadələr olub. İran pasportları olduğu üçün onlar da İrana sürgün ediliblər. Ədilə Hüseynzadə o vaxt artıq ailə həyatı qurmuşdu. İki övlad anası idi. Ona görə də o, sürgündən azad olunub. Amma ata-anasından, iki bacısından və qardaşından ayrı düşüb. Bu ayrılıq uzun çəkib. Ədilə xanım doğmalarının həsrətinə qatlaşaraq yaşayıb.

Ömrünün o ağır günlərində Üzeyir bəydən əsl atalıq qayğısı görüb. Həmin çətin vaxtlarında bir də musiqi sevgisi əlindən tutub. Ədilə Hüseynzadə 1942-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının rektoru Üzeyir bəy Hacıbəylinin yanına gedib. Ona musiqiçi olmaq arzusundan danışıb. Bir də deyib ki, "hiss edirəm, yaxşı səsim var". Komissiya üzvləri toplanaraq onun ifasını dinləyiblər. Ədilə Hüseynzadənin gözəl metsosoprano səsə malik olduğuna qərar verib, onu Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası) vokal şöbəsinə qəbul ediblər. O, vokal dərslərini SSRİ Xalq artisti Bülbülün sinfində almağa başlayıb.

Bəstəkar olmaq qərarını isə orada bir il təhsil aldıqdan sonra verib. İsmayıl Soltanın "Yadigar" şeirinə musiqi bəstələyib. Üzeyir bəy onun bəstəsini bəyənib...

Vokal şöbəsindən bəstəkarlıq şöbəsinə keçən Ədilə Hüseynzadə həftədə dörd dəfə Üzeyir bəy Hacıbəylidən dərs almağa başlayıb. O, Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə "Vəslin həvəsi" romansını da hələ tələbə ikən Üzeyir bəyin təşəbbüsü ilə bəstələyib. Üzeyir bəy əsəri yüksək qiymətləndirib. Romansın ilk ifaçısı isə böyük müğənni Bülbül olub.

Üzeyir bəy Hacıbəyli 1945-ci ildə ekranlaşdırılan "Arşın mal alan" filmində Asyanın vokal partiyasını Ədilə Hüseynzadəyə həvalə edib. O, əsərləri ilə tələbəlik illərindən həm Sovet İttifaqında, həm də xarici ölkələrdə tanınıb.

1948-ci ildə Üzeyir bəy Hacıbəyli dünyasını dəyişdikdən sonra Ədilə Hüseynzadə professor Boris Zeydmanın sinfinə keçirilib. Azərbaycan Dövlət Konservatoriyasını 1953-cü ildə bitirib. Həmin il Bülbül adına orta ixtisas musiqi məktəbində pedaqoji fəaliyyətə başlayıb. 1986-cı ilədək həmin təhsil ocağında kompozisiyanın əsasları fənnindən dərs deyib.

İstedadlı bəstəkar həm klassik, həm də müasiri olan şairlərin əsərlərinə müraciət edib. O, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Xurşidbanu Natəvanın, Aleksandr Puşkinin, Səməd Vurğunun, Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Nigar Rəfibəylinin, Rəsul Rzanın şeirlərinə musiqilər yazıb.

Bəstələdiyi "Bülbül", "Qarayazı meşəsində", "Bir səs", "Susdu bülbülümüz", "Günəşdən gənclik istədim", "İnsanları sevməsəydim", "Yenə elədir" və başqa romansları, mahnıları sevilə-sevilə ifa edilir. Bəstəkar bir sıra irihəcmli əsərlər də yazıb. O, xor üçün "Oktyabr", xor və simfonik orkestr üçün "Vətən" kantatası, simfonik poema, "Vətən" vokal və simfonik silsiləsi, xor, solistlər və simfonik orkestr üçün "Sülhün səsi" kantatası, Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırovaya həsr etdiyi simfonik poema, tar və solistlər və xor üçün "Ərəb dostlarıma", solistlər və xor üçün "Neylərəm", xor üçün "Üzün bərqi gülitərdir", kapella xoru üçün "Vətən" adlı xor əsərləri, solist bariton qadın xoru və orkestr üçün "Oğlumun babasına" adlı balladanın müəllifidir.

O, 1944-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının üzvü seçilib. 1982-ci ildə Əməkdar incəsənət xadimi" adına layiq görülən Ədilə xanım Hüseynzadə 2005-ci il iyulun 20-də dünyasını dəyişib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# "Molla Nəsrəddin"in 120 illiyi münasibətilə virtual sərgi və biblioqrafik icmal hazırlanıb

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Molla Nəsrəddin" jurnalının 120 illik yubileyi münasibətilə "Molla Nəsrəddin - 120" adlı virtual sərgi və "Milli mətbuat tariximizin güzgüsü" adlı biblioqrafik icmal tərtib edilib.**




Kitabxanadan bildirilib ki, virtual sərgidə Xalq yazıçısı Anarın "Molla Nəsrəddin" yüz on il sonra, "Molla Nəsrəddin lətifələri", jurnalın tarixi haqqında müxtəlif illərdə çap olunmuş kitablar və mətbuatda dərc edilmiş məqalələr toplanıb.

Kitabxana əməkdaşlarının hazırladığı biblioqrafik icmalda "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, "Molla Nəsrəddin" jurnalının tarixi, jurnal haqqında maraqlı faktlar, akademik İsa Həbibbəylinin "Mollanəsrəddinçilik təlimi və müasirlik", professor Allahverdi Məmmədlinin "Cəlil Məmmədquluzadənin publisistikası azərbaycançılıq kontekstində", jurnalist Zümrüd Bayramovanın "Zamanın yaratdığı 120 yaşlı "Molla Nəsrəddin" adlı məqalələrin tam mətni verilib. Vəsaiti tərtib etməkdə məqsəd nəşrin yaranma tarixi, ideya-məzmun xüsusiyyətləri və ictimai-siyasi proseslərə təsiri, Azərbaycan mətbuat tarixində və satirik ədəbiyyatın inkişafındakı rolu haqqında materialları gənc nəslə çatdırmaq və milli-mədəni irsin öyrənilməsi və təbliği fonunda oxucularda analitik və tənqidi düşünmə bacarığını formalaşdırmaqdan ibarətdir.

# ANİMAFİLM festivalına dünyanın 60-dan çox ölkəsindən 437 film göndərilib

**Azərbaycan Animasiya Assosiasiyası və ANİMAFİLM MMC-nin təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nizami Kino Mərkəzi və Suraxanı gəmi-muzeyində mayın 13-dən 17-dək 9-cu ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək.**




Assosiasiyadan bildirilib ki, Azərbaycanın ilk və yeganə animasiya festivalı olan ANİMAFİLM-ə dünyanın 60-dan çox ölkəsindən iştirak üçün 437 animasiya filmi göndərilib.

Genişmiqyaslı baxış və qiymətləndirmə prosesindən sonra festivalın seçim komissiyası tərəfindən müxtəlif kateqoriyalar üzrə müsabiqədə yarışacaq filmlərin siyahısı müəyyənləşdirilib və festivalın seçim komitəsinin qərarına əsasən, bu il rəsmi seçim proqramına 21 ölkəni təmsil edən ümumilikdə 34 film daxil edilib. Seçilmiş filmlər həm vizual zənginliyi, istifadə olunan innovativ animasiya texnikaları, həm də toxunduğu qlobal və lokal mövzuların dərinliyi ilə fərqlənir.

Festivalın direktoru Rəşid Ağamalıyev builki rəsmi proqram və festivala olan maraq haqqında öz fikirlərini belə ifadə edib: "Bu il 60-dan çox ölkədən 450-ə yaxın filmin göndərilməsi ANİMAFİLM festivalının qlobal animasiya xəritəsində tutduğu mövqeyin və artan beynəlxalq nüfuzunun əyani sübutudur. Festival çərçivəsində təkcə yerli və xarici film nümayişləri deyil, eyni zamanda sənayenin inkişafına təkan verən 2-ci ANİMAFİLM Beynəlxalq Pitçinq Müsabiqəsi, xarici mütəxəssislərin iştirakı ilə ustad dərsləri, peşəkarlarla görüşlər və müxtəlif müzakirə panelləri də olacaq. Festival yerli animasiya sənayesi nümayəndələrini beynəlxalq təcrübə ilə tanış etmək missiyasını bu il də uğurla davam etdirir".

# Sarı Aşığın "Gül dəftəri" kitabı çap olunub

**Cinas bayatılar ustadı kimi tanınan Sarı Aşığın "Gül dəftəri" kitabı üçüncü dəfə çap olunub.**




AZƏRTAC xəbər verir ki, şair İlham Qəhrəman tərəfindən toplanaraq tərtib edilən yeni nəşr AMEA Folklor İnstitutu Elmi şurasının qərarı ilə işıq üzü görüb. Təkmilləşdirilmiş bu topluda Sarı Aşığa məxsus müxtəlif mənbələrdən götürülmüş 1018 bayatı, 8 qoşma (2 təcnis), 33 bayatı-tapmaca və bağlama yer alıb. Tərtibçi istifadə etdiyi qaynaqlara tənqidi yanaşıb, çoxsaylı deyim və sözlərə, dini-mifoloji məfhumlara, xüsusi adlara aydınlıq gətirib, cinasları düzgün və anlaşıqlı şəkildə təqdim edib. Sarı Aşığın irsi bu kitabla oxuculara tam şəkildə çatdırılır. Əvvəlki toplulardan fərqli olaraq üçüncü nəşrə haqq aşığının iki mənbədən götürülmüş 21 bayatısı əlavə edilib və indiyə qədər cavabsız qalmış bağlama və tapmacaların bir çoxunun açması düzgün qeyd olunub. Eyni zamanda oxucular yeni nəşrdə Sarı Aşıq haqqında el arasında yayılmış rəvayətlərlə də tanış ola biləcəklər.

Kitabın sonunda tərtibçi çətin sözlər üçün "Sözlük" verib. Topludakı bayatılar köhnə ənənə üzrə birinci misranın son hərfinə uyğun olaraq əlifba sırasıyla düzülüb. 288 səhifəlik kitab İlham Qəhrəmanın "Ürək qoyulan kitab" adlı geniş "Ön söz"üylə açılır. Eyni zamanda "Salman Mümtazın xatirəsinə" xüsusi qeydi də tərtibçinin xələflərə olan minnətdarlığının ifadəsi kimi diqqət çəkir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş nəşrin redaktoru filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədi, korrektoru filoloq Nigar İlhamqızıdır.

# Dəniz suyu şirin su hövzələrinə qənim kəsilib

## İnsanlar əziyyətdə, fermerlər ziyanda, mütəxəssislər axtarışdadırlar

Yeni Orleanda kranlardan duzlu su axır. Banqladeşdə fermerlər münbit torpaqları karides (krevet) yetişdirmək üçün yarı şirin su gölməçələrinə çevirməyə məcbur olurlar. Qambiyada isə kəndlilərin məhsullarının duzlaşma nəticəsində quruyub məhv olduğunu seyr etməkdən savayı əlacları yoxdur.



Dünyanın hər yerində əvvəllər etibarlı olan sahil şirin su mənbələri dəniz suyunun sızması səbəbindən duzlaşır. Qeyri-rəsmi olaraq "duzluluq böhranı" kimi tanınan bu qeyri-adi və tədricən də olsa yayılan böhran getdikcə dünya əhalisinə daha çox təsir göstərir.

Duzluluq (dəniz suyunun sızması kimi də tanınır) okean və ya dənizdən duzlu suyun şirin su hövzələrinə sızmasıdır. Hazırda Qambiya, Vyetnam və Banqladeş kimi aran ərazili ölkələr ən çox zərər çəkir. Lakin problem o qədər qlobaldır ki, hətta ABŞ-yə də təsir edir. Yeri gəlmişkən: 2050-ci ilə qədər Antarktida istisna olmaqla, hər qitədə ən azı 1 km dərinliyə duzlu suyun sızması qeydə alınan sahil ərazilərinin olacağı proqnozlaşdırılır.

ABŞ-dəki Qərbi Karolina Universitetinin professoru Robert Yanq deyir ki, duzlu suyun sızması, adətən, uzun müddət ərzində tədricən baş verir, lakin içməli su təchizatı, düyü becərilməsi və s. dünyanın sahil bölgələri üçün uzunmüddətli dağıdıcı nəticələrə səbəb olur. Ekspert deyir: "Duzlanma yavaş başlayan iqlim böhranıdır. Cox vaxt diqqət fırtına kimi böyük hadisələrə yönəlir, daha ləng dəyişikliklər isə gizli qalır. Biz səhvən fəlakətlərə hazırlaşırıq, əslində isə xüsusən inkişaf edən ölkələrdə sahil ərazilərinin gələcəyinə təsir edə bilən məhz yavaş başlayan iqlim fəsadlarıdır".

ABŞ-də duzlanma artıq bir çox sahil su hövzəsinə təsir göstərib və daha çox həssas Biskeyn hövzəsinin əsas şirin su mənbəyi olduğu cənubi Florida ovalığında kənd təsərrüfatına və içməli su təchizatına təhlükə yaradıb. Alimlər Rod-Aylenddəki quyuların da duzlu su ilə çirkləndiyini aşkar ediblər. "The Guardian" qəzetinin məlumatına görə, Luiziana sakinləri hətta kran suyunda duzlu bir dad hiss etməyə başlayıblar və 2023-cü ildə Luiziana qubernatoru duzlaşmanın təsirləri səbəbindən federal fövqəladə vəziyyət elan olunmasını tələb edib. Çünki duzlu su, sadəcə, xoşagəlməz bir dad deyil. Tədqiqatlar göstərir ki, duzlu su içən insanlar yüksək təzyiq və sağlamlıq üçün mənfi təsirləri olan digər halların riski altında olurlar.

Delaver Universitetinin (ABŞ) hidrogeoloqu Holli Mayklın sözlərinə görə, vəziyyət iqlim dəyişikliyi ilə daha da ağırlaşır ki, bu da temperaturun artmasına, yağıntının azalmasına və qlobal dəniz səviyyəsinin qalxmasına səbəb olur. ABŞ də daxil olmaqla, bəzi yerlərdə yeraltı suların məişət, kənd təsərrüfatı və sənaye məqsədləri üçün həddindən artıq istifadəsi də duzlu suyun şirin su hövzələrinə daxil olmasına əhəmiyyətli dərəcədə təsir göstərir və onun torpaqlara, çaylara sızmasına səbəb olur.

Bütün bunların qarşısını almaq üçün insanlar duzlu suyun sızmasına müqavimət göstərməyə çalışırlar. Məsələn, Floridada şirin suyu dəniz suyundan ayırmağa kömək etməkdən ötrü xüsusi duz nəzarəti qurğuları quraşdırılıb. Eynilə Vyetnamda ölkənin düyü plantasiyaları olan Mekonq deltasını duzlu suyun sızmasından qorumaq üçün milyonlarla dollara başa gələn şlüz qapıları tikilib. Lakin bu layihələr teztez problemlərlə qarşılaşır və həmişə təsirli olmur.

Amma problemin Floridada başqa bir mühəndislik həlli də var: çirkli sular toplanır, təmizlənir və sonra çaya axıdılır. Çin və Niderland da suyun təmizlənməsi və təkrar istifadəsinə oxşar yanaşmadan istifadə edir. Bütün bu həll yollarına baxmayaraq, universal, yəni bütün ərazilərdə işləyən vasitə mövcud deyil. Bunu Şimal-Şərq Universitetinin (ABŞ) iqlim dəyişikliyi üzrə tədqiqatçısı Lizzi Yarina deyir.

İqlim dəyişikliyi sürətləndikcə və əhali artımı şirin su hövzələrinə təzyiq göstərməyə davam etdikcə, duzluluq böhranı daha da pisləşəcək. Aparılan araşdırmaya görə, bu böhran 2100-cü ilə qədər dünyanın sahil xətlərinin təxminən 77 faizini əhatə edəcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarından olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı

***müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 22 aprel 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 23 aprel 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***



## "E R A" ASC-nin səhmdarlarının nəzərinə

"ERA" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 1 may 2026-cı il saat 11:00-da keçiriləcəkdir.

***Yığıncağın gündəliyi:***

1. Səhmdarların reyestrində baş vermiş dəyişikliklərin müzakirəsi və təsdiqi (Milli depozit mərkəzindən alınmış reyestr məlumatları əsasında).
2. Səhmlərin pay bölgüsündə dəyişikliklərin təsdiqi (yeni səhmdarın daxil olması və pay bölgüsünün yenilənməsi).
3. Müvafiq dəyişikliklərin dövlət qeydiyyatı və vergi orqanlarına bildirilməsi barədə qərarın qəbul edilməsi.
4. Digər məsələlər.

Yığıncaqda iştirak etmək üçün səhmdarlar şəxsiyyət vəsiqəsi ilə, nümayəndələr isə qanunvericiliyə uyğun qaydada rəsmiləşdirilmiş etibarnamə ilə iştirak edə bilərlər.

**Ünvan: Nərimanov rayonu, İslam Abışov küçəsi, 20/94**

***Rəhbərlik***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun struktur idarələrinə tələb olunan boyaların satın alınması məqsədilə

***açıq tender elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 aprel 2026-cı il saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun struktur idarələrinə tələb olunan qaynaq çubuqlarının satın alınması məqsədilə

***açıq tender elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 aprel 2026-cı il saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun struktur idarələrinə tələb olunan diyircəkli yastıqların satın alınması məqsədilə

***açıq tender elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 aprel 2026-cı il saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


# Uşaqları artıq çəkidən necə xilas etməli?

Son illər uşaqlarda piylənmə və hərəkətsizlik problemi təkcə tibbi deyil, sosial və psixoloji məsələ kimi də aktuallaşıb. Artıq çəki uşağın xarici görünüşündən savayı onun gələcək sağlamlığına, özünəinamına və sosial münasibətlərinə təsir edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 5-19 yaş arası uşaqların təxminən 20 faizi artıq çəki və ya piylənmə riski altındadır və bu göstərici hər il artmaqdadır.



Uşaqlarda artıq çəki bir neçə əsas səbəblə bağlıdır: az fiziki aktivlik, balanssız qidalanma, uzun smartfon və ya ekran vaxtı, nizamsız yuxu və emosional yemək davranışı. Xüsusilə şəkərli, qazlı içkilər, paketlənmiş qəlyanaltılar və yüksəkkalorili fast-food gündəlik menyuda artdıqca, risk də yüksəlir. Məsələn, bir 330 ml qazlı içkidə 30-35 qram şəkər olur ki, bu da təxminən 7-8 çay qaşığı şəkərə bərabərdir. Uşaq gün ərzində bir neçə belə məhsul qəbul etdikdə artıq enerji yığılır, lakin hərəkət az olduğu üçün bu enerji xərclənmir.

Piylənmənin tibbi riskləri ciddi ola bilər. Erkən yaşda insulin müqaviməti, 2-ci tip diabet riski, yüksək qan təzyiqi, oynaq problemləri və qaraciyər piylənməsini buna misal göstərmək olar. Piylənmənin psixoloji tərəfi də az əhəmiyyətli deyil. Artıqçəkili uşaqlar bəzən məktəbdə lağ obyektinə çevrilir, bu isə adətən özünəinamsızlıq və sosial təcrid yaradır.

Valideynlər burada əsas rol oynayırlar. Uşaq qida və həyat tərzini ailədən öyrənir. Əgər evdə qazlı içki, şirniyyat və qızardılmış qidalar süfrədən əskik olmursa, uşağın sağlam seçim etməsi çətinləşir. Odur ki, dəyişiklik ilk növbədə ailə mühitində başlamalıdır.

Valideynlər uşaqların ekran və ya telefon vaxtına diqqət etməlidirlər. Uşaqlar üçün gün ərzində 1-2 saatdan artıq əyləncə məqsədli ekran vaxtı tövsiyə edilmir. Uzun müddət oturaq qalmaq maddələr mübadiləsini zəiflədir və iştahanı artırır. Evdə "ekransız saat" qaydası tətbiq etmək faydalı ola bilər. Eyni zamanda gündəlik fiziki aktivliyə də xüsusi yer ayırmaq vacib məqamlardandır. Uşağın hər gün ən azı 60 dəqiqə aktiv hərəkətdə olması arzuolunandır. Bu, mütləq peşəkar idman demək deyil - sürətli gəzinti, velosiped, üzgüçülük, rəqs və ya açıq hava oyunları da kifayətdir. Əsas odur ki, hərəkət davamlı olsun.

Sağlam qida balansına nəzarət piylənmənin qarşısını ala bilən əsas şərtlərdən sayılır. Şəkərli qazlı içkiləri su və ya təbii içkilərlə əvəz etmək, həftədə ən azı 2-3 dəfə tərəvəz yeməkləri hazırlamaq, şirniyyatı uşaqlara gündəlik deyil, həftəlik limitlə vermək, paketlənmiş qəlyanaltılardan imtina etmək bu işdə valideynlərə böyük kömək ola bilər. Bəzən problem qidanın növü deyil, miqdarı olur. Uşağa böyüklər üçün nəzərdə tutulan qədər yemək vermək artıq kalori deməkdir. Bunun qarşısını almaq üçün kiçik boşqabdan istifadə etmək praktik üsuldur.

Düzgün qidalanma ilə bərabər, mütəxəssislər 6-12 yaşlı uşaqlar üçün 9-12 saat yuxu tövsiyə edirlər. Onların bildirdiyinə görə, yuxu azlığı iştahanı artıran hormonların aktivliyini yüksəldə bilər. Eyni zamanda uşaq darıxanda, stres keçirəndə və ya tək qalanda yeməyə yönəlirsə, bu, artıq emosional qidalanma davranışı deməkdir. Bu zaman valideynlər alternativ emosional dəstək yolları - söhbət, birgə fəaliyyət, açıq hava gəzintisi və s. axtarmalıdırlar.

Ən vacib məqamlardan biri də artıq çəkisi olan uşağı utandırmamaqdır. "Kökəlmisən", "az ye" kimi ifadələr artıq çəki almış uşağa əks-təsir göstərə, yəni uşaq gizli yeməyə başlaya bilər. Dəyişiklik ailəvi qərar kimi təqdim olunmalıdır. Hətta bu işdə məktəblərin də üzərinə müəyyən vəzifələr düşür. Məktəb bufetlərində sağlam seçimlərə üstünlük verilməsi, idman dərslərinin aktiv keçirilməsi və sağlam həyat tərzi mövzusunda maarifləndirmə proqramları vacibdir. Cəmiyyət səviyyəsində isə park və idman meydançalarının sayının artırılması uşaqların hərəkət imkanını genişləndirir.

Uşaqlarda piylənmə problemi qısamüddətli pəhrizlə həll olunmur. Bu həm də həyat tərzi və düşüncə dəyişikliyidir. Valideyn nümunə olduqda, ailədə balanslı qida və aktiv həyat tərzi formalaşdıqda nəticə daha effektli olur. Unudulmamalıdır ki, bu günün sağlam uşağı sabahın sağlam təməlidir.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***

# Hava əsasən yağmursuz olacaq

Azərbaycanda aprelin 8-nə gözlənilən hava proqnozu açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 10-12, gündüz 15-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 758 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-80, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 9-12, gündüz 18-23, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti olacağı ehtimal edilir.


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3670
Sifariş 455

Qiyməti 60 qəpik